В заключении необходимо отметить, что исследуемые изделия представляют большой научный интерес с целью выяснения их происхождения. Поэтому дальнейшие исследования в этом направлении помогут ближе подойти к решению многих проблем металлургии исследуемого периода Азербайджана.

ТАБЛИЦА

## Результаты количественного спектрального анализа металлических изделий из археологических раскопок на Апшероне

| № п. п. | Предмет, вес. | Содержание элементов в % | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Sn | Pb | Zn | As | Sb | Ag | Au | BI | Ni | Co | Fe |
| | Середина III тыс. до н.э. | | | | | | | | | | | |
| 1 | Нак. копья 36 г. | 3.35 | 0.04 | 0.01 | 0.64 | 0.2 | 0.05 | 0.002 | 0.03 | 0.007 | 0 | 0.2 |
| 2 | Шило, 3.2 г. | 3.12 | 0.27 | 0.12 | 0.9 | 0.05 | 0.05 | 0 | 0.01 | 0.04 | 0.004 | 0.1 |
| 3 | Слиток мет.,7.5 г. | 1.55 | 0.77 | 0.1 | 0.03 | 0.02 | 0.05 | 0 | 0.00 | 0.003 | 0 | 0.33 |
| 4 | Нож, 25.7 г. | 2.82 | 0.72 | 0.30 | 0 | 0.2 | 0.004 | 0.005 | 0.03 | 0.01 | 0.005 | 0.35 |
| 5 | Кинжал. 63.5 г | 2.03 | 0.07 | 0.35 | 0.15 | 0.05 | 0.004 | 0 | 0.03 | 0.01 | 0 | 0.05 |
| 6 | Лез. ножа, 27.4 г | 0 | 0.3 | 0 | 0 | 0 | 0.11 | 0 | 0.03 | 0.01 | 0 | 0.05 |
| 7 | Лез. кинжала, 41.3г | 0.53 | 0.2 | 0.03 | 0.1 | 0 | 0.12 | 0 | 0.03 | 0.22 | 0 | 0.15 |
| 8 | Фраг. кинжала 32.5 г. | 0.3 | 0.28 | 0.5 | 0.5 | 0.2 | 0.12 | 0 | 0.05 | 0.38 | 0.006 | 0.1 |
| 9 | Пуговица, 0.8 г. | 1.18 | 0.3 | 0.015 | 0.2 | 0 | 0.2 | 0.03 | 0.03 | 0.01 | 0.007 | 0.05 |

Примечание: Все изделия на медной основе, № 1, 2, 3 - из раскопок Гардашхана Асланова, курган №4 в сел. Гюргян, №4, 5, 6, 7, 8, 9 – из раскопок Идриса Алиева кургана №10 в сел. Дюбенди.

## ЛИТЕРАТУРА


1. Stöllner Th.Early mining and metallurgy on the Iranian plateau / Anatolian metall III Der Anschnitt,18, deutsches Bergbau-Museum.Bochum 2005.
2. Гасанова А.М. История познания и использования цинка и латуни. Изд. Элм, Баку, 2002.
3. Гак Е.И. О древнейших латунях Евразии. Тезисы докл. Древний Кавказ. Ретроспекция культур. Междунар. науч. конф., посвщ. 100-летию со дня рожд. Е.И. Крупнова. РАН Институт Археологии. Рос. Гуманитарный науч. фонд. Москва, 2004.
4. Егорков А.Н., Гак Е.И., Шишлина И.И. Могильник в Калмыкии: латунь в бронзовом веке. Тезисы докл. Древний Кавказ. Ретроспекция культур. Междунар. науч. конф. посвящ. 100-летию со дня рожд. Е.И.Крупнова, РАН Институт Археологии. Рос. Гуманитарный науч. фонд. Москва, 2004.
5. Эфендиев Г.Х. Гидротермальный рудный комплекс Северо-Восточной части Малого Кавказа. Изд. АН Азерб. ССР, Баку, 1957.
6. Селимханов И.Р. Разгаданные секреты древней бронзы. Изд. Наука, Москва, 1970.
7. Selimkhanov İ.R. Remarks on research in the ancient metallurgy of Transcaucasia and the issue of Southeast Asian tin. Edited by F.D. Bulbeck. In Ancient Chinese and Southeast Asian Bronze Age Cultures. Taipei. SMS İnc. 1996- 97. Vol. 2
8. Нариманов И.Г., Селимханов И.Р. К определению первых металлов в быту Восточного Закавказья. ДАН Азерб. ССР, том. XXI, № 4. Изд. Элм, Баку 1965.
9. Минералы. Изд АН СССР, Москва, 1960.
10. Chirshman R. Foillen de Sialk 11. Paris , 1938.


# ABŞERON ARXEOLOJİ QAZINTILARINDA ORTA TUNC DÖVRÜ METAL MƏMULATLARININ TARİXİ - ANALİTİK TƏDQİQİ

***Əzizəxanım Həsənova***

***Xülasə***

Tədqiq olunan məmulatlar arxeoloqlar Qardaşxan Aslanov və İdris Əliyev tərəfindən Abşeron ərazisindən arxeoloji qazıntılar zamanı aşkar olunmuş kurqan qəbirrlərdən əldə olunmuşdur. Abşeron ərazisindən aşkar olunmuş, orta tunc dövrünə aid 8 əşya arxeoloji texnologiya sektorunda miqdari-spektral analiz metodu ilə tədqiq olunmuşdur (cədvələ bax).

Analitik tədqiqin nəticələri göstərmişdir ki, bütün bu əşyalar mis əsaslıdır və miqdari və vəsfi mənada qalay, qurğuşun, mərgümüş və sink qarışığı tərkiblidirlər. Qalay demək olar ki, bütün tədqiq olunan məmulatlarda rast gəlinir (7№-li xəncər fraqmentindən başqa) və 0,52-dən 3,35%-ə qədər təşkil edir. Yüksək faizli qurğuşun (0,72% və 0,77%) iki məmulatda rast gəlinir (№3 və №4-də), 0,64%, 0,9% və 0,5% mərgümüş 3 məmulatda №1, № 2, №7-də, sink və bir məmulatda №7-də 0,55% rast gəlinir (cədvələ bax).

Məlumdur ki, Abşeronda mis və polimetal filiz yataqları yoxdur. Həmçinin qeyd etmək lazımdır ki, müasir dövrə qədər hələ Abşeronda aparılan arxeoloji qazıntılardan metal istehsalının qədim atributlarına (butə, slaklar, sobalar, qəlib, baca) rast gəlinməmişdir ki, tədqiq olunan məmulatların yerli istehsal olduğunu sübut etsin. Qeyd etmək lazımdır ki, qədim dövrlərdən işlənən mis və polimetal filiz yataqları İran və Cənubi Azərbaycan ərazisində yayılmışdır. B.e.ə. III minilliyin ortalarında filizi Abşerona gətirmək və burada metallurgiya istehsalını yaratmaq əlverişli deyildi, çünki burada odun mənbəyi olan meşələr və filiz yataqları yox idi. Onsuz isə metalı əritmək mümkün deyildi. Ona görə də tədqiq olunan məmulatlar yerli istehsal \deyillər, Qafqazın müxtəlif metallurgiya ocaqlarındandır, daha çox Cənubi Azərbaycan və İrandandırlar.

# HISTORICAL -ANALYTICAL INVESTIGATIONS OF METALLIC ARTIFACTS OF MIDDLE BRONZE AGE FROM THE ARCHAEOLOGICAL EXCAVATION IN APSHERON

***Azizaxanım Hasanova***

***Summary***

This thesis is dedicated to the investigation of objects made from bronze, discovered by the archaeological excavation on the territory of Absheron. These objects present weapons, besides two artifacts (see tab.). The result of the analytical investigations by the quantitative spectral analysis shows, that they have been made from bronze containing tin, and impurities of arsenic and zinc. All these objects were imported to Absheron from different metallurgy centers of the Caucasus and Iran, because such deposits are not found on the territory of Absheron.

# ALBANİYANIN İLK ORTA ƏSR MADDİ MƏDƏNİYYƏTİ

***Mübariz Xəlilov***
*(AMEA Arxeologiya və Etnoqrafiya institutu)*

III əsrin ortalarında Albaniya Sasanilər sülaləsinin qurduğu İran imperiyası tərkibinə daxil oldu. Albaniyada yerli Arşakilər sülaləsinin hakimiyyətinin qorunub saxlanılması nəticəsində ölkə İrandan asılı vəziyyətdə olan, lakin müəyyən dərəcədə müstəqilliyini hifz etmiş bir dövlətə çevrilir. Bununla belə alban sikkələrinin zərb edilməsinin dayandırılması, ilk dövrlərdə İrana, VII əsrdə isə eyni zamanda Ərəb xilafəti, Xəzər xaqanlığı və Bizans imperiyasına ödənilən xərac və vergilər («Alban tarixi», II: 16, 28; III: 12) Albaniya iqtisadiyyatının inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi. Sasanilər tərəfindən dövlət dini səviyyəsinə qaldırılmış zərdüştlüyün (atəşpərəstliyin) Albaniyada zor gücünə yayılması yönümündə edilən cəhdlər ölkəni ideoloji təzyiq altında saxlayırdı. III əsrdə Muğanda Sasani imperiyasının tərkibinə daxil olan Balasakan və Allan (Alan) şahlıqlarının yaradılması (19, s. 61), III əsrin sonunda Dərbənd şəhərinin daxil olduğu tarixi Çol vilayətində Orta Asiyadan köç etmiş masqut (massaget) və hun qəbilələri tərəfindən Masqut hökmdarlığının bərqərar edilməsi, V əsrin ortalarında Çolda Sasani imperiyasının xüsusi mərzbanlığının (canişinliyinin) təşkil edilməsi («Alban tarixi», II:2) həmin ərazilərin faktiki olaraq Albaniyanın nəzarəti altından çıxması ilə nəticələndi. Bu həm də şimal-cənub dəhlizində məşhur Alban keçidinin və həmin keçiddəki Böyük ipək yolunun strateji hissəsinin itirilməsi demək idi. Bu isə öz növbəsində ölkənin iqtisadi vəziyyətinə və ticarət münasibətlərinə zəiflədici təsir göstərməli idi. V-VI əsrlərin müəyyən rüblərində yerli sülalənin hakimiyyətdən müvəqqəti uzaqlaşdırılması və həmin dövrlərdə ölkənin Sasanilərin təyin etdiyi mərzbanın tam ixtiyarına verilməsi Albaniyanın ümumi, o cümlədən, özünəməxsus mədəni inkişafına da zərbə vururdu. VI əsrdə III Vaçaqandan sonra onun oğlu Pantaleon («Alban tarixi», I: 19) alban taxt-tacına sahib ola bilmədiyi üçün Albaniyada Arşakilər sülaləsinin hakimiyyəti sona çatdı («Alban tarixi», III: 22). Suriya müəllifi Zaxari Ritor (VI əsrin ortaları) Aranın (Albaniyanın) öz hökmdarı olduğunu göstərir. Bu isə onun yazdığı dövrdə Albaniyanın Arşakilərdən fərqli digər yerli hökmdarlar tərəfindən idarə olunduğunu təsdiq edir. Güman etmək olar ki, Albaniyada yerli üsul-idarə I Xosrov Ənuşirvan (531-579-cu illər) tərəfindən imperiyanın şimal kustu (dairəsi) təşkil edildikdən sonra ləğv olunmuşdur. Eyni zamanda I Xosrov Ənuşirvanın dağ keçidlərinin müdafiəsi məqsədilə yaratdığı şahlıqlar arasında Şimal-Şərqi Albaniya ərazisində bərqərar olmuş Liran (Layran), Şirvan və Xursan şahlıqları da var idi (10,

s.7) Liran şahına Bab Liran şah istehkamını qorumaq həvalə edilmişdi (19, s.109). Liran Qəbələ mahalı, Şirvan düzü, Böyük Qafqaz və Şirvan şahlığı arasında yerləşirdi (29, s.191). Şirvan şahlığı əsasən Ləngəbiz dağlarından Çigil çayınadək olan dağlıq və dağətəyi ərazini əhatə edirdi. Şirvan şahı Gilgilçay, Beşbarmaq istehkamlarında müdafiəni təşkil etməli idi və bu müdafiə divarlarının dənizdən Xursana qədər olan hissəsi onun ixtiyarında idi. Xursan şahlığı Quba-Xaçmaz bölgəsinin dağlıq və dağətəyi hissəsini əhatə edirdi. Xursan şahına Xursan keçidinin müdafiəsi tapşırılmışdı. Albaniyanın digər ərazilərindən fərqli olaraq xristianlıq bu şahlıqlarda hakim mövqeyə yiyələnə bilməmişdi. Beləliklə, bu şahlıqların yaradılması tarixi Albaniyada yerli hakimiyyətin və bütpərəst mədəniyyətinin varisliyi baxımından mühüm əhəmiyyət daşıyırdı.

İlk orta əsrlərdə şimaldan türk mənşəli qəbilələrin, VI əsrdən etibarən cənubdan irandilli əhalinin və VII əsrdən başlayaraq ərəblərin Albaniyanın müxtəlif guşələrində məskunlaşması ölkə əhalisinin etnik tərkibində dəyişikliklərə səbəb olmaqla yanaşı Albaniyada müxtəlif mədəniyyətlərin yayılmasına da şərait yaradırdı. Lakin həmin mədəniyyətlərin ünsürlərinin Albaniyanın yerli mədəniyyəti ilə çulğalaşması prosesi VII əsrədək ləng getmişdir. Bunun əsas səbəbləri sırasında dini etiqad fərqlərini və habelə Albaniyada yadelli bütpərəstlərlə albanların ailə qurmasına qoyulan qadağanı göstərmək olar. Albaniyada bu qadağanı pozmuş yüksək zümrəyə məxsus bəzi şəxslərin bütün nəsli edam edilmişdi («Alban tarixi», II: 32). Yalnız Cavanşir hun hökmdarının qızı ilə evləndikdən sonra 681-ci ildə həmin qanun və orada nəzərdə tutulan edam cəzası ləğv edildi («Alban tarixi», II: 26, 39). Şimaldan əhali miqrasiyası yeni insan irqi-monqoloid irqi nümayəndələrinin məskunlaşmasına səbəb oldu. Mingəçevir, Üçtəpə və Cəmikənd qəbirlərində bu irqə mənsub şəxslərin dəfn edilməsi hallarına təsadüf olunmuşdur (22, s. 83; 15, s. 193; 25, s. 44). Bu dövrdə hakim xalq olan albanlardan başqa tarixi Albaniya ərazisində məskunlaşan əhali sırasına qarqarlar, savdeklər (soduklar), utilər, kaspilər, erlər, «köçəri» qəbilələr sırasında qeyd olunan sak mənşəli ballar, alanlar, hunlar, çilblər (silvlər), masqutlar, tavasparlar, bolqarlar, çollar, savirlər, xəzərlər, bələncərlər və başqaları daxil idi. Bütün bu hallar Albaniyada ilk orta əsr mədəniyyətinin formalaşmasına təsir göstərə bilən əsas xarici amillər idi.

IV əsrdə Albaniyada xristianlıq dövlət dini elan edildikdən sonra ölkədə xristian mədəniyyətinin (IV-XVIII əsrlər) formalaşma prosesi başlandı. Lakin alban kilsəsinin mərkəzi iqamətgahı yerləşən Bərdə şəhərində hətta VII əsrdə bütpərəst sənətkarların yaşaması «Alban tarixi» əsərində öz əksini tapmışdır (II:10). Bu isə xristianlığın dövlət dini elan olunmasından 3 əsr sonra da bütpərəstliyin ölkədə hələ də qalmasını göstərir. Bərdə şəhəri salındıqdan sonra

Alban kilsə mərkəzinin Çoldan buraya köçürülməsi xristianlığın həmin bölgədə mövqeyinin zəifləməsinə gətirib çıxardı. Alban kilsə rəhbəri özünü Albaniya, Lpiniya və Çol katolikosu adlandırmasına baxmayaraq Çolda bir yepiskopluq belə təşkil edilməmişdi. Görünür, bu səbəbdən VII əsrdə xristian dininin Dərbənd şəhərindən şimalda təbliği üçün qonşu Çol vilayətindən yox, uzaq Artsaxdan yepiskop göndərilmişdi («Alban tarixi», II: 39). Kilsənin burada yerli təşkilatının olmaması xristianlığın nüfuzunun zəifləməsinə və əksinə bütpərəstliyin güclənməsinə rəvac verirdi.

Albaniyada əhalinin ideoloji cəhətdən 2 qrupa (xristian və bütpərəst) ayrılması antik dövrün vahid erkən alban mədəniyyətinin ilk orta əsrlərdə parçalanmasına səbəb olmuş başlıca amillərdən biri idi. Lakin ilk orta əsrlərdə bu proses bilavasitə etnik bölgüyə və yadlaşmağa səbəb olmadı. Buna görə də, xristian və bütpərəst mədəniyyətləri bir-birindən seçilən hər hansı bir xüsusi etnik əlamətlərə malik deyildilər. Lakin bu amil onların hər ikisinin ilk orta əsr vahid alban mədəniyyətinin lokal variantları kimi qəbul edilməsi üçün kifayət etmir. Nəzərə almaq lazımdır ki, bütpərəst mədəniyyəti xristianlıqdan daha qədim olmaqla yanaşı artıq VIII əsrin sonunda süqut etmişdi. Bunun əksinə olaraq alban xristian mədəniyyətinin arxeoloji baxımdan sonu XVIII əsrə təsadüf edir. Beləliklə, alban xristian və bütpərəst mədəniyyətləri xronologiyası üst-üstə düşmür. Orta əsrlərdə artıq bütpərəst mədəniyyətin mövcud olmaması «alban» adını qoruyub saxlamış əhalinin müvafiq dövr mədəniyyətini şəriksiz olaraq alban xristian mədəniyyəti adlandırmağa sövq edir. Lakin bu mədəniyyətin IV-XVIII əsrlərə aid olması onun ilk orta əsr mərhələsini ümumi alban mədəniyyətinin bir variantı kimi təqdim etməyə imkan vermir. Buna sosial amil də ziddir. Ümumiyyətlə, ilk orta əsrlərdə alban xristian və bütpərəst mədəniyyətlərin formalaşmasında bu amilin çox mühüm əhəmiyyəti olmuşdur. Əgər erkən alban mədəniyyəti əhalinin bütün təbəqələrini birləşdirirdisə, ilk orta əsrlərdə cəmiyyətin yuxarı təbəqəsi xristian mədəniyyətinin önündə durur, bütpərəst mədəniyyəti isə orta və aşağı təbəqələrə arxalanırdı. Belə bir vəziyyət xristianlığın hakim mövqe tutduğu bölgələr üçün xarakterik idi. Buna uyğun olaraq xristian mədəniyyəti alban cəmiyyətinin aparıcı və daha zəngin mədəniyyəti kimi çıxış etməli idi. Məhz bu xüsusiyyətlər xristian mədəniyyətini ilk orta əsrlərdə alban mədəniyyətinin lokal bir variantı səviyyəsinə endirməyə imkan vermir. Albaniyada xristianlığın dövlət dini elan edilməsi ilə xristian mədəniyyəti də dövlət səviyyəsinə qaldırılmışdır (təkcə məbədlərin tikintisində hökmdarların iştirakını xatırlamaq kifayətdir) və həmin xristian dövləti bütpərəstləri, habelə onların mədəniyyətini nəinki qəbul etmir, hətta bunlara qarşı amansız mübarizə aparırdı. Bu isə bütpərəstlərin xristianlardan uzaqlaşaraq bəzi yerlərdə gizli fəaliyyət göstərmələrinə səbəb olmuşdur («Alban tarixi», I:18). Beləliklə, ilk

orta əsrlərdə xristian mədəniyyəti artıq formalaşdığı üçün onu variant kimi təqdim etmək mümkün deyildir. Yuxarıda qeyd edilən bütün dəlillər etnik fərqlərə malik olmayan, lakin ideoloji və sosial amillər, xronologiya baxımından bir-birindən seçilən və qarşılıqlı amansız mübarizəyə sövq edilən alban xristian və ilk orta əsr bütpərəst mədəniyyətlərini müstəqil mədəniyyətlər kimi qəbul etməyə imkan verir. Alban xristian dövlətinə nisbətən kiçik olsalar da Şirvan, Layran (Liran), Xursan kimi alban bütpərəst şahlıqlarının yaranması onların mədəniyyətinin müstəqilliyini şərtləndirən vacib amil idi. Əgər Albaniya xristian dövlətində bütpərəstlər təqibə məruz qalan kütlə idisə, həmin şahlıqlarda bunun əksi müşahidə olunurdu. Xristianlıq və bütpərəstlik əsasən mənəviyyat sahəsinə aid olsalar da, onlarla bağlı dini inamlar qəbirlərdə, dəfn ayinlərində və müəyyən pərəstiş əşyalarında maddiləşmişdir. Bu mədəniyyətlər üçün müəyyən qəbir tipləri xarakterikdir. Məsələn, bütpərəst mədəniyyətinə xas olan küp, saxsı təknə və kurqan qəbirlərinə xristian mədəniyyətində təsadüf edilmir, əksinə kərpicdən inşa edilən sərdabələrə, daş sarkofaqlara yalnız alban xristian mədəniyyəti abidələrində təsadüf olunur. Xristian və bütpərəst mədəniyyətləri arasındakı fərqlər özünü dəfn ayinlərində, məsələn, qəbirə əşyalar qoyulub-qoyulmaması məsələsində qabarıq biruzə verir. Müxtəlif xarakterli pərəstiş əşyaları da bu mədəniyyətlərin bir-birindən seçilməsinə şərait yaradır.

Azərbaycan ərazisində alban xristian abidələrinin arxeoloji tədqiqi 1939-cu ildə Qum kəndi (Qax rayonu) ərazisində uç nefli bazilika tipinə aid xristian məbədinin müəyyən hissələrinin qazıntılar nəticəsində üzə çıxarılması ilə başlanmışdır (39, s. 298). Xristian məbədləri ilk orta əsrlərdə Albaniyada meydana çıxmış yeni bir abidə tipi idi. Ilk orta əsrlərin yeni abidələr kateqoriyasına üzərində xaç, habelə dini və məişət təsvirləri olan xaçdaşlar da daxil idi. Bunların arasında məişət təsvirli xaçdaşlar Cənubi Qafqazda çox nadir olub, Dağlıq Qarabağ ərazisində Sığnaq yaşayış yerindən tapılaraq ilk orta əsrlərin sonuna aid edilmişdir (1). Kiş kəndi (Şəki rayonu) ərazisində yerləşmiş xristian məbədi «Alban tarixi» əsərində «Şərq kilsələrinin anası» adlandırılır və I əsrdə bu yerlərdə xristianlığı təbliğ etmiş müqəddəs Yeliseyin (apostol Faddeyin şagirdi) adı ilə bağlanılır (I:6; II:48). 2000-2001-ci illərdə həmin kilsənin ərazisində Azərbaycan-Norveç beynəlxalq ekspedisiyası məbədin əsasının qoyulma tarixini dəqiqləşdirmək məqsədi ilə arxeoloji qazıntı işləri aparmışdır (24).

İlk orta əsrlərdə alban xristian mədəniyyəti Albaniya hüdudlarından kənarda inşa edilmiş xristian məbədləri ilə də tanınmışdı. «Alban tarixi» əsərində Artsax yepiskoplarından biri olan İsraelin (VII əsr) təşəbbüsü ilə Albaniyadan şimalda-hunların ölkəsində xristian məbədi tikilməsi barədə məlumat verilmişdir (II: 41). Dağıstanda aparılmış arxeoloji qazıntılar nəticəsində Yuxarı Çiryurt abidəsi yaxınlığında aşkar edilmiş xristian kilsələri qalıqları məhz al-

ban yepiskopunun fəaliyyəti ilə bağlanılır (27, s. 167-171; 28; 38, s. 33). Alban xristian mədəniyyəti abidələri təkcə Albaniyanın şimal qonşuluğunda deyil, həmçinin onun həmsərhəd olmadığı uzaq Qüds (Yerusəlim) şəhərində də inşa edilmişdir. «Alban tarixi» əsərində albanların müqəddəs Qüds şəhərində tikdikləri monastırlar xatırlanır (II: 52). Bəzi abidələrin yerləşdiyi ərazi hətta dəqiqliklə göstərilir. Məsələn, Bərdə monastırı Qüdsdə Davud qülləsinin yanında yerləşirdi. «Alban tarixi»ndə göstərilir ki, Bərdə monastırına «İndi Şəmkirdən gəlmiş Məryəm adlı bir qadın sahibəlik edir» (II: 52). Qüdsdəki bəzi alban monastırlarını albanlar əz əllərində saxlaya bilməmişdilər. Məsələn, «Alban tarixi» əsərində Qüdsdəki Artsax monastırının müsəlman ərəblərin ixtiyarında olduğu bildirilir (II: 52). Bəzi monastırlar iki sahibə malik idilər. Məsələn, Amaras şəhərinin (Dağlıq Qarabağ) şərəfinə adlandırılmış Amaras monastırının yarısına Qüdsdəki albanlar, digər yarısına ərəblər sahiblik edirdilər.

Alban xristian mədəniyyəti yalnız dini abidələrlə deyil, həmçinin xristian qəbir abidələri ilə də xarakterizə olunur (14, s. 108-113). Belə qəbir abidələri arasında çiy kərpicdən inşa edilmiş qəbir kameraları antik dövrdə təsadüf olunan bəzi qəbir tiplərinin xristian mədəniyyətinə daxil olduğunu göstərir. Eyni zamanda ilk orta əsrlərdə xristian mədəniyyətində yeni qəbir tipləri – daş sarkofaqlar, daş və ya kərpicdən inşa edilmiş sərdabələr meydana çıxır (14, s. 109). Xristian qəbir abidələri arasında 1968-ci ildə Amaras məbədi ərazisində aşkar edilmiş bir qəbiri xüsusi qeyd etmək olar. Kilsədəki ilk orta əsrlərdən sonrakı dövrə aid yazıdan məlum olur ki, həmin qəbirdə dairəvi taxta qutunun içindəki sümüklər 337-ci ildə xristianlığın təbliğinə görə Çol vilayətində masqut hökmdarı Sanesanın əmri ilə öldürülmüş Alban kilsəsinin rəhbəri Qriqorisə məxsusdur (13, s.7). 15 yaşından etibarən kilsəyə rəhbərlik etmiş Qriqorisin Amaras kilsəsində dəfn edilməsi «Alban tarixi» əsərində də təsdiq edilir (I: 14). Dağlıq Qarabağda yerləşmiş Yelisey və ya Criviştik kompleksindəki kilsələrdən birində aşkar edilmiş XIII əsrə aid yazıdan məlum olur ki, həmin kilsədə alban hökmdarı Vaçaqan dəfn edilmişdir (30, s. 90, 194). Həqiqətən də, kilsədə üzərində heç bir yazı olmayan qəbir qeydə alınmışdır. Bu hökmdarın 487-ci ildə hakimiyyətə gəlmiş III Vaçaqan olduğu güman edilir. Buna əsas verən ciddi məqamlardan biri ondan ibarətdir ki, «Alban tarixi» əsərinə görə, Cerviştik (Criviştik) ibadətgahında müqəddəs Yeliseyin nəşinin qalıqları saxlanılırdı (I: 7). Hər bir xristian üçün burada dəfn olunmaq çox şərəfli idi. Antik dövrün erkən alban mədəniyyətindən fərqli olaraq ilk orta əsrlərdə xristian dini normalarına uyğun olaraq xristian qəbirlərinə müəyyən əşyalar qoyulmaması onların tədqiqinin aktuallığını bir qədər azaldır. Məşhur şəxslərin qəbirləri yalnız antropoloji tədqiqatlar baxımından müəyyən maraq doğura bilər. Belə bir şəraitdə alban mədəniyyətinin inkişaf səviyyəsi yalnız şəhərgahlarda və ilk

növbədə paytaxt Bərdə şəhərində arxeoloji qazıntı işlərinin aparılması nəticəsində müəyyənləşdirilə bilər. Bərdə şəhərində 1984-cü ildən etibarən sistemli, stasionar qazıntıların aparılması nəticəsində şəhərin ilk orta əsr təbəqəsini üzə çıxarmaq mümkün olmuşdur (34, s. 41-42; 33, s. 463; 35, s.51-52). Lakin hələlik Bərdənin ilk orta əsr paytaxt şəhər mənzərəsi bərpa edilməmişdir. Bunun əsas səbəbləri sırasında qazıntıların bir neçə il davam etdikdən sonra dayandırılmasını göstərmək olar. Tədqiqatlar nəticəsində belə bir mülahizə söylənilmişdir ki, Albaniyanın Bərdədən əvvəlki qış paytaxtı Xalxal şəhəri olmuşdur (3), lakin hələlik bu şəhərin yeri dəqiq müəyyənləşdirilməmişdir.

Albaniyanın digər şəhərlərində aparılmış arxeoloji tədqiqatlardan 1971-ci ildən başlayaraq Dərbənddə aparılmış stasionar qazıntı işlərini qeyd etmək olar. Bu qazıntılar nəticəsində şəhərin ilk orta əsr mədəniyyətinə aid zəngin materiallar əldə edilmiş, müdafiə divarlarının xronologiyası dəqiqləşdirilmişdir. Ümumiyyətlə, göstərmək lazımdır ki, istər Dərbənd, istərsə də, ondan cənubda yerləşmiş Gilgilçay və Beşbarmaq müdafiə səddlərinin ilk orta əsrlərdə Alban keçidində dənizlə dağlar arasında inşa edilməsi ilk orta əsr Albaniyasında yeni abidə tipi – «uzun divarlar» şərti adı daşıyan istehkamların meydana çıxması demək idi. Dərbənddə arxeoloji qazıntı işlərinə qədər belə bir konsepsiya qəbul edilmişdi ki, ilk orta əsrlərdə İran Albaniyanın Qafqaz dağları ilə Xəzər dənizi arasındakı ərazisini tədricən ələ keçirmiş və tutulan ərazini müdafiə etmək üçün dənizdən dağlaradək hər dəfə bir uzun divar çəkdirmişdir (39, s. 268). Belə olduqda, uzun divarlardan ən qədimi Beşbarmaq səddi, sonuncusu isə Dərbənd istehkamları olmalı idi. Lakin hələ «Alban tarixi» əsərindən məlumdur ki, Sasani hökmdarı II Yezdigerdin dövründə (439-457-ci illər) Çol vilayəti İran mərzbanının ixtiyarında idi (II: 2). Deməli, artıq bu zaman Dərbənddə hərbi istehkamların inşasına başlanılmalı idi. Doğrudan da, Dərbənd qazıntıları nəticəsində II Yezdigerdin adından zərb edilmiş sikkələrin, habelə bu hökmdarın dövründə çiy kərpicdən inşa edilmiş müdafiə tikilisinin aşkar olunması Dərbənd divarlarının Gilgilçay və Beşbarmaq səddlərindən daha qədim olduğunu sübut etdi (26, s. 257). «Alban tarixi» əsərində Dərbənd divarlarının inşasında alban memarlarının əsas rol oynadıqları bildirilir (II: 11). Ümumiyyətlə, hərb sənətinin yalnız müdafiə tikililərinin inşasında deyil, digər sahələrdə də inkişafı davam edirdi. «Alban tarixi» əsərində Albaniya hökmdarı Urnayr (IV əsr) «böyük müharibələrin gedişində Ermənistanın içində qələbə bayrağını sancaraq şanlı ad qazanmış igid ər» kimi xarakterizə olunur (I: 9). Əgər antik dövrdə alban ordu hissələrinin ölkə hüdudlarından kənarda – Ön Asiyada gedən döyüşlərdə İran ordusu tərkibində iştirakı qeydə alınmışdırsa, ilk orta əsrlərdə alban hərbi kontingentinin İran ordusunun tərkibində nəinki Ön Asiyada, hətta

V əsrdə Orta Asiyada döyüşdüyü barədə yazılı mənbələrin məlumatı vardır (39, s. 198, 202).

Albaniya şəhərləri – Şamaxı, Qəbələ, Beyləqan, Şabran, Xunan, Amarasda aparılmış arxeoloji qazıntılar nəticəsində ilk orta əsr şəhər mədəniyyəti haqqında müəyyən təsəvvür yaranmışdır. Bu şəhərlərdən bəzilərinin, məsələn, Qəbələ və Şamaxı şəhərlərinin adlarına hələ son antik dövr mənbələrində təsadüf edilmişdir. Bəzi şəhərlərin əsası isə ilk orta əsrlərin sonunda qoyulmuş, lakin onların çiçəklənmə dövrü orta əsrlərdə başlanmışdır. Beyləqan, Şabran, Xunan belə yaşayış məntəqələrindəndir. Şəhərlərin bir qismi (Qarqar, Abxaz, Məsqət və digərləri) konkret bir etnik qrupun adını daşımışdır, lakin ümumiyyətlə şəhər əhalisi müxtəlif etno-ideoloji mənsubiyyətli insan kütlələrindən ibarət olmuşdur. Tədqiqatlar nəticəsində aşkar edilmiş bəzi şəhərgahlarda ilk orta əsr şəhərlərini lokallaşdırmağa cəhdlər edilmişdir. Bu gümanların bəziləri öz təsdiqini tapmışdır. Örənqalanın Beyləqan, Torpaqqalanın (Tovuz rayonu) Xunan olması, Xunanın Hnarakertdən fərqli bir qala olması, Albaniyanın məşhur Gis kəndinin Şəki rayonunun indiki Kiş kəndi ilə eyniliyi elm tərəfindən qəbul edilmişdir (20, s.32; 12, s. 20-21; 4, s. 75-76; 45, s. 237). Digər fikirlərin təsdiq və ya inkar edilməsi üçün həmin abidələrdə geniş miqyaslı, sistemli arxeoloji qazıntı işlərinin aparılması zəruridir. Kifayət qədər yaxşı tədqiq olunmuş bəzi şəhərgahların tarixi adları isə hələ də naməlum qalır. Mingəçevirin ilk orta əsr yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar burada alban şəhərlərindən birinin yerləşdiyini göstərmişdir (8, s. 148). Ümumiyyətlə götürdükdə Mingəçevir arxeoloji cəhətdən əsaslı surətdə tədqiq olunmuş ilk alban yaşayış yeridir. Abidədən ilk dəfə olaraq alban yazı nümunələrinin aşkar edilməsi Azərbaycan arxeologiyasının böyük uğuru idi. Daş və keramika üzərində qeydə alınmış bu yazılar (baxın: 7) bir sıra cəhdlərə baxmayaraq hələlik oxunmamışdır. Bunun əsas səbəblərindən biri həmin alban yazılarının erməni və udin dilləri əsasında izahatının axtarılmasındadır. Yazıların azsaylı olması da bu işə öz təsirini göstərir. Albaniyada alban yazı nümunələrindən başqa ilk orta əsrlərə aid pəhləvi yazıları da tapılmışdır. Bunların böyük qismi Dərbənd divarlarında qeydə alınmış və bu yazıların oxunuşunda müəyyən uğurlar qazanılmışdır (37; 36; 23). Dərbənd yazılarından məlum olur ki, burada uzun divarların inşa işlərinə Atropatena amarkarı Bərzniş nəzarət və rəhbərlik etmişdir. Sistematik arxeoloji qazıntı işləri aparılmış və əhəmiyyətli materiallar əldə edilmiş ilk orta əsr yaşayış yerləri sırasında Sandıqtəpə (Quba rayonu), Govurqala (Ağdam rayonu), Qalacıq (Şamaxı rayonu), Torpaqqala (Qax rayonu), Torpaqqala Bilici (Dərbənd rayonu), Palasa-sırt (Dərbənd rayonu) və s. abidələri qeyd etmək mümkündür.

İlk orta əsrlərdə Albaniyada xristian mədəniyyəti ilə yanaşı alban bütpərəst mədəniyyəti də mövcud olmuşdur. Bu mədəniyyət erkən alban mədəniyyətinin ən yaxın varisi idi. Xristian və bütpərəst əhalinin bir sıra yaşayış yerlərində birgə məskunlaşması (Bərdə, Qəbələ, Mingəçevir, Govurqala və s.), hətta bəzi qəbiristanlıqlarda həm xristian, həm də bütpərəst qəbirlərinə təsadüf edilməsi (Qəbələ, Govurqala və s.) həmin mədəniyyətlərin xüsusi bir arealının müəyyənləşdirilməsinə imkan vermir. Lakin ilk orta əsr bütpərəst alban mədəniyyətinin əsasən Albaniyanın şimal-şərqində daha geniş vüsət aldığını qeyd etmək olar. VI əsrdə Xursan keçidinin qarşısında İranın dəstəyi ilə Şirvan şahlığının yaradılması həmin bölgədə alban bütpərəst mədəniyyətinin qorunmasına imkan vermişdi. Çox güman ki, Şirvan şahlığı bütpərəst albanların dövlət qurumu kimi meydana çıxmışdı. Pirsaatçay hövzəsində arxeoloji tədqiqatlar nəticəsində xristian abidələrinə təsadüf olunmamışdır. Xınıslı, Qalacıq, Dağ Kolanı, Güngörməz, Poladlı, Quşçu və s. yaşayış yerləri bütpərəst əhalinin məskənləri idi.

Bütpərəst albanlar ölüləri torpaq (Xınıslı, Şərğah, Yedditəpə, Sandıqtəpə, Xucbala, Dərə-Çiçi və s.), küp (Xınıslı, Şərğah, Qubalı, Cəmcəmli, Ərəbcəbirli, Köbər və s.), daş qutu və sərdabələr (Xınıslı, Quşçu, Qalacıq, Kolanı, Poladlı, Cəmcəmli, Güngörməz, Yedditəpə, Qursan-pel, Şoran-pel, Enıx və s.), saxsı təknə (Mingəçevir, Qəbələ, Güngörməz və s.) qəbirlərdə dəfn edirdilər. Bunlardan daş qutu qəbirlər abidələrin sayından göründüyü kimi ilk orta əsrlərdə əsas qəbir tiplərindən birini təşkil etmişdir. Daş qutu və sərdabə, habelə torpaq qəbirləri alban xristian mədəniyyəti üçün də xarakterik olmuşdur. Bu tip xristian və bütpərəst qəbirlərində quruluş fərqləri özünü qabarıq biruzə vermir. Onları bir-birindən ayıran yalnız bütpərəst və xristian dəfn ayinləridir. Əksinə, küp və saxsı təknə qəbirləri ilk orta əsrlərdə yalnız alban bütpərəst mədəniyyəti üçün xarakterik olub antik dövrün erkən alban mədəniyyəti ənənələrinin davamı kimi çıxış edir.

İlk orta əsr alban bütpərəst mədəniyyətinin sitayiş əhəmiyyətli abidələri sırasında daşdan yonulmuş insan obrazlı bütlər xüsusi əhəmiyyət daşıyır (44). Dağlıq Qarabağda və Qarabağ düzündə bir-birindən kifayət qədər uzaq məsafədə aşkar edilmiş bu daş heykəllər eyni şərti-sxematik üslubda, vahid kanon əsasında yaradılmışdır. Bəzi hallarda təbii insan boyundan uca olan bu heykəllər yıxılmış vəziyyətdə, habelə müəyyən səviyyəyədək torpağa dik basdırılmış vəziyyətdə qeydə alınmışdır. Bu abidələrin tapıldığı yerlər – Şatırlı (Bərdə rayonu), Seysulan (Tərtər rayonu), Canyataq (Ağdərə rayonu), Mollalar, Şəfibəyli, Suma, Güllücə (Ağdam rayonu) kəndləri zonası ilk orta əsrlərdə Albaniyanın tarixi vilayətləri olan Artsax və Uti tərkibinə daxil idi. Heykəllər qolları dirsəkdən qatlanaraq üzünə tərəf qaldırılmış uzun saçlı, bəzi hallarda kürək hissəsində qısa xəncər təsvir edilmiş kişi surətini «ibadət» vəziyyətində əks

etdirir. Qarabağ heykəlləri Avrasiya çöllərində yayılmış və daş «babalar» şərti adı altında cəmlənmiş müxtəlif dövrlərə aid daş heykəltəraşlıq abidələri sırasına daxildir. Qarabağ heykəllərinin müəyyən hallarda açıq səma altında bütxanalarda ucaldılması güman edilir. Şatırlı kəndi yaxınlığında Şortəpə adlı bir yüksəklikdə belə bütxanalardan birinin qalıqları aşkar edilmişdir (43). Tədqiqatlar nəticəsində bərpa edilmiş mənzərəyə görə, burada daş heykəllər və habelə səliqəli yonulmuş təsvirsiz uzunsov daşlar dik vəziyyətdə müəyyən səviyyəyədək torpağa basdırılmış, onların ətrafına çay daşları döşənmişdir. Antik dövrün bütpərəst ənənələrinin davamı kimi çıxış edən gil qadın heykəlcikləri I Qalacıq və Şərgah (Şamaxı rayonu) abidələrindən məlumdur (2, s. 42, 87, XI tablo, 4-7).

Bütpərəst mədəniyyətə qarşı Albaniya dövləti və kilsəsinin mübarizəsi 487-ci ildə III Vaçaqanın hakimiyyətə gəlməsi ilə amansız xarakter aldı. Alban xristian dövlətinin əslində konstitusiyası olan və III Vaçaqanın dövründə tərtib edilən Aluen qanunlarında bütpərəstlərin cərimələnməsi, onlara müxtəlif bədən cəzaları verilməsi, son tədbir kimi edam edilməsi nəzərdə tutulmuşdu. Belə bir dövlət siyasəti bəzi bütpərəst təriqətlərə mənsub əhalini öz ayinlərini gizli surətdə meşələrdə və s. yerlərdə icraya sövq edirdi («Alban tarixi», I: 17, 18, 26). Lakin müxtəlif cəza və təzyiqlərə baxmayaraq ilk orta əsr alban bütpərəst mədəniyyəti VIII əsrin sonuna kimi öz varlığını qoruyub saxladı. İlk orta əsr alban bütpərəst mədəniyyətinin hələlik yalnız Dərbənd-Şamaxı adlandırıla bilən bir variantı müəyyən edilmişdir. Adından da göründüyü kimi bu variantı Dərbənd, Quba-Xaçmaz və Pirsaatçay hövzəsi bölgələrində, əsasən dağətəyi ərazilərdə qeydə alınmış abidələr təşkil etmişdir. III əsrin sonu –VI əsrdə baş vermiş bir sıra siyasi və ictimai xarakterli hadisələr (Orta Asiyadan köç etmiş masqutların yuxarıda qeyd edilən bölgələri ələ keçirməsi, tarixi Çol vilayətində İranın bir neçə uzun divarlar ucaldaraq Albaniyadan ayrı xüsusi mərzbanlıq təşkil etməsi və alban kilsəsinin mərkəzi iqamətgahının buradan köçürülməsi, Şirvan şahlığının yaradılması) həmin ərazilərin Albaniyadan, alban xristian mədəniyyətindən daha da uzaqlaşmasına gətirib çıxarmış, alban bütpərəst mədəniyyətinin Dərbənd-Şamaxı variantının formalaşmasına şərait yaratmışdır. Dərbənd-Şamaxı variantı üçün kannelür naxışlı keramika nümunələri, oturacağının altında zoomorf və astral təsvirlər olan saxsı qablar, oturacağı qalxanvari formaya malik, pifosa bənzər küplər, bəzi metal məmulatları və s. xarakterikdir. Kannelür ornamentli keramika nümunələrinin tapıldığı abidələrin Albaniyanın ilk orta əsr mədəniyyətinin bir variantını təşkil etməsi barədə fikir hələ XX əsrin 60-cı illərində irəli sürülmüş (41, s.156), 70-ci illərdə ümumiyyətlə Albaniyanın ilk orta əsr mədəniyyətinin xüsusiyyətləri araşdırma obyekti olmuşdur (42). Dərbənd-Şamaxı variantının bu və digər xüsusiyyətləri onu Şimali Qafqaz etno-

mədəni məkanında alan – bolqar – hun qəbilələrinin yerli dağlılarla birgə yaratdıqları mədəniyyətlərə yaxınlaşdırır. Bu təsirin masqutların vasitəçiliyi ilə mümkün olduğu güman edilə bilər. III əsrin sonunda Çol vilayətini ələ keçirərək burada Masqut dövlətini qurmuş masqut və onların birliyinə daxil olan hun mənşəli qəbilələrin yaratdığı masqut mədəniyyəti məhz belə bir ötürücü funksiyanı həyata keçirə bilərdi. Ən güclü çağlarında (III əsrin sonu – IV əsrin 30-cu illəri) Masqut dövlətinin hüdudları Kür çayının aşağı axarına çataraq Pirsaatçay hövzəsini də əhatə etmişdir (Baxın: 39, s.194-195). Çol vilayəti ilə indiki Pirsaatçay hövzəsi arasındakı əlaqələr qədim Xursan keçidi vasitəsi ilə qurulmuşdu. Bu Bərdə-Dərbənd ticarət yolunun Şamaxı-Dərbənd hissəsi idi. III əsrin sonundan VIII əsrin sonunadək mövcud olmuş masqut mədəniyyəti üçün torpaq, sapma və katakomba qəbirləri üzərində indiki Cənub-Şərqi Dağıstan ərazisində ucaldılan kurqanlar (Palasa – sırt, Kuxmazkunt, Aşağı Stal qazmalar və s.) xarakterikdir. Bundan başqa kurqan örtüyü olmayan bir sıra torpaq (Sandıqtəpə, Xucbala, Quxuroba) və katakomba qəbirləri (Quxuroba) də masqut mədəniyyəti abidələridir. Masqutlara məxsus Palasa-sırt yaşayış yerində (Dərbənd rayonu) aşkar edirmiş şüvüllü – karkas konstruksiyalı evlərə (baxın: 16, s. 84-88) Albaniyanın digər yerlərində təsadüf edilməmişdir. Masqut mədəniyyəti Dərbəndlə Şabran arasındakı düzənlik bölgədə yayılmışdır. Dağətəyi ərazilərdə bu mədəniyyət ilk orta əsr alban bütpərəst mədəniyyəti ilə təmasda olmuşdur.

Daha bir mədəniyyət – zərdüşt mədəniyyətinin əsasən Albaniyada irandilli əhalinin məskunlaşdığı Çol vilayətinin dağlıq hissəsində, habelə Abşeron yarımadasında yayıldığını güman etmək olar. Yazılı mənbələrin məlumatlarından bəlli olur ki, II Yezdigerdin dövründə (439-457-ci illər) İran Cənubi Qafqazda, o cümlədən, Albaniyada zərdüşt dinini zorla yaymağa çalışırdı. II Yezdigerdin fərmanı ilə Albaniyaya bu məqsədlə 300 maq göndərilmiş və onların mühafizəsi, habelə albanlara təzyiq üçün İran süvari ordu hissələri Albaniyaya yeridilmişdi. Zərdüşt dinini qəbul etməyənləri ölüm cəzası gözlədiyi barədə əhaliyə xəbərdarlıq edildikdən sonra xristian məbədləri içərisindən xristian dininə aid əşyalar çıxarılaraq, buralarda atəşgahlar tikilənədək müvəqqəti atəşkədələr qurulmağa başlanıldı. Tədricən xristian məbədlərindən kənarda xüsusi·atəşkədələrin də inşa edilməsi prosesi gedirdi (Baxın: 39, s. 203-206). Bu tədbirlər nəticəsində hətta Albaniya hökmdarı II Vaçe də xristianlıqdan uzaqlaşaraq zorla zərdüşt dinini qəbul etməyə məcbur olmuşdu («Alban tarixi», I : 10). Onunla birgə qardaşı III Vaçaqan da bu dinə keçməyə vadar olmuşdu («Alban tarixi», I: 16). Lakin V əsrdə baş vermiş 3 güclü üsyandan (39, s.207-219), o cümlədən, zərdüşt dinindən imtina edən II Vaçenin üsyanından sonra («Alban tarixi», I: 10) hökmdar Valarş 484-cü ildə İran imperiyasına daxil olan xristian ölkələri, o cümlədən, Albaniya üçün dini etiqad azadlığı elan etməyə məcbur oldu

(«Alban tarixi», I: 17). Beləliklə, zərdüşt dininin zorla yayılması mərhələsi başa çatdı. Alban hökmdarı III Vaçaqan xristianlığa qayıtdı və Aluendə kilsə məclisi çağıraraq, xristianlığı yenidən Albaniyanın dövlət dini elan etdi («Alban tarixi», I: 17, 26).Zərdüşt dinini albanlara qəbul etdirmək cəhdləri uğursuzluğa düçar oldu. Lakin zərdüşt dini və mədəniyyəti Albaniyanın irandilli əhalisi arasında, şübhəsiz, öz inkişafını tapmalı idi. Hələlik arxeoloji tədqiqatlar nəticəsində Albaniya ərazisində ilk orta əsrlərə aid atəşgahlar aşkar edilməmişdir. Güman olunur ki, Quba rayonunun dağlıq hissəsindəki bəzi kəndlərdə yerləşən bürclər (Buduq, Söhüb və s.) zərdüşt dini qaydalarına uyğun olaraq meyidlərin qoyulduğu daxmalar kimi nəzərdə tutulmuşdur (40, s. 36-37). Lakin bu abidələrdə arxeoloji qazıntı işləri aparılmadığı üçün hələlik bu barədə qəti bir nəticəyə gəlmək mümkün deyildir.

İlk orta əsrlərdə Albaniya ərazisində müxtəlif mədəniyyətlərlə yanaşı gəlmə əhalinin kiçik kompakt qruplarının yaşadıqları ərazilərdə onlara məxsus mədəniyyət ünsürləri qeydə alınmışdır. Bunu əsasən qəbir abidələri və dəfn ayinlərində sezmək mümkündür. Məsələn, xəzərlərin Qəbələyə köçməsi və Qəbələnin hətta Xəzər kimi paralel adının meydana gəlməsi barədə yazılı mənbələrin məlumatları Qəbələ şəhərgahında katakomba qəbirlərinin (VI-VIII əsrlər) aşkar edilməsi ilə öz təsdiqini tapır (5, s. 242). Katakomba qəbirlərinin Albaniyadan şimalda xəzərlər arasında da yayıldığını əsas götürərək, Qəbələ katakombalarını xəzər – savir etnik qrupları ilə əlaqələndirmək olar. Mingəçevirin ilk orta əsr katakomba qəbirləri bu abidənin antik dövr katakombalarından fərqlənir (9, s. 18). Bunu nəzərə alaraq güman etmək olar ki, buradakı ilk orta əsr katakombaları gəlmə əhalinin yeni dalğasına mənsub olmuşdur. Yazılı mənbələrdə göstərildiyinə görə, 337-ci ildə Albaniya ərazisindən keçməklə Ermənistana yürüş edən Masqut hökmdarı Sanesan 1 il müddətində bütün Ermənistanı öz əlində saxladı (Baxın: 39, s. 191-196). Bundan sonra Qafqazdan şimaldakı çöllərdə yaşayan tayfalar təqribən 338-342-ci illərdə, yəni 4 il müddətində Albaniya ərazisində məskunlaşaraq buradan Ermənistana yürüşlər etmişlər («Alban tarixi», I: 13). Mingəçevirin ilk orta əsr katakomba qəbirlərini məhz həmin gəlmə əhali dalğası ilə əlaqələndirmək olar. Mil düzündəki Üçtəpə kurqanında qeydə alınmış döyüşçü qəbri və onun avadanlığı (VII əsr) Albaniyadan şimalda Xəzər xaqanlığı ərazisində yayılmış qəbirlərdən o qədər də fərqlənmir, hətta bu döyüşçü üçün qəbrə şimaldan gətirilmiş və Albaniya üçün xarakterik olmayan bir saxsı qab da qoyulmuşdur. Döyüşçünün silahları, bəzək əşyaları və s. şimal mənşəli olub Albaniyanın yerli abidələrində təsadüf olunmamışdır (Baxın: 21). Pirsaatçay sahilində, Güngörməz dağı yaxınlığında aşkar edilmiş kurqanlardan biri qazılarkən onun altında daş qutu tipli 2 qəbir üzə çıxarılmışdır (11, s. 39-40). Kurqan qəbirlərinin istər xristian, istərsə də alban bütpərəst mədəniyyəti

üçün xarakterik olmadığını və ilk orta əsr daş qutulu kurqanların Albaniya hüdudlarından şimalda qeydə alındığını əsas götürərək (baxın: 17, s. 19,20, 22) bu tip abidələrin də gəlmə əhali ilə bağlı olduğunu güman etmək olar. İlk orta əsr alban abidələrindən şimal «köçərilərinin» mədəniyyəti üçün xarakterik olan məmulatlar – kannelür naxışlı, oturacağının altında təsvirlər olan keramika, metal (qəmələr, xəncərlər, güzgülər, polixrom üslübda hazırlanmış qızıl bəzək əşyaları, yığma kəmərlər), sümük (ox ucluqları) əşyalar aşkar edilmişdir. Bu materiallar albanlarla «köçərilər» arasında mədəni- ticarət əlaqələrinin mövcudluğunu sübut edir. Beləliklə, Albaniya ərazisində hələlik yalnız dörd məntəqədə (Çol vilayəti istisna olunmaqla) şimaldan köçmüş əhalinin mədəniyyətinin izlərini aşkar etmək mümkün olmuşdur. Lakin bu izlərin çox məhdud arealı və bir-birindən kifayət qədər uzaqda qeydə alınması həmin abidələri Albaniyaya şimaldan yayılmış mədəniyyət göstəricisi kimi qəbul etməyə imkan vermir. Bu qəbir abidələri Albaniyada mədəniyyət ocaqları kimi təqdim edilə bilər.

Albaniyanın ilk orta əsr arxeoloji abidələrinin tədqiqi nəticəsində əldə edilmiş zəngin materiallar ölkənin güclü təsərrüfata malik olduğundan xəbər verir. «Alban tarixi» əsərindən məlum olur ki, VII əsrin sonunda Albaniya 3 imperiyaya (Xəzər xaqanlığı, Ərəb xilafəti, Bizans) xərac ödəmiş, lakin süqut etməmişdir. Govurarx abidəsi (Mil düzü) ilk orta əsrlərdə Albaniyada əkinçiliyin geniş vüsət aldığını təsdiq edir. Maldarlıqda yüksək inkişafa nail olunmuşdu. Albaniyanın otlaqlarından yalnız yerli əhali deyil, hətta Ermənistan maldarları da istifadə edirdilər («Alban tarixi», II: 26). VII əsrdə hökmdar Cavanşirin dövründə xəzərlər təkcə bir yürüş etməklə Albaniyanın Mil düzündəki qışlaqlarından 120.000 baş mal-qara və 7.000 baş at aparmışdılar («Alban tarixi», II: 26). Xəzər xaqanlığının alban balıqçıları üzərinə qoyduğu vergi («Alban tarixi», II: 16) Albaniyada balıqçılığın yaxşı gəlir verən sahə olduğunu sübut edir.

Əkinçilik, maldarlıq, balıqçılıqla yanaşı sənətkarlıqda da uğurlar qazanılmışdı. Quşçu abidəsindən (Şamaxı rayonu) ayaqla hərəkətə gətirilən dulus çarxının üst diskinin (IV-V əsrlər) tapılması (31, s. 34-35) Albaniyada ilk orta əsrlərdə bu tip dulus çarxından keramika istehsalında istifadə edildiyini təsdiqlədi. Mingəçevir, Torpaqqala (Qax rayonu), Xucbala, Salmantəpə (Quba rayonu), Şamiltəpə (Qusar rayonu), Qubalı yaşayış yerlərində aşkar edilmiş dulus kürələri qalıqları yerli keramika istehsalının mövcudluğunu sübut edir (32, s. 21-22). Xucbala və Salmantəpə abidələri arasındakı məsafənin cəmi 3 km olduğunu nəzərə alsaq, ölkədə dulusçuluq məmulatına nə qədər böyük ehtiyac olduğunu və buna müvafiq olaraq dulusçu emalatxanalarının çox sıx yerləşdiyini görmüş olarıq. Torpaqqala (Qax rayonu), Amaras (Dağlıq Qarabağ) abidələrində üzə çıxarılmış şüşəəritmə kürələrinin qalıqları (32, s. 40) Albaniyada ilk orta əsrlərdə yerli şüşə istehsalının təşkil edildiyini göstərir. Albaniyada metal emalı

və metal əşyaların hazırlanması onun sərhədlərindən kənarda da məlum idi. VII əsrin əvvəllərində Albaniyanı ələ keçirmiş Xəzər xaqanlığının ilk tədbirlərindən biri qızıl, gümüş, dəmir, mis çıxarılması və emalında səriştəli olan alban sənətkarlarının siyahısının tutularaq işə cəlb edilməsindən ibarət idi («Alban tarixi», II: 16). «Alban tarixi» əsərində belə sənətkarlardan biri alban dəmirçisi Baxdaner (VII əsr) xatırlanır (II:50). Albaniya abidələrindən müxtəlif metallurq alətlərinin, istehsal tullantılarının, metal külçələrinin, şlak (pasa) parçalarının, qəliblərin tapılması yerli metallurq emalatxanalarının mövcudluğunu təsdiq edir (32, s. 6-9). Şamaxı, Qobustan rayonları ərazisindəki abidələrdən tapılan kiçik maşalar, kiçik zərgər tərəzisi və s. ölkədə yerli zərgərlərin fəaliyyətindən xəbər verir (32, s. 18). «Alban tarixi» əsərində onlardan biri «böyük qızılişləmə ustası Varaz» (VII əsr) qeyd olunur (III:12). Mingəçevirdə, Pirsaatçay vadisində toxucu dəzgahının qalıqlarının, müxtəlif toxucu alətlərin, xam material qalıqlarının və s. aşkar edilməsi Albaniyada yerli toxuculuğun inkişafını göstərən dəlillərdir (32, s. 35-37). Canyataqda (Dağlıq Qarabağ) natamam yonulmuş daş heykəllərin, bir sıra digər abidələrdə çıxdaş edilmiş və natamam hazırlanmış qliptika nümunələrinin qeydə alınması başqa sahələrlə yanaşı daşişləmə sənətinin də Albaniyada öz yeri olduğunu təsdiq etmişdir. İlk orta əsr abidələrindən ağac və sümükişləmə, habelə bir sıra digər sənət və peşə sahələrini əks etdirən zəngin materiallar əldə olunmuşdur (32, s. 46-54). «Alban tarixi» əsərində Artsaxda inşaat işlərində fəaliyyət göstərmiş dülgər Fokrik və onun köməkçisi olan oğlu İoann (VII əsr) xatırlanır (II: 50). Ölkədə daxili və xarici ticarət də kifayət qədər yaxşı təşkil olunmuşdu. Albaniya şimalda «köçəri» dövlətləri ilə əlaqə saxlayırdısa, cənub əlaqələri Sasani İranı ilə nizamlanmışdı. Əsasən qliptika, torevtika, numizmatika nümunələri İranla ticarət münasibətlərini əks etdirir. Albaniya ərazisindən bir sıra mühüm ticarət yolları keçirdi (18, s. 13-17). Bunların sırasında Bərdə-Tiflis, Bərdə – Dərbənd, Bərdə – Dvin, Bərdə- Ərdəbil yolları beynəlxalq əhəmiyyətli idi. Bu ticarət yollarının dəyərini yaxşı bilən Xəzər xaqanının VII əsrin əvvəllərində Albaniya qarşısında qoyduğu əsas tələblərdən biri ölkə ticarətinin xəzərlərin ixtiyarına verilməsindən ibarət idi («Alban tarixi», II: 14). Xəzərlər Albaniyada gömrük işini də öz əllərinə almışdılar («Alban tarixi», II: 16). Abidələrdən aşkar edilmiş çoxsaylı gətirilmə əşyalar, habelə tərəzi tapıntıları, sikkələr bu ticarətin vüsətini göstərir. İlk orta əsrlərdə Albaniyada əsasən Sasani hökmdarlarının adlarından kəsilmiş gümüş və mis sikkələr də dövriyyədə olmuşdur. Bununla yanaşı ölkə ərazisində Bizans və Ərəb xilafətində zərb edilmiş sikkələr də tapılmışdır (18, s.23-24). Bu dövrdə Albaniyada yerli sikkə zərbinin dayandırılmasına baxmayaraq, ölkədə bəzi sikkə zərbxanaları fəaliyyətinə davam edərək Sasani sikkələri zərb etmişlər. Bu sikkələr üzərindəki yazılardan məlum olur ki, Azərbay-

canın Naxçıvan və Baqavan şəhərlərində Sasani sikkələri buraxılmışdır (6, s. 174).

VIII-IX əsrlər Albaniyada müxtəlif mədəniyyətlərin taleyi baxımından həlledici oldu. 726-cı ildə Albaniya hakimi II Cavanşir öldürüldükdən sonra («Alban tarixi», III: 16) Albaniya dövlətinin müvəqqəti süqutu başa çatır. Lakin bu, alban xristian mədəniyyətinin sonu demək deyildi. Bu mədəniyyət bütün orta əsrlər dövründə öz varlığını qoruyub saxladı. Alban bütpərəst mədəniyyəti və Masqut mədəniyyəti VIII əsrin sonunda tənəzzülə uğrayaraq sıradan çıxdı. Zərdüşt mədəniyyəti isə Babək hərəkatı nəticəsində IX əsrin ortalarına qədər öz mövqeyini qoruyub saxladı. Beləliklə, Azərbaycanda IX əsrin ortalarında İslam hakim dinə çevrildi, islam dövlətləri meydana çıxdı. Azərbaycanda İslam mədəniyyətinin formalaşması prosesi başa çatdı.

## ƏDƏBİYYAT


1. Göyüşov R.B. Sığnaq yaşayış yerindən aşkar edilmiş məişət təsvirli xaç daş // Azərbaycan EA Xəbərləri. TFH seriyası, N 4, 1968, s.38-43.
2. Xasayev Neyman. Dağətəyi Şirvanın ilk orta əsr arxeoloji abidələri. Bakı, 1998.
3. Xəlilov M.C. Albaniyanın ilk orta əsr arxeologiyasında paytaxt şəhər problemi // 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 2005, s.66-68.
4. Xəlilov M.C. Albaniyanın ilk orta əsr şəhər və qalalarının lokallaşdırılması problemi // Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri. Bakı, 2006, s. 72-87.
5. Qazıyev S.M. Qəbələ ərazisinin qədim dəfn mərasimləri haqqında // AMM, VI cild. Bakı, 1965, s. 235-251.
6. Rəcəbli Əli. Azərbaycandan keçən tranzit ticarət yolları və Azərbaycanda tapılmış pul-sikkə dəfinələrinin topoqrafik xüsusiyyətləri // Azərbaycanşünaslar Müstəqil Birliyinin 10 illiyinə həsr olunmuş Azərbaycanşünasların beynəlxalq elmi-nəzəri yubiley konfransı məruzələr məcmuəsi. Bakı, 2004, s. 173-174.
7. Vahidov R.M. Mingəçevir epiqrafik abidələrinin arxeoloji xarakteristikası // Azərbaycan SSR EA Xəbərləri. İE seriyası, N 4, 1958, s.107-120.
8. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, 1961.
9. Асланов Г.М. Материальная культура Мингечаура I-VII вв. Автореферат диссертации... кандидата исторических наук. Баку, 1963.
10. Баладзори. Книга завоевания стран // Материалы по истории Азербайджана, выпуск III. Издание О-ва Обследования и изучения Азербайджана. Баку, 1927.
11. Ваидов Р.М., Ахмедов Ш.С. Итоги археологических работ Пирсагатчайского отряда 1985 года // АЭИА (1985г.). Тезисы докладов. Баку, Элм, 1986, с.39-40.

12. Ваидов Р.М., Гулиев Н.М. Городище Таузское Торпаггала // Итоги полевых археологических и этнографических исследований за 1972 год в Азербайджанской ССР. Тезисы. Баку, Элм, 1973, с. 20-21.
13. Геюшев Р.Б. О могиле Григориса, католикоса Кавказской Албании // Материалы к Всесоюзной сессии, посвященной итогам археологических и этнографических исследований 1969 г. в СССР. Тезисы докладов. Баку, 1970, с.7.
14. Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку, Элм, 1984.
15. Гинзбург В.В. Антропологическая характеристика черепа человека из впускного погребения в кургане №3 в урочище Уч-тепе // МИА СССР, №125. Труды Азербайджанской археологической экспедиции, т.II. 1956-1960 гг. Москва-Ленинград, Наука, 1965, с. 192-193.
16. Гмыря Л.Б. Бытовые и хозяйственные постройки Паласа-сыртского поселения // Древняя и средневековая архитектура Дагестана. Махачкала, 1989, с.77-97.
17. Гмыря Л.Б. Прикаспийский Дагестан в эпоху Великого переселения народов. Могильники. Махачкала, 1993.
18. Гулиев Н.М. Торговые связи Кавказской Албании в раннем средневековье. Автореферат диссертации… кандидата исторических наук. Баку, 1972.
19. Ибн Хордадбех. Книга путей и стран. Баку, Элм, 1986.
20. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи // МИА СССР, №125. Труды Азербайджанской археологической экспедиции, т. II. 1956-1960 гг. Москва-Ленинград, Наука, 1965, с.10-36.
21. Иессен А.А. Раскопки большого кургана в урочише Уч-тепе // МИА СССР, №125. Труды Азербайджанской археологической экспедиции, т. II. 1956-1960 гг. Москва-Ленинград, Наука, 1965, с.153-192.
22. Касимова Р. К этногенезу азербайджанского народа по данным антропологии // К проблеме этногенеза азербайджанского народа. Баку, Элм, 1984, с.69-101.
23. Касумова С.Ю. Новые среднеперсидские надписи из Дербента // Этнокультурные процессы в древнем Дагестане (Сборник статей). Махачкала, 1987, с. 102-105.
24. Керимов Вилаят, Стурфиел Бьернар. Киш. История, архитектура, археология. Баку, Чашыоглу, 2003.
25. Круглов А.П. Северо-восточный Кавказ во II-I тысячелетиях до н.э. // МИА СССР, № 68. Древние племена и народности Кавказа. Москва-Ленинград, 1958, с.7-146.
26. Кудрявцев А.А. О датировке первых сасанидских укреплений в Дербенте // СА, №3, 1978, с.243-258.
27. Магомедов М.Г. Образование Хазарского каганата. Москва, Наука, 1983.
28. Магомедов М.Г. Новые раннесредневековые культовые памятники в Приморском Дагестане // Обряды и культы древнего и средневекового населения Дагестана. Махачкала, 1986, с. 109-122.

29. Минорский В.Ф. История Ширвана и Дербенда X-XI веков. Москва, 1963.
30. Мнацаканян А.Ш. О литературе Кавказской Албании. Ереван, 1969.
31. Нуриев А.Б. Новые находки в селениях Кушчи, Коланы, Poладлы и Геогляр Шемахинского района // АЭИА (1976 г.). Баку, Элм, 1979, с.33-37.
32. Нуриев А.Б. Из истории ремесленного производства Кавказской Албании. Баку, Элм, 1986.
33. Нуриев А.Б. Раскопки в средневековой Барде // АО 1986 года. Москва, Наука, 1988, с.463.
34. Нуриев А.Б., Мамедов А.М. Раскопки в Барде в 1985 году // АЭИА (1985 г.). Тезисы докладов. Баку, Элм, 1986, с.41-42.
35. Нуриев А.Б., Мамедов А.М., Гасилов Ш.В. Раскопки в Барде в 1986 г. // Тезисы докладов конференции «Великий Октябрь и развитие археологической науки в Азербайджане». Баку, Элм, 1988, с. 51-52.
36. Нюберг Г.С. Материалы по истолкованию пехлевийских надписей Дербенда // Известия Об-ва Обследования и изучения Азербайджана, №8, выпуск V. Баку, 1929, с.26-34.
37. Пахомов Е.А. Пехлевийские надписи Дербенда // Известия Об-ва Обследования и изучения Азербайджана, №8, выпуск V. Баку, 1929, с.3-25.
38. Плетнева С.А. Хазары. Москва, Наука, 1986.
39. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э.- VII в.н.э. Москва-Ленинград, 1959.
40. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, 1963.
41. Халилов Дж.А. Археологические памятники I тысячелетия у с.Худжбала в Азербайджанской ССР // СА, №3, 1965, с. 154-162.
42. Халилов Дж.А. Особенности раннесредневековой культуры Азербайджана (Кавказской Албании) // Тезисы докладов Всесоюзной научной конференции «Раннесредневековая культура Средней Азии и Казахстана». Душанбе, 1977.
43. Халилов М.Дж. Древнее святилище, связанное с каменными изваяниями у с. Шатырлы // Доклады АН Азербайджанской ССР, т. XLII, №7, 1986, с. 78-82.
44. Халилов Мубариз. Антропоморфные каменные изваяния Карабаха // Азербайджанская археология, 2004, №1-4, с. 100-104.
45. Ямпольский З.И. Древняя Албания III-I вв. до н. э. Баку, 1961.

# РАННЕСРЕДНЕВЕКОВАЯ МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА АЛБАНИИ

***Мубариз Халилов***

***Резюме***

В статье излагается состояние археологической культуры Албании в эпоху раннего средневековья. Приводятся данные о христианской, языческой и в некоторой степени зороастрийской культурах. Христианская и языческая культуры выделяются как самостоятельные культуры, не имеющие обособленный ареал и созданные одним и тем же этносом – албанами. Наряду с этим выявляются маскутская культура, культурные очаги других мигрантов, впервые определяется Дербент-Шемахинский локальный вариант албанской языческой культуры эпохи раннего средневековья.

# EARLY MIDDLE AGES' MATERIAL CULTURE OF ALBANIA

***Mubariz Khalilov***

***Summary***

The state of archaeological culture of Albania in Early Middle Ages is researched in this article. Facts of Christian, lingual and in some degree zoroastrism culture are presented in this article and the Christian and lingual cultures are picked out as independent ones, which don't have their isolated areal and are created by the same ethnos - Albanians. Maskut culture, cultural center of other migrants are revealed, Derbend-Shamakhi local variant of Albanian lingual culture of the epoch of Early Middle Ages is for the first time determined here.

# VIII-IX ƏSRLƏRDƏ BEYNƏLXALQ PUL SİSTEMİ

*Yeganə Gőzəlova*
*(Bakı Dővlət Universiteti)*

Ticarət əlaqələri nə qədər geniş olursa olsun, művafiq təsisatların mővcudluğunu, rəsmi hakimiyyətin műnasibətini tələb edir. VIII-IX əsrlərdə genişlənən beynəlxalq ticarət əlaqələri effektli fəaliyyət gőstərə biləcək pul sisteminin, gőmrűk işinin, poçt xidmətinin, ticarət faktoriyalarının, bazar və yarmarkaların yaranmasını və inkişafını şərtləndirirdi, űstəlik, bu təsisatların bir qismi ilkin idi.

Xilafətin yaranması ərəfəsində mővcud olan beynəlxalq pul sistemi bűtűn VII əsr boyu, demək olar ki, dəyişməz qalmışdı: Bizansın qızıl, Sasanilərin gűműş pulu onun iki əsas tərəfi idi. Ərəb imperiyasının yaranması bu sistemə dərhal kardinal dəyişiklik gətirə bilməzdi: nə qədər ki, Xilafətin iqtisadi əlaqələri geniş vűsət almamışdı, pul təsərrűfatında yunan nomismasının və Sasani drahmasının işlənməsi problem yaratmırdı. Bizans – ərəb və Sasani – ərəb tipli keçid sikkələri zərb etməklə Xilafət VII əsrin sonunadək daxili tələbatı tam ődəyirdi. Bu tip sikkələrin çəkisi və kursu haqqında ərəb mənbələri təzadlı məlumatlar verir (bu barədə bax: 3, s. 144-147). Məlumdur ki, nomismanın nəzəri çəkisi 1/72 funt, yəni 4,54 q, real çəkisi isə 4,48-4,5 q olmuşdur (3, s. 144); lakin VII əsrin ikinci onilliyində artıq 3,79- 4,17 q çəkili nomismalar da zərb olunur. Amma keçid dinarının çəkisi haqqında məlumatlar daha təzadlıdır, hərçənd ki, ən çox rast gəlinən rəqəm onun 273/7 kirat (1 kirat=0, 176 q), yəni təx. 4,8 q olduğunu gőstərir (15, s. 465-467; 13,II, s. 939; 11, s. 267-268); bu da xeyli műbahisəli rəqəmdir. Numizmatlara məlum olan sonuncu Bizans – ərəb tipli dinar 76/7-ci hicri – 695/7-ci miladi ilində zərb olunmuş, çəkisi 4,41-4,55 q olan sikkələrdir (bax: 3, s. 147-148, qeyd 5; 4,III, s. 277-278, şəkil 7a).

Keçid dirhəmləri haqqında da məlumatlar xeyli dolaşıqdır, amma űmumi bir məxrəcə gəlməyə imkan verir. Əl-Məqrizinin VII əsrin műəllifi Əbu Űbeydə əsaslanaraq verdiyi məlumata gőrə, keçid dirhəminin çəkisi 8 daniq (1 daniq=0,59 q), yəni 4,72 q olmuşdur (12, s.37-38). Lakin numizmatik materiallarda 4,04 q çəkili Sasani – ərəb dirhəmləri űstűnlűk təşkil edir (bax: 3, s.146). Bu məlumatları tutuşdurub űmumi bir qənaətə gəlmək olar ki, dirhəm (drahma) ilə dinarın (nomismanın) kursu 1:10, qızılın qiymətinin gűműşə nisbəti isə 1:9,3 olmuşdur; bu da VII əsrin ikinci yarısında gűműşűn xeyli baha olduğunu gőstərir (3, s.147).

VII əsrin sonuna doğru xəlifə Müaviyənin qoyub getdiyi sərhədlərdə bərpa olunan Xilafət artıq Bizansın, sözün əsl mənasında, layiqli rəqibinə çevrilmişdi: indi əvvəlki pul zərbi bu imperiyanı qane edə bilməzdi. Amma pul zərbində islahat keçirilməsi, əksər numizmatların və tarixçilərin düşündüyü kimi (3, s.147; 4,III, s.277), təkcə ideoloji məsələyə bağlı deyildi. Beynəlxalq pul sistemi deyilən bir institut özü də bunu tələb edirdi. Sasani dövləti dağılandan sonra, Xilafət onun gümüş pul sistemini davam etdirsə də, üç qitənin ümumi bir bazara daxil olması, böyük bir iqtisadi sistemin meydana çıxması, ticarət əlaqələrinin görünməmiş vüsət alması əvvəlki pul təsərrüfatının da yeni səviyyəyə uyğunlaşmasını tələb edirdi.

Hicri 77-ci ildə (696/7-ci miladi) Xilafətdə pul islahatı keçirildi. Bu islahat Əbd əl-Məlikin xəlifəliyi dövrünə (685-705-ci illər) təsadüf edir. Ərəb tarixçiləri yeni tipli sikkənin zərbini 74 və ya 76-cı hicri ilinə aid edirlər (15, s. 467; 13,II, s. 939; 14, s. 322), lakin həmin illərin sikkələri hələlik aşkarlanmamışdır. Üstəlik, yuxarıda da qeyd etdiyimiz kimi, 76/7-ci hicri ilində keçid sikkələri zərb olunmuşdur ki, bu fakt da əl-Bəlazurinin islahat ili kimi göstərdiyi 74-cü (digərlərinin 76-cı) ili xeyli şübhəli edir. Odur ki, tarixçilərin böyük əksəriyyəti numizmatik materiallara əsaslanıb islahatı 77-ci hicri ilinə aid edirlər. Həmin il Xilafətin paytaxtı Dəməşqdə epiqrafik dinarların zərbi başlayır. Sikkələrin üzərində «محمد رسول الله ارسله بالهدى و دين الحق ليظهره على الدين كله» (*Məhəmməd – Allahın rəsuludur, haqq dininin bütün dinlərdən üstün olduğunu göstərmək üçün onu göndərdi*) (bax: 1, Tövbə surəsi (9), ayə 33) sözləri yazılırdı. Keçid dinarlarından fərqli olaraq, bu sikkələrin standart çəkisi var idi – 4,25-4,27 q (3, s.149-150; 4,III, s.277). Real sikkənin nəzəri çəkidən fərqi isə çox cüzi idi (0,01 q). Remedium, yəni mövcud sikkə çəkisinin müxtəlifliyi də kiçik idi – 1 həbbə (0,05-0,06 q) (3, s.150).

Dinarın çəkicə tamçəkili nomismadan (4,45-4,48 q) yüngül olmasına gəlincə, görünür, bu, təsadüfi deyildi. Artıq qeyd olunduğu kimi, əvvəlcə Sasanilərlə, daha sonra Xilafətlə müharibələrdə qüvvələri artıq tükənmiş Bizansda tamçəkili nomismanın zərbi kəskin şəkildə ixtisar olunmuşdu. Əbd əl-Məlikin müasiri olmuş II Yustinianın imperatorluğu dövründə (685-695-ci illər) belə sikkələr (yəni tamçəkili) ümumi zərbin cəmi 25%-ni təşkil edirdi (3, s.150). Xilafətdə dövriyyədə olan köhnə sikkələr isə çəkisinin bir hissəsini itirmişdi. O.Q.Bolşakov haqlı olaraq bu faktlardan çıxış edərək göstərir ki, yeni dinarın çəkisi dövriyyədə olan qızıl sikkənin orta çəkisinə uyğunlaşdırılmışdı və 23 kirat (4,265 q) təşkil edirdi (bax: 3, s.150). Yeni dinarlar yüksək əyarlı idi və 96% təşkil edirdi (3, s.150, qeyd 9; həmçinin bax: 8, s.135-138).

Təxminən eyni vaxtda epiqrafik dirhəmlərin də zərbi başlayır və onun üzərindəki yazı «Qurani-Kərim»in «Tövbə» surəsinin 33-cü ayəsini bütünlüklə

(dinardan fərqli olaraq) ehtiva edirdi: *«Məhəmməd – Allahın rəsuludur, müşriklərə xoş gəlməsə də, haqq dininin bütün dinlərdən üstün olduğunu göstərmək üçün onu göndərdi»*. Dirhəmin dinardan daha bir zahiri fərqi – üzərində zərb yerinin göstərilməsi idi (4, III, s. 279; 2, s.12).

Yeni dirhəm çəkicə Sasani – ərəb dirhəmindən yüngül idi, onun dinara nisbətini (rasio) isə müəyyən etmək çox çətindir. Ərəb müəlliflərinin dirhəmin çəkisi haqqında məlumatları da təzadlıdır: onun orta hesabla 10, 12 və 20 kiratlıq olması ilə bağlı xəbərləri numizmatik materiallarla müqayisə edəndə daha böyük dolaşıqlıq yaranır. Numizmatlar dirhəmin rəsmi çəkisinin orta hesabla 2,985 q olduğunu qeyd edirlər (2, s.12).

Bu məsələdə daha bir çətinlik – sinonimi misqal olan dinar-sikkə və dirəm-sikkə ilə yanaşı, eyniadlı çəki vahidlərinin olması ilə bağlıdır. Çəki dirhəm (*dirhəm qayl*) 3,125 q, çəki misqal – 4,48 q təşkil edirdi. Maraqlıdır ki, hər iki sikkə eyniadlı çəki vahidlərindən 1/24 dəfə az çəkili idi (3,125 q və 2,985 q; 4,68 q və 4,27 q) (3, s.151; 4, III, s. 279). Bu da təsadüfi ola bilməzdi. O.Q.Bolşakov bu fərqin zərb xərclərinə sərf olunduğunu göstərir (4, III, s. 279). Onun hesablamalarına görə, 1 yeni dinar 13,4-14 dirhəm idi (bax:3, s. 152). Q.İ.Smirnova əl-Kufinin məlumatlarına əsaslanıb 714-715-ci illərdə Misirdə 1 dinarın 35 dirhəm, 717-ci ildə Səmərqənddə 1 misqal qızılın 20 dirhəm olduğunu və rasionun 1:13-14 təşkil etdiyini yazır (6, s.50; həmçinin bax: 10, s.245). Lakin birinci halda sikkənin deyil, gümüş əşyaların, ikinci halda isə Soqdiya dirhəminin aşağı əyarını nəzərə alsaq, dinarın dirhəmə nisbəti 1:10 alınar. İstənilən halda, islahat dövrü və ondan sonrakı yarım əsr üçün sikkə dinar-dirhəm kursunun təxminən 1:9,3-10 olduğunu demək olar (müqayisə et: 5, s.43).

Əbd əl-Məlikin pul islahatı sikkənin təkcə sırf zərbi məsələləri ilə kifayətlənməmişdi. İslahat həm də zərb işinin yenidən qurulması, zərbxanaların təşkili və dövlət idarəsinin yaradılması məsələlərini də nəzərdə tuturdu. Əbd əl-Məlikin xəlifəliyinə qədər mövcud olan zərbxanalar indi dövlətin tam nəzarəti altına keçirdi, *«dar əl-zərb»* (zərb evi) isə sikkə zərbini dövlət inhisarına alırdı (2, s.13). *«Divan-i dar əl-zərb»* hökumət orqanı olub zərbxanalardan gələn gəlirlərə nəzarət edirdi. Dinardan fərqli olaraq, dirhəm Xilafətin təkcə paytaxtında deyil, bütün böyük şəhərlərində də zərb olunurdu.

Danışılan dövrdə Avropanın qərbində – frank dövlətində fəaliyyətdə olan pul sisteminə gəlincə, o, beynəlxalq ticarətə bağlı sistem deyildi. Yarandığı ilk əsrdə qızılın frank dövlətinə güclü axını baş vermişdi ki, bu da hərbi qənimətlə – Roma qızılı ilə əlaqəli idi. Tədricən franklar öz gümüş, daha sonra qızıl sikkələrini zərb etməyə başlayır; bu zərb Roma ənənələrinə əsaslanırdı. Gümüş slivka (1/144 funt) qızıl soliddən (1/72 funt) 2 dəfə yüngül idi. Son-

ralar frank denyesi (denariy) 1/40 solid olur (9, § 1; 7, s.168-170). Frank dővlətində vergilərinin bir hissəsinin, həmçinin, gőmrűk rűsumlarının bəzisinin natura ilə deyil, pulla ődənilməsi nəzərdə tutulmuşdu. Lakin natural təsərrűfatın hələ őz mővqelərini pul təsərrűfatına təslim etmək istəmədiyi frank imperiyası beynəlxalq pul sisteminə qatılmamışdı.*

Xəlifə Əbd əl-Məlikin pul islahatı isə tək bir ərəb dővlətinin və ya onun tərkibinə daxil olan őlkələrin deyil, bűtűn beynəlxalq aləmin iqtisadiyyatı űçűn bir neçə əsrlik (monqol hakimiyyətinədək) nəticələri olan hadisə idi. Doğrudur, beynəlxalq pul sistemi Xilafətdən çox-çox əvvəl – Makedoniyalı İsgəndərin imperiyasının qurulmasından bəri fəaliyyət gőstərirdi. Bu sistem Roma imperiyası dővrűndə xeyli təkmilləşir. Lakin başlanğıcdan ənənə elə qoyulmuşdu ki, beynəlxalq ticarətin qərb arealında qızıl, şərqində – gűműş pul valyuta rolu oynayırdı. Xəlifənin məlum islahatından sonra isə bu ənənə bir műddət saxlansa da, tədricən qızıl valyuta şərqə də nűfuz etməyə başlayır. Qızılın belə maneəsiz hərəkəti beynəlxalq ticarətdəki művafiqlikdən və műtəşəkkillikdən xəbər verirdi. Qızıl pul sisteminin gűműş pul sistemi ilə birgə bir dővlətin – yəni Xilafətin inhisarına keçməsi beynəlxalq iqtisadi əlaqələr űçűn istisnasız műtərəqqi hadisə idi.

## ƏDƏBİYYAT:

1. Qurani-Kərim (istənilən nəşri).
2. Алиев 3. Денежное обращение Азербайджана (VII-IX вв.) – Автореферат к.и.н. Кемерово, 1990.
3. Большаков О.Г. Средневековый город Ближнего Востока. VIII – сер. XIII вв. Москва, 1984.
4. Большаков О.Г. История Халифата. Т.1-3. Москва, 1998-2000.
5. Раджабли А.М. Нумизматика Азербайджана. Баку, 1997.
6. Смирнова О.И. Каталог монет с городища Пенджикент. Москва, 1963.
7. Средневековье в его памятниках. Москва, 1913.
8. Ehrenkreutz A.S. Studies in the monetary history of the Near East in the Middle Ages. I. – JESHO, 2, 1959.
9. Germanische Rechtsdenkmaler: Leges, Capitilaria, Formulae, hrsg. von H.G.Gengler. Erlangen, 1875.
10. Kitabul Futuh by Abu Muhammad Ahmad ibn Atham al-Kufi. Vol.1-8. Hyderabad, 1974-1976.
11. Maverdii Constitutionis politicae. Ex recensiare M.Engeri. Bonnae, 1853.
12. Takieddin Al-Makrizi Tractatus de legalibus arabum ponderibus et mensuris... ed Q.G.Tychsen. Roctoii, 1800.

* Bőyűk Karlın zərb işi ilə bağlı Bizansla razılaşması isə regional səciyyəli hadisə idi.

13. Tarix ər-rusul va-l-muluk, təlif...ət-Təbəri. c.1-12. Əl-Qahirə.
14. Kitab əxbər ət-tıval, təlif... əd-Dinəvəri. Əl-Qahirə, 1379.
15. Kitab futuh əl-buldən, təlif... lil-Bəlazuri, c.1-3. Əl-Qahirə, 1956-1958.

# INTERNATIONAL MONETARY SYSTEM OF VIII-IX CENTURIES

***Yegana Gezalova***

***Summary***

In the beginning of VII century there were two monetary systems: Byzantines and Sasanides. The first was based on gold, the second - on silver. Both currencies were included into the international monetary system of that period. The two monetary systems continued coexistence still for some period of time after the foundation of Chaliphate. In 696/7 year caliph Abd al-Malik introduced the uniform monetary system answering both internal and international requirements of trade in all the territory of the empire. New money - dinar and dirham became very durable and possessed stability. The Muslim currency remained dominating means of the reference and payment in the international trade of VIII-IX centuries.

# МЕЖДУНАРОДНАЯ ДЕНЕЖНАЯ СИСТЕМА VIII-IX ВВ.

***Егяна Гёзалова***

***Резюме***

В начале VII века существовали две денежные системы: византийская и Сасанидская. Первая основывалась на золоте, вторая – на серебре. Обе валюты входили в международную денежную систему того периода.

После образования Халифата еще некоторое время продолжалось существование одновременно двух монетных систем. В 696-697 году халиф Абд ал-Малик ввел на всей территории империи единую денежную систему, отвечавшую требованиям как внутренней, так и международной торговли. Новые деньги – динары и дирхемы стали очень долговечными и обладали высокой стабильностью. Мусульманская валюта оставалась доминирующим средством обращения и платежа в международной торговле VIII-IX вв.

# AZƏRBAYCANININ ƏNƏNƏVİ QADIN GEYİMLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ ARXEOLOJİ MATERİALLARIN ROLU

***Sabirə Dünyamalıyeva***
*(Azərbaycan Dövlət Rəssamlıq Akademiyası)*

Qədim dövrdə Azərbaycan ərazisində geyimin meydana gəlməsini, geyim materiallarının istehsalı və əldə olunması məsələsini aydınlaşdırmaq üçün Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi mədəniyyət nümunələri, qədim dövrlərə aid edilən təsviri materiallar mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, son yüzillikdə aparılmış arxeoloji qazıntılar nəticəsində külli miqdarda maddi mədəniyyət nümunələri, zəngin bəzəkli geyim dəstləri, o cümlədən misilsiz bəzək əşyaları əldə olunmuşdur. Bütün bu faktik materiallar küll halında elmi tədqiqata cəlb olunaraq, dekorativ-tətbiqi sənət baxımından təhlil olunmağa, onların bədii-texnoloji xüsusiyyətləri araşdırmağa cəhd göstərilmişdir.

Bildiyimiz kimi geyimdə dəb əsasən geyimin baxılan dövr üçün ideal hesab olunan siluet formasına uyğunluğu ilə müəyyən olunur. Mahiyyət etibarı ilə İNSANın eyni məqsədlərinə xidmət edən geyim və yaşayış sahəsi forma etibarı ilə eyni cür inkişaf edir. Bürüncək tipli geyimdə olan insan fiquru ilə alaçıq tipli yaşayış sahəsini müqayisə edək. Fiqurların hər ikisi eyni formaya malik olub, konusvari şəkildədir. E.ə. V-III yüzilliyə aid edilən Mingəçevir qazıntılarından tapılmış üzüklər üzərindəki təsvirlərdə də bu formada geyimə rast gəlinir (8, səh.28).

Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azərbaycanda aparılan qazıntılar və arxeoloji tədqiqatlar Qafqaz və qonşu regionlarda ən qədim insanın-Azıxantropun (Azıx adamının) yaşadığı dövrün təxminən 400000 il əvvələ aid olduğunu sübut edir. Azərbaycan müxtəlif iqlim şəraiti, zəngin yerüstü sərvətləri, bir sözlə, yaşayış üçün təbii şəkildə insana bəxş edilmiş hər cür nemətləri olan bir məkandır. Yəqin məhz buna görə də Azıx mağarasında tapılan ocaq dünyada tapılmış ən qədim ocaq sayılır və onun yaşı 700 000 il əvvələ aid edilir. Təbii ki, insan yaşadığı mühitdə özünü müəyyən təsirlərdən qorumalı idi və buna görə də geyimə ehtiyac hiss edirdi. Zaman keçdikcə əmək alətləri təkmilləşir və elə bu ehtiyac üzündən də onlar geyim əldə etmək üçün ovladıqları heyvanların dərisindən istifadə etməyə başlayırlar. Azığın VI-V təbəqələrindən tapılan əmək alətləri bu dövr Azıx sakinlərinin dəridən geyim hazırlamaq üçün istifadə etdiklərini göstərir. Elə buna görə də dünya geyim tarixini araşdıran mütəxəssislər, haqlı olaraq, geyim mədəniyyətinin başlanğıcını eramızdan 40-25 min il əvvələ aid edirlər (9, səh. 3). Bütün Azər-

baycan ərazisi boyunca qədim insanlar gőn-dərinin istifadəyə yararlı hala salınması, başqa sőzlə, onu műmkűn olan qədər kəsiksiz, yağ-piy qatından təmizlənmiş hala salınması űçűn daş və sűműk alətlərdən istifadə etmişlər.

Əvvəlki dővrlərdən fərqli olaraq eneolit qəbilə icması metalla tanış idi və bu da yeni əmək alətlərinin yaranması, daha təkmil və keyfiyyətli geyim materialları istehsal olunması űçűn əsas səbəblərdən başlıcası idi. Artıq geyim materialı hazırlamaq űçűn toxuma dəzgahından (5, səh.27), geyimləri hazırlamaq űçűn metal iynələrdən (7, səh.35), hazırlanmış geyimlərə xűsusi estetik gőrkəm vermək űçűn başlıqlı iynələrdən (7, səh. 36–37), həmçinin műxtəlif quruluşlu və bəzəkli dűymələrdən (7, səh. 40, 41) istifadə olunurdu. Paltarların belinə kəmər bağlanırdı. Kəmər də funksional əhəmiyyət daşımaqla bərabər, həm də gőzəl estetik gőrűnűş yaradırdı (7, səh.31). Kəmərlərə gőzəllik vermək məqsədilə onların űzərini naxışlarla bəzəyir, bağlamaq űçűn yaraşıqlı toqqa başlıqlarından istifadə edirdilər.



ILL 1



ILL 2



ILL 3

TABLO I - 1

Dővrűműzə qədər gəlib çatmış tarixi məxəzlərdə, o cűmlədən qədim dővr təsviri sənət əsərlərində əsasən dőyűş və ov səhnələri əks edildiyindən qadın təsvirlərinə çox nadir hallarda rast gəlinir. Qədim dővrűn ilk qadın təsvirlərinə Qobustan qayaűstű rəsmlərini, Ana xaqanlığı dővrűnə aid qadın heykəlciklərini və s. aid etmək olar.

Yuxarıda qeyd etdik ki, geyim materialı hőrmə texnikasında ilmələr bir–birinin űzərinə spiralvari formada sıralanaraq hűndűrlűk əmələ gətirirdi. Geyim

əmələ gətirmək űçűn hőrmə zolaq bədənə spiralvari formada sarınırdı. Analoji olaraq divar hőrərkən də yulğun şűvűlləri və ya daş, kərpic bir–birinin űzərinə spiralvari formada sıralanaraq hűndűrlűk əmələ gətirirdi. Maraqlıdır ki, işin tək texniki icrası deyil, eyni zamanda estetik gőrűnűşű də műhűm əhəmiyyət kəsb edirdi. Elə bu səbəbdən də bűtűn dővrlərdə dəbdə olan yenilik memarlıq, geyim, bəzək əşyaları, dizayn və digər sahələrdə őzűnű gőstərmişdir. Műtəxəssislərin də qeyd etdiyi kimi, arxeoloji qazıntılardan tapılmış spiral formalı bəzək əşyaları-űzűk, muncuqlar, boyunbağı, qolbağlar da bu dővr űçűn xarakterikdir (11, tablo 1. XVI, şəkil 11, tablo 1. XXV, şəkil 1) və bu dəbin bəzək əşyalarına da təsirini gőstərən nűmunələrdəndir.


ILL 1 ILL 2 ILL 3 ILL 4
TABLO I - 2

Geyim materialı istehsalının səviyyəsi yűksəldikcə daha enli hőrmə və toxunma materiallar istehsal olunur və onlardan geyimlər hazırlanırdı. Artıq sarınma tip geyimdə istifadə edilən zolaqlar daha enli olur və təbii ki, az sayda sarıq alınırdı. Bu cűr geyimdə olan qadın təsvirlərinə aid nűmunələrdən biri kimi e.ə. I minilliyə aid edilən gil qadın fiqurunun əynindəki geyimi gőstərmək olar. Həmin fiqur hazırda San Fransiskoda Asiya incəsənəti fondunda saxlanılır (12, şəkil 22). Fiqurun omba hissəsi xeyli enli gőrűnűr. Əynində təxminən diz, oma bűkűmű və bel yerində 4 ədəd eninə zolaq cızılıb. İki ayaq arası, qarın nahiyəsinin űstű ilə beldən bir az yuxarıya qədər 4 ədəd uzununa cızıq çəkilib. Boynunda bűtűn uzunluq boyu spiralvari halqalar taxılıb, birinci halqadan iri űrək fiquru asılıb. Başında silindrşəkilli papaq var. Fiqur həm orta, həm də yanlardan aşağıya doğru nazildiyindən onun əynindəki geyimin şalvar və ya çaxçur olduğunu qəbul etmək olar.

Mingəçevirdə aparılan arxeoloji qazıntılardan tapılan gil çəkmələr də (3, səh. 96) çox güman ki, çaxçurun fraqmentini ifadə edir. Belə ki, çəkmə ayağın formasını bütünlüklə aldığından, çox güman ki, dəridən tikilmiş ayaq geyimini ifadə edir. Onun altı və topuğa birləşən hissəsindəki tikişləri də qırıq xətlərlə təsvir edilib. Topuq hissə geniş olmaqla qırçınlanaraq aşağı hissəyə birləşdirilib. Qeyd etdiyimiz dəri bu formada dik dayana bilməzdi. Ona görə də bunu çaxçurun fraqmenti kimi qəbul etmək daha düzgündür.

Mingəçevir qazıntıları zamanı gənc qıza məxsus küp qəbirdən (e.ə. II-I yüzillik-b.e. I-II yüzilliyi) tapılmış şalvar parçası bu dövrdə qadınların da şalvar geyindiyini göstərir (10, №3-15139. Həmçinin bax: 4, səh.76). Y.N. Paxomov qeyd edir ki, gənc qızın ayaq biləyində halqa var idi və bu halqaların arasında parça tikəsi qalmışdı. Bu onu göstərir ki, şalvar balaqda halqalarla sıxılırmış. Lakin əməli cəhətdən şalvarın balağı halqalarla sıxılsa, hərəkət zamanı formanı saxlamaq mümkün olmaz. Çaxçurun topuq hissəsindəki büzməsinin üstündən isə halqa salmaq olar, bununla da estetik effekt əldə etməklə yanaşı çaxçurun ayaq və balaq hissələrini bir-birinə birləşdirmiş tikişin üstü örtülər. Bildiyimiz kimi, geyimlərin tikiş kənarları boyunca bəzəkli köbə tikilməsinin bir səbəbi də tikiş xəttinin üstünü örtməkdən ibarət olmuşdur. Beləliklə, yuxarıda qeyd edilmiş gənc qızın əynindəkinin şalvar deyil, çaxçur olduğunu güman etmək olar. Elə bu da onun uzaq səfərə (o biri dünyaya) yola salındığını bildirən bir əlamətdir.



ILL 1



ILL 2

TABLO I - 3

Fiqurun ümumi görünüşünü həmin dövrlərə aid Mingəçevir qazıntılarından əldə olunmuş gil ev fiqurları ilə müqayisə edək (Tablo I-1, ill 2). Burada da ümumi forma oxşarlığını, yanlardan sıxılmış kürəyəbənzər formanı görürük.

Sıxılmış və normal kürəyəbənzər formaya, həmçinin sıxılmış dairəyəbənzər formalara bu dövr bəzək əşyalarında da tez–tez rast gəlinir.

E.ə. IX-VII yüzilliklərdə qadınlar köynək tipli başdan geyinilən geyimlərlə yanaşı qoldan geyinilən yaxası açıq geyim də geyinirdilər. Bu geyimin yaxasını bağlamaq üçün müxtəlif düymələrdən istifadə olunurdu. Bu düymələr həm funksional mənada istifadə edilərək geyimin yaxasını bağlamağa, həm də estetik mənada istifadə edilərək geyimə gözəllik verməyə xidmət edirdi (3, səh.68).

Geyimdə dəfn olunmuş gənc qızın əynindəki paltarın formasına əsasən (7, səh.53-54) yeni geyim tipinə və yeni siluet formasına rast gəlirik. Sinədə nisbətən dar, ətəyə doğru isə genələn trapes formalı geyimə çoxsaylı düymələr tikilməklə estetik görünüş əldə etməyə, geyimə və baş geyiminə kiçik elementlər, detallar vasitəsilə (burada bol–bol istifadə edilmiş düymələr) gözəllik verməyə, bəzək vurmağa çalışmışlar. Burada biz yeni üst geyim tipinə rast gəlirik. Buna baxmayaraq ümumi siluet forması sinədə dar, ətəkdə isə gen olan trapes formasındadır.



ILL 1

TABLO I - 4

Ağsu rayonunun Qaraçıbulaq kəndindən tapılmış antik dövrə-e.ə. IV yüzilə aid edilən gil qadın fiquru uzun, enli köynəkdə təsvir edilir (2, səh.68) (Tablo I-2, ill 2, 4). Geyim sinədə nisbətən dar, ətəyə doğru isə genələn trapes formasındadır. Boynuna çox sayda muncuqlar asılmaqla daha estetik forma əldə edilmişdir

S.M.Qazıyev e.ə. I minilliyə aid edilən Mingəçevir qazıntılarından tapılmış skeletdən əldə edilmiş parça qalığına əsasən müəyyən edir ki, meyitə alt paltarı geyindirildikdən sonra zinətlər taxılmış və üstdən üst paltarı geyindirilmişdir (4, səh.76). Lakin bu alt geyiminin forması barədə fikir söyləmək mümkün deyil.

İndi isə arxeoloji qazıntılar nəticəsində əldə olunmuş materiallar və təsviri sənət nümunələri əsasında digər geyim elementlərinin və bəzəklərinin necə yarandığını və inkişaf etdiyini aydınlaşdırmağa çalışaq.

*Baş geyimləri.* Qobustandakı qayaüstü qadın rəsmlərinin çoxunda baş, qollar və ayaq pəncələri təsvir edilməmişdir. Fikrimizcə, bu onunla əlaqədardır ki, bu cür təsvirlər həmin qadınların əynindəki geyimi göstərmək məqsədi daşıyıb və geyimlə örtülməyən hissələr, bu səbəbdən göstərilməyib.

Araşdırmalarımızdan aydın olur ki, qədim dövr qadınları bir neçə növ baş geyimindən istifadə edirdilər. Onlardan biri silindrik formalı baş geyimi kimi təsvir olunur. Bu cür formaya Mingəçevirdən tapılmış gil fiqurun başında (Tablo I-3, ill 1) və xeyli sayda Qobustan qayaüstü təsvirlərində rast gəlinir.

Digər forma ortası enli, kənarları isə ensiz olan nazik bürünc lentdən ibarətdir. Bu lentvari bəzək 10 hissəyə bölünmüşdür. Lentin üst tərəfi, kənarları və ortası həndəsi ornamentlərlə bəzədilib. Lentin uzunluğu 38 sm, eni ortada 3,2 sm, uclarda 1,8 sm, qalınlığı isə 0,5 mm-dir. Buna bənzər lentlər Mingəçevirin küp qəbirlərindən, Dolanlar kəndindən və Y.İ.Hummel tərəfindən Quşçular kəndində aparılan arxeoloji qazıntılar zamanı 11 və 31 saylı daş qutu qəbirlərindən və D.M.Şərifov tərəfindən Çovdarda aparılan qazıntılar zamanı tapılmışdır. Qədim dövr bəzəklərini araşdıran Ş.H.Sadıqzadə «dingə» adlandırdığı bu cür lentlərin Azərbaycan ərazisində qadın və kişi baş geyim elementi kimi geniş yayıldığını qeyd edir. O, həmçinin arxeoloji qazıntılardan əldə olunmuş xeyli sayda baş bəzəklərinə əsaslanaraq qeyd edir ki, saçlar bəzən açıq saxlanır, başa dingə geyinilirdi, bəzən də çox sayda hörüklərə bölünərək uclarına saç boruları taxılırmış. Qədim zamanlarda müxtəlif saç bəzəklərindən istifadə olunurmuş. Beləliklə, aydın olur ki, qədim dövr qadınları təkcə geyimlərində müxtəlif cür düymə, yaxa sancağı, kəmər və qurşaqlarının gözəlliyinə deyil, həm də saç düzümünün, baş bəzəklərinin baxımlı, yaraşıqlı və qəşəng olmasına çalışmışlar (Tablo I-4, ill 1).

Qadın baş geyiminin üçüncü forması Mingəçevir qazıntılarından tapılmış meyitlərin baş tərəfindən tapılan qalıqlara əsasən müəyyən olunur. Silindrik formalı baş geyiminin materialı barədə təsəvvürümüz olmasa da, çutqu formalı baş geyiminin üzərinə tuncdan düzəldilmiş bəzəklər asıldığı bəllidir. Mingəçevir küp qəbirlərindən tapılmış skeletin kəlləsində tuncdan düzəldılmış bəzək şeyləri vardır. Bunları Azərbaycan qadınlarının baş bəzəyi ilə müqayisə edərək, çutqu-tülu qabağı adlandırmaq olar (çutqu əsasən, parçadan tikilir və onun üzərinə metaldan piləklər düzülürdü). Küp qəbirdən tapılmış 12 tunc təbəqə-pilələrin hazırlanma texnikasına görə, onların toxunma parçaya və ya dəriyə bəndlənmiş olduğunu zənn etmək olar.

Çutqu qabağı üçün olan 12 piləkdən başqa, həmin qəbirdən tuncdan hazırlanmış bir neçə ədəd dördkünc təbəqə də tapılmışdır ki, onlar da zəncirdən asılı halda olmuşlar (3, səh.68). Hazırda olan çutqu qabaqlarında da alın hissəsinə sallanan bu cür asmalar vardır (1, tablo 1.24, 66).

V.Fomenko araşdırılan qəbirlərdən biri böyük, digəri kiçik olmaqla iki ədəd bağa çanağı tapıldığını da qeyd edir. O, bu tapıntının ilk dəfə olmadığını göstərərək, bunun nə məqsədlə edildiyinin indiyədək mütəxəssislərə qaranlıq qaldığını bildirir (3, səh.68). Fikrimizcə, bu çanaqdan həm qadınlar, həm də kişilər başlıq kimi istifadə edirmişlər. Başında bağa çanağı olan təsvirə Mərlikdən tapılmış gümüş qədəh üzərində çəkilmiş rəsmdəki təsvirin başında da rast gəlmişik (6, səh.100). Bu qəbirdən də çanaq kəllənin yanından tapılıb (11, tablo 1.I). Burada belə bir xalq sözü yada düşür: «Axırda, çanaq mənim başımda çatladı». Fikrimizcə, qədim dövr insanları bağa çanağından mühafizə məqsədli baş geyimi kimi istifadə ediblər.

*Ayaq geyimləri.* Mingəçevir küp qəbirlərindən tapılmış ayaqqabı formalı gil qablara əsasən demək olar ki, qədim dövr qadınları səliqəli tikilmiş müxtəlif formalı ayaqqabılar geyinirmişlər. Qədim dövr təsvirlərində əsir düşmüş qadınlar ayaqyalın, digərləri uzun geyimdə təsvir edildiklərindən onların ayaq geyimlərinin dəqiq forma və materialı barədə məlumat vermək mümkün deyil.

Beləliklə, geyimin yaranışından başlamış b.e. III yüzilinə qədər uzun bir dövrü əhatə edən qədim dövr qadın geyimlərinin çox az nümunəsini əldə etmək mümkün olsa da, əmək alətlərinin təkmilliyi, inkişaf yolu, geyim materialları istehsalının ümumi səviyyəsi, nəzəri və təsviri vasitələrin təhlilinə əsasən bu dövr qadın geyimləri haqqında müəyyən təsəvvür əldə edə bilirik.

## ƏDƏBİYYAT:

1. Azərbaycan milli geyimləri. Fotoalbom, "İskusstvo" nəş., Moskva, 1972.
2. Azərbaycan Sovet Ensiklopediyası, III cild, Bakı, 1979.
3. Azərbaycanın Maddi Mədəniyyəti, III cild, "Elm" nəş, 1953.
4. Azərbaycanın Maddi Mədəniyyəti, I cild, "Elm" nəş., Bakı, 1949.
5. Azərbaycanın Tarixi Abidələri, ş. 29. Az.SSR EA, Azərbaycan Tarixi Muzeyi, red. M.Ə.Qazıyev. Az.SSR EA, Bakı, 1958.
6. Qaşqay Solmaz. Manna dövləti. "Azərbaycan" nəş., Bakı, 1993.
7. Dünyamalıyeva S.S. Azərbaycan geyim mədəniyyəti tarixi. CD–li monoqrafiya, Bakı «Elm», 2002, «Təfəkkür» nəşriyyatı.
8. Казиев С.М. Археологические раскопки в Мингечауре. Сб. "Материальная культура. Азербайджана", I том, Баку, 1949.
9. Каминская Н. М. «История костюма». Москва, Легпромиздат, 1986.
10. Пахомов Е. А. "Мингечаурские кувшинные погребения", газета "Бакинский рабочий", 14.02.1937 г., №3-15139.
11. Sadıqzadə Ş. H. Qədim Azərbaycan bəzəkləri. "İşıq" nəş., Bakı, 1971.
12. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində. Bakı, "İşıq", 1980.

# РОЛЬ АРХЕОЛОГИЧЕСКИХ МАТЕРИАЛОВ В ИЗУЧЕНИИ ТРАДИЦИОННОЙ ЖЕНСКОЙ ОДЕЖДЫ АЗЕРБАЙДЖАНА

***Сабира Дунйамалиева***

***Резюме***

В результате археологических раскопок последнего столетия на территории Азербайджана было обнаружено большое количество материально-культурных образцов, богатые орнаментальные костюмы, включая уникальные украшения.

В статье сделана попытка путем соблюдения последовательности исследовать материально-культурные образцы, полученные во время археологических раскопок на территории Азербайджана, с целью разъяснения производства и приобретения женской одежды на территории Азербайджана в древний период. Весь фактический материал был подвержен научному исследованию, проанализирован с позиции демокративно-прикладного искусства, их художественно-декоративные черты были прослежены и эти изменения были сравнены с изменениями в других сферах.

# THE ROLE OF ARCHAEOLOGICAL MATERIALS IN THE STUDY OF TRADITIONAL WOMEN'S CLOTHING OF AZERBAIJAN

***Sabira Dunyamaliyeva***

***Summary***

An impressive amount of material cultural samples, clothing sets with decorations including unprecedented jewellery were discovered during the archaeological excavations of the last century.

The article attempts to study material cultural samples (by means of tracing their sequence) obtained from the archaeological excavations held in the territory of Azerbaijan. All the factual materials are subjected to the scientific research in whole, analyzed from the view of decorative-applied art, their decorative-artistic features are traced and these changes are compared to that of other fields.

# ДЕНЕЖНОЕ ОБРАЩЕНИЕ И МОНЕТНОЕ ДЕЛО В АЗЕРБАЙДЖАНЕ В XII-XIII ВВ.
## (по нумизматическим материалам)

*Теймур Кулиев*
*(Институт Археологии и Этнографии НАН Азербайджана)*

Конец IX – начало X в. в истории Арабского халифата знаменуется усилением сепаратизма местных владетелей и наместников на его окраинах. Среди горцев южного побережья Каспийского моря выделяется знатный род Бувехидов, который использовал слабость халифата, захватил западную половину иранских земель, а в 945 г. ими был взят Багдад, сделавшийся их резинденцией.Таким образом, власть халифов была узурпирована бувехидами (7, 59). В связи с усилением династии Бувехидов, которая захватила всю Персию, а также столицу халифата Багдад, халифы фактически потеряли политическую власть. Начиная с правления халифа ат-Тайи (974-991) выпуск халифских монет прекратился (15, 6). В связи с политической гибелью халифата рухнула и единая денежная система. В каждом из отделившихся от халифата государств устанавливается собственная денежная система, основанная также на серебряной монете.

Наряду с образованием самостоятельных государств на территории Арабского халифата этот период характеризуется все более углубляющейся нехваткой серебряных монет и заменой их медными и золотыми монетами в денежном обращении, именуемые в исторической литературе «серебряным кризисом». Серебряный кризис, начавшийся в Средней Азии, с первой половины XI в. постепенно распространился на денежное обращение других стран Востока, в том числе и Азербайджана, где он продолжался в течение первой половины XI- первой половины XIII в. Исследователи «серебряного кризиса» выдвигали различные причины этого феномена. Так, Буряков Ю.Ф. исследуя историю горного дела и металлургии одного из крупнейших горно-рудных районов средневекового Востока – Илака, причину кризиса денежного обращения видит не только в истощении рудников, но и в росте потребностей в серебре в связи с развитием города и внутренней торговли, децентрализации серебряных запасов. Изучение рудников Илака показывает сокращение их деятельности, особенно со второй половины XI и в XII вв., что, несомненно явилось еще одной причиной в цепи других, способствовавших усилению серебряного кризиса. Выдвигавшийся в качестве основной причины иссякание богатых серебром рудных жил является одним из многих

факторов, и при том не самых основных. В Илаке встречаются законсервированные выработки на продолжение которых имелись богатые рудники. Значительно более важным является политическая и социально-экономическая обстановка. Феодальная раздробленность с характерной для неё неустойчивостью земельных владений, мало способствовала интенсификации горнорудных работ (5, 127). Опираясь на письменные источники Давидович Е.А. установила соотношение серебра и золота, показав значительное превышение цены на серебро в XII в. Анализ курсов дирхемов XI-XII вв. в сочетании с немногочисленными сведениями о цене серебра в слитках, действительно свидетельствует о подорожании серебра (6, 158). Причину исчезновения высокопробной серебряной монеты ученый видит в увеличении спроса на средства обращения вследствие расцвета городской жизни в Средней Азии XI – начала XIII вв., росте объема ремесленной продукции (стекольное и керамическое производство, изготовление художественного металла). Количество необходимых в торговле средств обращения определяется суммой товарных цен и быстротой оборота. Именно бурное развитие городов и товарного производства в XI-XII вв. потребовало обеспечение рынка большим количеством средств обращения. Наряду с интенсивным развитием городов, Давидович Е.А. другую причину серебряного кризиса видит в усилении феодальной раздробленности, в господстве системы феодальных пожалований, что исключало возможность мобилизации и концентрации уже накопленных серебряных запасов для государственного чекана, а феодальные усобицы и прочие политические осложнения не создавали благоприятных условий для регулярного свободного чекана (6, 146). Недостаток серебра в Грузии наметился уже при Давиде Строителе (1089-1125гг.). Подтверждением этого является снижение веса серебряных дирхемов, чеканенных от его имени, до 0,87-0,82 г. Серебряный кризис в Грузии, по данным Пахомова Е.А., достиг своего наивысшего развития в период правления Димитрия I (1125-1154 гг.) и продолжался до конца первой половины XIII в. В начале XII в. по примеру соседей, Грузия прекратила чеканку серебра и перешла к меди (12, 74).

В Азербайджане «серебряный кризис» был впервые исследован Пахомовым Е.А. в статье «Монетное обращение Азербайджана в XII- и начале XIII века» (11). По мнению Пахомова Е.А., приход к власти местных феодалов, менее связанных с халифатом, а иногда даже и враждебных к последнему, несомненно ускорил процесс феодального дробления Переднего Востока, что вызвало затруднение для свободной караванной торговли, с другой – привело к присвоению феодалами права

чекана монеты. Серебряные халифские дирхемы, почти однородные по качеству металла и весу на всем пространстве халифата, становятся постепенно разновесными в зависимости от того, в какой области они выпущены. Это все более и более стесняло торговые обороты, а области, в которых собственное серебро не добывалось, начинали испытывать недостаток его, так как сокращался приток серебра посредством транзитной торговли. Хазарское государство, через которое шла значительная часть арабской торговли с севера, не смогла справиться от нападения в 968 г. Святослава, в результате чего территории приволжских, северокавказских и придонских степей оказались во власти кочевников и постоянные межплеменные, и межродовые войны и набеги, очень сильно повлияли на торговлю на путях, шедших из Азербайджана на север вдоль Каспия (11, 82-83). Раджабли А. подразделяет серебряный кризис на этапы: понижение пробы дирхема; чекан и обращение низкопробных посеребряных дирхемов; чекан и обращение медных фельсов и медных дирхемов; активизация золота (14, 64). Конечно, выпадение серебряных монет из денежного обращения происходило не сразу. Денежное обращение, основанное на дирхемах, постепенно уступало место золотой и медной денежной системе, что происходило параллельно с интенсивным ростом городов и товарного производства.

Нехватка серебра отразилась и на составе монетных кладов Азербайджана, зарытых до последней четверти X в. Несмотря на интенсивную работу местных монетных дворов, монеты азербайджанских государств IX-X вв. обнаруживаются в них очень редко, что прослеживается по выпускам монетных кладов Пахомова Е.А.

В связи с кризисом отлив монеты на север резко обрывается. В первые годы XI в. там уже не встречаются клады дирхемов, битых после 1015 г. Чекан южных стран весь остается на месте. Многочисленные клады XI-XII вв. иногда измеряются пудами. Ослабление политического могущества халифов, проявившееся с начала X в. в стремлении к независимости их наместников, не оказало заметного влияния на торговлю с севером. Подданнные правителей областей, провозгласивших себя независимыми, несмотря на все эти междоусобицы, продолжали торговать с приволжским краем и привозили в Россию вновь отчеканенные монеты новых династий. В X в. Закавказье разбивается на ряд мелких эмиратов во главе с самостоятельными династиями. В Азербайджане первым таким государством стало Ширванское государство Мазьядидов, правителем которого был ширваншах Хайсам ибн Халид – внук Язида ибн Мазьяда иш-Шейбани.

Другое независимое государство того времени – государство Саджидов. Основоположник династии Саджидов – Абу-с-Садж Дивдад, был наместником халифа. Будучи одним из наиболее опытных военачальников халифа Абу-с-Садж сыграл большую роль в военной истории халифата. Он принимал активное участие в военных действиях против хуррамитов Азербайджана, против наместника Табаристана Мазяра, за что был награжден халифом, а затем назначен халифским наместником Ахваза и Куфы (17, 2). Основатель государства – Мухаммед ибн Абу-с-Садж Афшин (889-901) – являлся наместником Азербайджана и Арминии в 276 г.х. (889). Государство Саджидов занимало обширную территорию – Южный и Северный (Арран) Азербайджан. Земли Аррана Саджиды отняли у ширваншахов – Мазйадидов, а сами ширваншахи стали их вассалами (10, 15). Став правителями Азербайджана, они пытались отделиться от халифата.

В 50-х годах Х.в. на власть в Азербайджане стали претендовать Салариды. При основателе государства Марзбане ибн Мухаммеде (941-957), Салариды контролировали весь Азербайджан. Впоследствии, в результате ослабления государства Саларидов в конце третьей четверти Х в. из его состава вышла Гянджа с ее окрестностями, ставшая в дальнейшем ядром государства Шаддадидов.

Перечисленные правители, судя по дошедшим до нас нумизматическим фактам, били собственную монету, которая считается одним из важнейших источников по истории Азербайджана. Ширваншахи Мазьядиды чеканили дирхемы и фельсы в Арране, Арминии и Дабиле, Саджиды – в Ардебиле, Мараге, Барде, Азербайджане и на монетных дворах подвластных им территорий – в Арминии и ал-Мухаммедии (Рее), Салариды – в Барде, Ардебиле, Мараге и Азербайджане. Монеты этих династий встречаются очень редко, - все они уходили на север в ходе интенсивной внешней торговли.

Монет Раввадидов (979-1054), пришедших на смену Саларидам и находки монет Шеддадидов – правителей Аррана и других областей Закавказья (ок.951-1199) осталось еще меньше, чем саларидских.

Все более увеличивавшаяся нехватка серебра, начиная со второй половины Х в. сопровождалась понижением пробы и повышением веса дирхема. Такими были поздние дирхемы Мазьядидов Ширвана, Шеддадидов Аррана, Раввадидов Азербайджана, Бувейхидов Ирана, Саманидов Хорасана, илеков Караханидов Туркестана. Это был начальный этап преднамеренной порчи чекана и обращения низкопробного дирхема. Изучение низкопробных монет Йазида ибн Ахмада (991-1027) из Хачмазского клада

показывает, что серебряный кризис в Азербайджане наступил в период правления этого ширваншаха (1, 12).

Низкопробные дирхемы, как и медные фельсы, предназначались для удовлетворения потребностей торгового оборота. Все известные клады этих монет XII в., битых от имени Манучехра I, Ахситана I, Шаханшаха, найдены недалеко от Шамахы, в которой они и чеканились (8, 50-51, №108).

Прогрессирующее понижение доли серебра в дирхеме привело к тому, что низкопробные монеты почти не отличались от медных. Тогда-то ширваншахи и атабеки Азербайджана начали серебрение монет. Впервые такие со следами серебрения монеты ширваншахов Ахситана I и Шаханшаха описал Е.А.Пахомов. Им был проведен химический анализ ширваншахских монет, который установил снижение количества серебра в монетах с 10,75% до 0,177%. (8, 5. №109; 94; 59). Начало их серебрения приходится на 545 и 552 гг.х. (14, 69). Подобные монеты, как и ранние низкопробные дирхемы, обращались в соответствии с установленным на рынке курсом.

Вскоре ширваншахи отказались от серебрения монет и перешли к выпуску чистой меди. Как считает А.Раджабли, началом «периода чеканки и обращения медных «знаков стоимости», всецело охвативших сферу обращения серебра во внутренней – городской и междугородной – денежной торговле в пределах одного государства, было заложено при ширваншахе Шаханшахе» (14, 70). Собственное имя Шаханшаха было установлено Е.А.Пахомовым по его медным монетам (9, 69).

Часть монет до конца серебряного кризиса чеканилась из натуральной меди. Большое количество кладов этих монет свидетельствует не только о роли и месте медной монеты в сфере обращения прежнего серебряного дирхема, но и о высоком уровне товарно-денежных отношений Ширванского государства, наивысшее развитие экономики и культуры которого совпало с разгаром серебряного кризиса.

Атабеки Азербайджана на этом этапе серебряного кризиса получили от Сельджукидов Иракского султаната право на собственный чекан. Это стало возможным после ослабления империи Великих Сельджукидов и образования на ее месте более мелких государств, в том числе азербайджанского атабекства. Как отмечает академик Буниятов З.М., еще ко времени возникновения государства атабеков Азербайджана, ввиду серебряного кризиса в денежном хозяйстве, монетно-денежная система на всем Переднем Востоке базировалась на меди, т.е. в качестве основных средств обращения выбивались и употреблялись медные монеты, а всеобщим покупа-

тельным средством служило золото, право чеканки которого принадлежало великим сельджукским султанам (4, 205).

С самого начала серебряного кризиса в денежной торговле активизировалась роль золота. В процесс товарно-денежных отношений оно включилось в новом для себя качестве – как средство обращения, сохранив при этом за собой право участвовать в крупном платежном обороте. Золото чеканилось не только халифами, но и правителями многих независимых государств, в том числе азербайджанских. Вес динара периода серебряного кризиса не был стабильным, вследствие чего такие монеты на рынке принимались по весу.

Значительную роль в денежном обращении Закавказья XI-XII вв. играли золотые монеты Византийской империи.

В Азербайджане эти монеты встречались и раньше, после перехода Византии к золотой валюте при Константине Великом, но теперь золото буквально хлынуло в образовавшийся вследствие серебряного кризиса вакуум международных валютных средств. Территория Азербайджана усеяна кладами, порой довольно крупными, этих монет, которые Византия систематически и в большом количестве чеканила в XI-XII вв. Азербайджан благодаря своему удачному расположению между Востоком и Западом, а также высокоразвитому городскому хозяйству и обилию всевозможных товаров притягивал к себе византийское золото. Высокопробные солиды попадали сюда через Малую Азию и владения Сельджукидов. Один из крупных кладов с византийскими монетами найден в с. Нижнее Вери Лянкаранского района (9, 26-27, №406).

В результате острой политической борьбы между правящей Газневидской династией и Сельджуками на территории Хорасана возникает государство Великих Сельджуков. С появлением в XI в. на политической арене сельджуков своих монетных регалий лишились многие суверенные правители. В их числе были и последние азербайджанские эмиры Шеддадиды и Раввадиды. Собственную монету чеканили только ширваншахи Мазьядиды, сохранившие за собой право «сикке». Ферибурз I, Манучехр I, Манучехр II, Манучехр III, Ахситан I и Шаханшах чеканили низкопробные и посеребренные дирхемы, а Шаханшах – еще и медные. Приход к власти сельджуков и установление монетной чеканки в государстве Великих Сельджуков совпало с серебряным кризисом. Углубившись уже к моменту образования государства Великих Сельджуков, он не мог не отразиться на их денежном хозяйстве.

Так как образование государства Великих Сельджуков совпало с пиком «серебряного кризиса», то денежная система Сельджукской им-

перии с самого начала своего существования базировалась на динаре. Правом чеканить динары обладали только Великие Сельджукиды, и они чеканили их в огромном количестве, причем без соблюдения весового стандарта. Монетные дворы Нишапура, Рея и Исфахана, работали с большой нагрузкой и ежегодно выпускали большие эмиссии золотых динаров. Динары чеканились также в Азербайджане. В каталоге монет государства Великих Сельджуков, составленном Ходжаниязовым Т., приводится динар, чеканенный при Беркияруке, сыне Мелик-шаха (15, 71). Серебряные монеты чеканились в указанных городах в очень ограниченном количестве и с большими перерывами. По данным Ходжаниязова Т., некоторые правители из рода сельджуков, особенно Алп-Арслан и последующие правители, выпускали электровые динары (16, 27). Подобные динары, согласно выпускам Пахомова Е.А., на территории Азербайджана не обнаружены.

Сельджукские султаны били и медь. Это были крупные, определенного весового стандарта и размера круглые медные монеты (14, 74). Их статус обращения, или достоинство, удостоверялось обозначенным на них словом «дирхем», а свободное обращение обеспечивалось политико-экономическим потенциалом государства.

Вскоре после расчленения империи Великих Сельджукидов сельджукские султаны уступили свое место всемогущим атабекам, в том числе азербайджанским. Получив право бить монету, атабеки Азербайджана стали снабжать медной монетой не только Азербайджан, но и все подвластные иракским Сельджукидам владения. При этом сфера обращения медных монет носила локальный характер, т.е. эти монеты обращались в границах тех государств, которые их чеканили (4, 206).

Атабеки чеканили крупные правильной формы медные дирхемы и мелкие неправильной формы медные фельсы. Первая группа монет - кредитные дирхемы – обращалась поштучно, а вторая – по весу(13, 88). Подобная дифференциация отразилась и на кладах этих монет. Так, наряду с кладами смешанного состава встречаются клады с обособленным содержанием монет.

Все возрастающая потребность денежного рынка в разменной монете не обеспечивалась техническими возможностями монетных дворов. Для ускорения производства медных монет право чеканить их, согласно А.Раджабли, атабеки предоставили своим вассалам – меликам Ахара, Зенджана и др. Некоторые из этих владетелей выпускали, как и атабеки, обе группы монет(14, 77).

До нас дошло множество медных дирхемов атабека Мухаммеда, памятные монеты Кызыл-Арслана, выпущенные в честь его победы над Тогрулом III – последним представителем Иракского султаната. Абу Бекр за время своего долголетнего правления выпустил около двух десятков типов медных дирхемов и фельсов, а также золотые монеты. В первой половине XIII в. до завоевания Закавказья монголами, но уже после первого появления их в степях Восточного Закавказья, почти одновременно в Грузии, в султанатстве румском, в киликийской Армении, некоторых ортукидских владениях, у багдадских халифов и других государствах Передней Азии, возобновляется чекан серебра и при том повсюду на основе серебряного высокопробного дирхема, весом от 2,75% до 3,0 г. (8, 27). Первое нашествие войск Чингисхана на Азербайджан произошел после того, как для розыска хорезмшаха Мухаммада, Чингисханом был выделен отряд под командованием нуинов Джебе и Субтая. В результате первого опустошительного похода монгольских полководцев, а также вследствии феодальных междоусобиц, господства Джелал-ад-дина, страна была крайне разорена и не была в состоянии оказать серьезное сопротивление врагам. В 231 году при хане Угэдэй-каане объединенная монгольская армия под начальством Джормауна вторглась на территорию Азербайджана (2, 110).

Вторжение монголов в Азербайджан надолго задержало экономическое и культурное развитие страны. Но с конца XIII в. разрушенные города и хозяйства сельских общин стали постепенно возрождаться. Первыми восстановились те города, в которых находились резиденция нойонов-военачальников и наместников-улусбеков, - Тебриз и Гянджа. Подтверждением этого служат монеты, битые в этих городах, а также в Нахчеване в 40-х гг. XIII столетия. Эти серебряные так называемые «оккупационные» дирхемы чеканились анонимно, с легендой «каан справедливый»; Е.А.Пахомов назвал их условно «кааниками». Однако кааники чеканились от случая к случаю (14, 85).

От первых Чингизидов до нас дошло не так уж много монет, что ярко прослеживается в выпусках «Монетные клады...» Е.А.Пахомова. Монет с упоминанием имени самого Чингисхана известно всего несколько экземпляров, а с именем Угедея – ни одной. Выпуск анонимных монет осуществлялся в основном в период междуцарствий – в 1241-1246 и 1248-1251 гг., но продолжался и при Хулагу наравне с его собственным чеканом. Для использования в качестве разменной монеты бились медные монеты. Золотые динары чеканились реже, чем медные.

В денежном обращении Азербайджана и всего Закавказья в первой половине XIII в. весьма значительную роль имели серебряные дирхемы

Сельджукидов Малой Азии. В Закавказье зарегистрировано свыше 50 более или менее крупных кладов, содержащих серебряные дирхемы Сельджукидов и эмиратов Малой Азии. Особого внимания заслуживают те из них, которые состоят лишь из одних малоазиатских монет. Судя по составу этих кладов, прилив сельджукских монет в Азербайджан, начавшийся в 30-х гг. XIII в., становится особенно интенсивным в 40-50-х гг. В дальнейшем он ослабевает, доходя до 90-х гг. того же столетия. Среди находимых в Азербайджане монет сельджукских султанов преобладают монеты Кей-Кубада I (1219-1236) и его преемника сына Кей-Хосрова II (236 г.х. – 1246), а также монетная продукция Коньи и Сиваса – важнейших политико-экономических и культурных центров Конийского султаната (14, 88). На монетных дворах названных городов монет чеканили больше, чем на всех остальных вместе взятых. Из обоих городов по древней дороге Сивас – Арзинджан – Арзерум, разделяясь в направлении на юго-восток и северо-восток, в Азербайджан и, естественно, в обратную сторону шли пути караванной транзитной торговли.

## ЛИТЕРАТУРА


1. Азимова Л.А. Денежное обращение Азербайджана во второй половине IX-первой половине XI вв. (по данным нумизматики):Автореферат дис. канд. ист. наук. Ленинград, 1986.
2. Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана XII-XIV вв. Баку: Из-во Ан Азер.ССР,1956.
3. Большаков О.Г. Средневековый город Ближнего Востока (VII- середина XIII вв.). Москва, 1984.
4. Буниятов З.М. Государство атабеков Азербайджана (1136-1225 гг.) Баку: Элм, 1978.
5. Буряков Ю.Ф. Горное дело и металлургия средневекового Илака.Москва, 1974.
6. Давидович Е.А. Городское ремесло и денежное обращение в Средней Азии периода так называемого «серебряного кризиса» XI-XIII вв. / Материалы второго совещания археологов и этнографов Средней Азии. Москва-Ленинград: Изд-во Восточной литературы, 1959,с. 156-159.
7. Заходер Б.Н. История Восточного средневековья (Халифат и Ближний Восток), Москва, 1944.
8. Пахомов Е.А. Монетные клады Азербайджана // Труды Общества обследования и изучения Азербайджана , 1926, вып. 3.
9. Пахомов Е.А. Клады Азербайджана и других республик и краев Кавказа. Баку: 1938, вып. 2.

10. Пахомов Е.А. Краткий курс истории Азербайджана: с приложением экскурса по истории ширваншахов XI-XII вв. Баку, 1923.
11. Пахомов Е.А. Монетное обращение Азербайджана в XII и начале XIII в. // Нумизматический сборник. Под ред. Шелова Д.Б. , 1957, № 2, с.80-89.
12. Пахомов Е.А. Монеты Грузии. Тбилиси, 1970.
13. Пахомов Е.А. Борьба феодальных династий за Восточное Закавказье с первой половины XIV- до начала XV вв. по монетным данным// Кратк. сообщ. о докл. и полевых исслед. Института истор. мат. культ. (КСИИМК), 1956 г, вып. 66, с.46-49.
14. Раджабли А. Нумизматика Азербайджана: (Очерки истории монетного дела и денежного обращения Азербайджана). Баку, 1997.
15. Ходжаниязов Т. Каталог монет государства Великих Сельджуков. Под ред. Массона М.Е. Ашхабад, 1979.
16. Ходжаниязов Т. Денежное обращение в государстве Великих Сельджуков. Ашхабад, 1977.
17. Шарифли М.Х. Государство Саджидов. Москва, 1960.

## XII-XIII ƏSRLƏRDƏ AZƏRBAYSANDA PUL DÖVRİYƏSİ VƏ SİKKƏ ZƏRBİ

*Teymur Quliyev*

***Xulasə***

Məqalədə Azərbaycanın XII- XIII ə.ə. ərəb xülafətinin sügutundan sonrakı dövrdə pul dövriyəsi və sikkə işi tədgig olunur; "Gümüş böhranının" səbəbləri araşdırılır.

## MONETARY CIRCULATION AND MONETARY BUSINESS IN AZERBAIJAN IN XII-XIII CENTURIES

***Teymur Quliyev***

***Summary***

In the paper the questions of monetary circulation and monetary of business Azerbaijan in XII-XIII centuries are studied. The "silver crisis" problem is enlightened in this work.

# MARAQLI TAPINTILAR
# INTERESTING FINDINGS
# ИНТЕРЕСНЫЕ НАХОДКИ

## LEYLATƏPƏ ARXEOLOJİ MƏDƏNİYYƏTİNİN GİL FİQURLARI

*Anar Ağalarzadə*
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

«Əsrin müqaviləsi» layihəsi çərçivəsində həyata keçirilən Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (CQBK) neft-qaz boru kəmərlərinin gerçəkləşməsi, zəngin maddi və mənəvi irsə malik Azərbaycanın qədim tarixi keçmişinin öyrənilməsinə təkan verdi. Kəmərlərin keçdiyi 438-ci km-də, Ağstafa rayonunun Böyük Kəsik kəndi ərazisində 2004-2005-ci illərdə aşkara çıxarılmış Leylatəpə arxeoloji mədəniyyətinə məxsus eneolit dövrü qədim yaşayış yerinin tədqiqi elm aləminə maraqlı məlumatlar daxil etməkdədir. Bu arxeoloji mədəniyyət XX əsrin 80-ci illərində, erkən əkinçi-maldar tayfalara məxsus və bir sıra xüsusiyyətlərinə görə, digər eneolit abidələrindən olduqca fərqli tərzdə seçilən Qarabağ bölgəsindəki qədim yaşayış yeridir (5, 13). Abidənin arxeoloji tapıntıları, xüsusilə də dulus çarxında yüksək keyfiyyətlə hazırlanmış keramika məmulatı Mesopotamiyanın Ubeyd mədəniyyətinə aid abidələrlə paralellik təşkil edir (3, 6-7). E.ə. IV minilliyin birinci yarısına aid olan Leylatəpə arxeoloji mədəniyyəti abidələri (Böyük Kəsik, Soyuqbulaq, Ağılı dərə) və bu abidələrdə aparılmış arxeoloji qazıntıların ən böyük elmi əhəmiyyəti, Qafqazın Yaxın Şərq ilə mədəni-iqtisadi əlaqələrinin, Şimali Mesopotamiyadan Qafqaza miqrasiya etmiş tayfaların və bu miqrasiyaların nəticəsində ümumi Qafqaz regionunda ayrıca arxeoloji mədəniyyətlərin yaranmasına gətirib çıxaran maddi dəlillərdir.

Böyük Kəsik eneolit dövrü qədim yaşayış yeri şərqdən 500 metr məsafədə eyniadlı kəndlə həmsərhəddir. Yaşayış yerinin mədəni təbəqəsindən xeyli sayda maddi mədəniyyət nümunələri əldə edilmişdir ki, bu tapıntılar da məhz, Mesopotamiya ərazisindəki Ubeyd mədəniyyəti abidələri ilə səsləşir. Arxeoloji materiallar içərisində gildən hazırlanmış **antropomorf və zoomorf fiqurlar** daha çox diqqəti cəlb edir. Hələlik belə fiqurlar Leylatəpə mədəniyyətinə aid digər abidələrdən aşkar edilməmişdir (1, səh.16).

Gildən hazırlanmış fiqurların təsadüfi və nadir hallarda tapılmasına baxmayaraq, onların böyük elmi əhəmiyyəti vardır. Azərbaycan ərazisində belə fiqurlar əsasən eneolit, tunc və antik dövr abidələrindən məlumdur. Fiqurlar

gildən hazırlanmış maddi mədəniyyət nűmunələridir. İncəsənət nűmunəsi olan gil fiqurlar kifayət qədər őyrənilmişdir.

Tablo I




Bőyűk Kəsik eneolit dővrű qədim yaşayış yerinin gil fiqurlarından **biri qadın, digəri őkűz fiqurudur.**

Cənubi Qafqazın ilkin əkinçilik mədəniyyətləri űçűn xarakterik olan antropomorf fiqurlar eneolit və ilk tunc dővrűndə műşahidə edilir. Eneolit dővrű fiqurlarının analogiyası Mesopotamiya, ilk tunc dővrű isə Kiçik Asiya və Qa-

ra dəniz sahillərinin şərq hissəsi üçün xarakterikdir. Tədqiqatçılar bunu etnik və mədəni-iqtisadi proseslərlə əlaqələndirirlər(10, 172).

Yaşayış yerinin **antropomorf qadın fiquru** I qazıntı sahəsinin VII kv-da, 1,45 metr dərinlikdən tapılıb (tablo I, şək.1). Uzunsov, dairəvi en kəsikli olan qadın bütü təmiz tərkibli gildən keyfiyyətli bişirilmişdir. Fiqurun oturacaq hissəsi yastıdır. Onun baş tərəfi yoxdur. Boyun hissəsi arxa tərəfdən sınmışdır. Gövdəsində qabarıq döşləri təsvir edilib. Qonur rəngli olan fiqur yaxşı şüyrələnmişdir. Fiqurun uzunluğu 5,2 sm, diametri 1,6 sm-dir. Qadın obrazını ifadə edən bu antropomorf fiqur forma etibarı ilə Cənubi Ubeyd fiqurları ilə yaxınlıq təşkil edir (1, səh.16). Eneolit dövrü abidələrinin bir hissəsində qadın fiqurlarına rast gəlinir. Şübhəsiz ki, bunlar inamlarla bağlıdır (6, 244). Əgər bu fiqurlar anaxaqanlığı ilə əlaqəlidirsə, qadın – anaya inamın evin, əbədi odun mühafizəçisi (10, 172) və həmçinin nəsil davamçısı rolunu oynaması istisna deyil. Belə fiqurlardan biri Mil-Qarabağ düzünün eneolit dövrü Çalağantəpə yaşayış yerindən (7, 8-10), digər fiqur Gürcüstanın Adıgey rayonunun Orçoşani kəndi ərazisindəki yaşayış yerindən (10, 172) məlumdur.

Zaman etibarı ilə müxtəlif dövrlərə məxsus olmasına baxmayaraq, bəzən eyni formaya malik olan bu fiqurları müqayisə etmək daha məqsədəuyğun olardı. Məhz bu müqayisəni digər tayfaların mədəniyyətlərində də aydın görmək mümkündür.

Yaxın Şərqin bir sıra mədəniyyət mərkəzlərində **«ilahə ana»** inamı geniş yayılmışdır. Neolit və eneolit dövrlərində bu inamı əks etdirən müxtəlif tip qadın fiqurları düzəldilirdi (4, 8). Cənubi Qafqazın və Yaxın Şərqin ilkin əkinçilik mədəniyyətləri, o cümlədən Şimali Ubeyd mədəniyyəti üçün gildən hazırlanmış şişman bədənli, matrona tipli qadın fiqurları səciyyəvidir. Bu baxımdan klassik, Cənubi Ubeyd mədəniyyətinə aid qadın fiqurları seçilirlər. Onlar ayaq üstə dayanmış, enli çiyinli, əlləri döşlərinin altında birləşən, mütənasib bədənli qadın fiqurlarıdır. Lakin onların baş hissəsinin insan görkəmi ilə əlaqəsi yoxdur və hansısa əcaib məxluqları xatırladır. Böyük Kəsik fiquru da bədən quruluşu baxmından Cənubi Ubeyd fiqurlarına daha çox yaxındır (2, 101). Bu fiqurun baş hissəsi tapıladığı üçün, təəssüf ki, onun sifət quruluşu barəsində fikir söyləmək çətindir.

Məlum olduğu kimi, Ubeyd tayfalarının bir qrupu şərq istiqamətində miqrasiya etməklə Orta Asiyaya qədər gedib çatmışdır. Türkmənistanın cənubunda aparılmış arxeoloji qazıntılar zamanı Ubeyd mədəniyyətini əks etdirən materiallar arasında antropomorf gil fiqurlar aşkar edilmişdir. Lakin Orta Asiyanın bu abidələri təqribən e.ə. III minillyin ikinci yarısına aiddir. Antropomorf fiqurlar ideologiya ilə, dini baxışlarla bağlı olduğu üçün insanların şüurunda əsrlərlə yaşamışdır. Mesopotamiya ərazisindən Orta Asiya və Qafqaza miqrasiya etmiş ubeydlilər bu miqrasiya zamanı müxtəlif coğrafi ərazi-

lərdən keçmiş və ona görə də onların mədəniyyəti bir sıra dəyişikliklərə məruz qalmışdır. Lakin ideoloji baxışlar, adət-ənənələr Yaxın Şərq mədəniyyətləri tayfalarının hafizəsində uzun müddət yaşamaqla miqrasiya etdikləri Qafqaz və Orta Asiya ərazilərində tətbiq edilmişdir.

Şərqi Avropanın Tripolye mədəniyyətinin bütün dövrlərinə aid abidələrin geniş qazıntısından təqribən 1500 illik bir dövrü əhatə edən 2000-ə yaxın fiqur və fraqmentlər əldə olunmuşdur. Tripolyenin antropomorf təsvirli fiqurlarının 90% məhz qadın fiqurudur (9, 12).

I Böyük Kəsik qədim yaşayış yerinin gil fiqurlarından digəri **zoomorf – öküz fiqurudur** (tablo I, şək.2). Yaşayış yerinin I qazıntı sahəsində VI kvadratın ərazisində, 1,50 m dərinlikdən tapılan öküz ayaq üstə durmuş vəziyyətdə təsvir edilib. Uzunsov çənə və burnu, dik qulaqları, nazik və yapmaşəkilli quyruğu vardır. Ayaqları qoşalaşmışdır. Fiqurun sağ tərəfdən qulağının aşağı hissəsində 8 mm uzunluğunda çökək-işarə formalı dərin çərtmə vardır. Çərtmənin məqsədli şəkildə vurulduğu ehtimal edilir. Fikrimizcə bu, əkinçilikdə qoşqu kimi istifadəsi zamanı öküzün başına keçirilmiş qoşqu – kəndirin təsviridir. Qonur rəngli fiqur təmiz tərkibli gildən yaxşı bişirilmiş və şüyrələnmişdir. Zoomorf fiqurun uzunluğu – 3,5 sm, hün. -2,6 sm, gövdəsinin hün. – 1,3 sm-dir. Fiqurun analoqlarına həm Şimali Ubeyd, həm də Kür-Araz mədəniyyəti abidələrində rast gəlinir (1, səh.16). Zoomorf fiqurlar Şimali Ubeyd mədəniyyətinə aid olan III Yarımtəpə, həmçinin Təpə Gavrın və Tell Arpaçinin Ubeyd mədəniyyətinə aid təbəqələrindən tapılmışdır (2, 102). 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin keçdiyi yerdə, Tovuz rayonu ərazisindəki Xocaxan qədim yaşayış yerinin eneolit dövrü mədəni təbəqəsindən öküz fiquru aşkar olunmuşdur. Bu tip gil fiqurlar ilk tunc dövrü I Kültəpə, Babadərviş, Quruçay və Köndələnçay vadisindəki abidələrdən məlumdur. Gil qabların istehsalı prosesində sənətkarların maldarlıqla bağlı düzəltdikləri gil heyvan fiqurları müəyyən ideoloji düşüncələrə müvafiq olaraq hazırlanmışdır. Bu fiqurların meydana gəlməsi ehtimal ki, qədim insanların həyatında həlledici rol oynamış və nəticədə totemə çevrilmiş heyvanlarla bağlı olmuşdur. Azərbaycan ərazisindəki qədim yaşayış yerlərindən öküz fiqurlarının aşkar olunması **«öküz»** kultuna inamla bağlıdır. Eneolit və ilk tunc dövrü abidələrindən əldə olunmuş bu fiqurlar qədim əkinçi-maldar tayfaların təsərrüfatında öküzün başlıca rol oynadığını sübut edir. Buna misal olaraq, Qarabağ ərazisindəki Çalağantəpə yaşayış yerindən əldə olunmuş gildən cavan öküz başı fiquru (8, 11) ərazidə məskunlaşmış eneolit dövrü əhalisinin mənəvi mədəniyyətini əks etdirir. Lakin Çalağantəpədən aşkarlanmış bu zoomorf fiqur Böyük Kəsik və Kür-Araz dövrünün fiqurlarından iri ölçüdə, fərqli üslubda olması ilə aydın seçilir. Digəri isə, I Kültəpə abidəsidir ki, məhz onu da gildən heyvan fiqurlarının daha çox aşkarlandığı yaşayış yeri kimi göstərmək olar. Kültəpənin ilk tunc dövrü təbəqəsindən gildən 20-yə ya-

xın öküz, keçi, qoyun və it təsvirli fiqurlar tapılıb. Bunlardan öküz fiquru tək tapıntıdır. Aydın olur ki, öküzə inam digər canlılara olan inamdan böyük olmuşdur. Fiqur çox realist hazırlanmış və keyfiyyətli gildən yaxşı bişirilmişdir. Görünür öküz fiqurunun digər canlılara nisbətən az tapılması təsərrüfatda öküzün əhəmiyyətli yer tutmasından xəbər verir (6, 246-247).

Beləliklə, I Böyük Kəsik eneolit dövrü qədim yaşayış məskənindən aşkarlanmış antropomorf və zoomorf fiqurlar dövrün son mərhələsində –e. ə. IV minilliyin birinci yarısında əkinçi-maldar tayfaların mənəvi mədəniyyətində və ideoloji baxışlarında qadına və öküzə inamın daha geniş yayıldığını aydınlaşdırır. Gələcəkdə, Leylatəpə arxeoloji mədəniyyətinə aid aşkarlanacaq digər abidələrin tədqiqi zamanı bu tip fiqurlar əldə olunarsa, şübhəsiz ki, daha geniş araşdırmalara zəmin yaranacaqdır.

## ƏDƏBİYYAT:

1. Müseyibli N.Ə. Eneolit dövrü I Böyük Kəsik yaşayış məskənində arxeoloji qazıntıların nəticələri. Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2006, №1.
2. Müseyibli N.Ə., Hüseynov M.M. I Böyük Kəsik qədim yaşayış yerində aparılmış arxeoloji qazıntıların geniş hesabatı. Bakı, 2007.
3. Müseyibli N.Ə. Ağstafa rayonunda son eneolit dövrü kurqanları. «Azərbaycan arxeologiyası» jurnalı №1-4, Bakı, 2005.
4. Müseyibli N.Ə. Gəmiqaya petroqliflərinin Yaxın Şərq paralelləri. Azərbaycan arxeologiya və etnoqrafiyası. Bakı, 2006, №2.
5. Necefov Ş., Ağalar-zade A. Yakındoğu-Anadolu-Kafkasya üçgeninde kavimler göçü ve kültürel etkileşimler. (Eski doğu kültür merkezlerinin ekonomik-ticari ilişkileri üzerine arkeolojik araştırmalar M.Ö. V-I bin yıllarda).
6. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку 1982.
7. Нариманов И.Г., Азимов М.С., Алиев Н.Г. Работы первого отряда Мильско-Карабахской экспедиции в 1985 году. Археологические и этнографические изыскания в Азербайджане (1985). Баку, 1986.
8. Нариманов И.Г., Азимов М. С. Энеолитическое поселения Чалагантепе. Баку, Элм 1985.
9. Погожева А.П. Антропоморфная пластика Триполья. Новосибирск, 1983.
10. Хвистани Р. Образец антропоморфной пластики из Орцошани. Археология, этнология, фольклористика Кавказа. Баку, 2005.

# ГЛИНЯНЫЕ ФИГУРЫ ЛЕЙЛАТЕПИНСКОЙ КУЛЬТУРЫ

***Анар Агаларзаде***

***Резюме***

В статье описываются антропоморфные и зооморфные керамические фигуры, которые были обнаружены в зоне нефтепровода Баку-Тбилиси-Джейхан, на поселении эпохи позднего энеолита Беюк Кясик I Акстафинского района. Стало известно о том, что в духовной культуре земледельческих племен первой половины IV тыс. до н.э. большое место занимали культ женщины и быка.

# THE CLAY FIGURES OF LEYLATEPE CULTURE

***Anar Agalarzadeh***

***Summary***

The anthropomorphic and zoomorphic clay figures that were discovered from I Boyuk Kesik eneolithic period dwelling lay over the Baku-Tbilisi-Ceyhan oil pipeline in the territory of Akhstafa region are investigated in this article. It came out clear that great belief in women and bulls had been spread in the moral culture of ploughing and cattle-breeding tribes in the first half of IV mil. B. C.

# ORTA ƏSR ŞƏMKİR ŞƏHƏRİNİN BOYALI SAXSI QABLARI HAQQINDA

## (2006-cı ilin qazıntıları əsasında)

*Namiq Hüseynli*
*(Azərbaycan MEA Arxeoloqiya və Etnoqrafiya İnstitutu)*

Orta əsr Şəmkir şəhərinin xarabalıqları indiki Şəmkir rayonunun Muxtariyyə kəndinin kənarında, Şəmkirçayın sol sahilində yerləşir.Şəhər xarabılıqlarının tədqiq olunması məqsədilə 2006-cı ildə abidənin şəhristan hissəsində, 16 kv.m sahədə arxeoloji qazıntılar aparılmış və qalınlığı 2 metrdən artıq olan zəngin mədəni təbəqə aşkar edilmiş və öyrənilmişdir.Müəyyən olunmuşdur ki, tədqiq olunan sahədə yaşayış təqribən VIII əsrin sonlarından monqol işğalına qədər fasiləsiz davam etmişdir. Arxeoloji qazıntılar zamanı xeyli miqdarda metal, şüşə, saxsı, sümük və daşdan hazırlanmış əşyalar tapılmışdır. Digər orta əsr şəhərlərin arxeoloji qazıntılarında olduğu kimi Şəmkirdə də tapılan maddi mədəniyyət nümunələrinin böyük əksəriyyətini saxsı məmulatı təşkil edir. Saxsı məmulatı arasında qırmızı boyalı qab nümunələri də az deyildir.

Qazıntı zamanı əldə edilmiş boyalı qablar, əsasən küp, küpə, qapaq, bardaq, kasa və xeyrə tipli qabların qırıqlarından ibarətdir.

Orta əsrlədə əhalinin məişət həyatında geniş istifadə olunan təsərrüfat tipli qabların biri də küplərdir.Ərzaq məhsullarının saxlanılması üçün istifadə olunan bu küplər müxtəlif ölçülərdə, qulplu və qulpsuz hazırlanmışdır.

Tapılmış boyalı küp nümunələrinin birində ağzının kənarı yana qatlanmış, ağzında içəri tərəfdən qapaq üçün gəz düzəldilmişdir.Belə küplər Aran şəhərləri üçün xüsusilə səciyyəvidir. Geniş silindirik boğazlı təsərrufat küpünün ağzının kənarı, bayır tərəfdən cızma xətt və relyefik qurşaqla bəzədilmişdir.Bu küp dulus çarxında hazırlanmış və qeyri sabit hərarətdə bişirilmişdir. Gilinin tərkibində qum qarışığı vardır. Saxsının rəngi çəhrayı olub, üzəri qırmızı boya ilə boyanmışdır (şək.1). Bu tip boyalı təsərrüfat küpləri Gəncə, Beyləqan və digər orta əsr şəhər yerlərinin arxeoloji qazıntılarından yaxşı məlumdur. Qədim Gəncə şəhəri yerindən aşkar olunmuş küplərlə Şəmkir şəhərindən tapılmış küplər formaca oxşar olub üzəri yaxşı şüyrələnmiş və qırmızı boya ilə rənglənmişdir. Oxşar küp fraqmentləri orta əsr Beyləqan şəhərindən də aşkar olunmuşdur. Beyləqan qazıntılarından məlum olan 3-4 qulplu boyalı küplər yaxşı şüyrələnmiş, yastı oturacağa malik olub, hündürlüyü isə təxminən 1 metrə bərabərdir (2,s.72). Məlum olduğu kimi, orta əsr Beyləqan şəhərinin küpləri üçün səciyyəvi cəhət onların üzərinin qırmızı rənglə boyanaraq, yaxşı şüyrələnməklə yanaşı, həmçinin ,dayaz relyefli ,müxtəlif rəsmli silindr formalı möhürlər vastəsilə naxışlanmasıdır (3,s.76).




Üzərinə müxtəlif naxış və heyvan təsvirlərindən ibarət ornamental kəmər salınmış küplərin yaşayış binalarında interyeri bəzədiyidə ehtimal olunur.

Şəmkir şəhər yerindən tapılmış boyalı saxsı qab nümunələri arasında bardaq qırıqlarıda vardır. Tapılan bardaq fraqmentləri bir növ orta əsr Beyləqan şəhər yerindən tapılmış bardaqlarla oxşarlıq təşkil edirlər. Belə ki, Şəmkir şəhər yerindən tapılmış bardaq fraqmentləri Beyləqandan tapılmış bardaqlar kimi darboğazlı qablara aid olub yaxşı şüyrələnmişdir (2,s.92).

Şəmkirdən aşkarlanmış fraqmentlər üzərinə qırmızı boya çəkilmiş, boğaz yuxarıya doğru genişlənən bardağa aiddir. Bardaq narın, təmiz tünd çəhrayı rəngli gildən dulus çarxında hazırlanmış, sabit hərarətdə bişirilmişdir (şək.7).

Digər fraqment isə darboğazlı bardağın çiyin və boğaz hissəsi olub, qabın gövdəsinə yaxın xaricə tərəf genişlənir.Gilinin tərkibində az miqdarda qum qarışığı müəyyən edilmişdir. tapıntının üzəri yaxşə şüyrələnmiş və qırmızı boya ilə rənglənmişdir. Boğazının diametri 3,4 sm-dir (şək.9).

Başqa darboğazlı bardaq fraqmenti qabın çiynindən boğazına keçən yerinə aiddir. Boğazın aşağı tərəfini əhatələyən (relyefik) qabarıq qurşaq vardır. Çiynində şüyrələnmə izləri qalmış bu qab qırmızı boya ilə boyanmışdır. Gilinin tərkibində qum qarışığı vardır, qeyri sabit hərarətdə bişirilmiş, içəri tərəfi qonur rəngdədir. Boğazının diametri 3 sm-dir (şək.8). Qeyd edək ki, üzəri yaxşı sürtülərək hamarlanmış bu tip qablara Beyləqan ərazisində də rast gəlinmişdir (2,s.92).

Aşkar olunmuş küpə fraqmentlərinin də üzəri yaxşı şüyrələnmişdir. Küplərin üzərinə basma üsulla müxtəlif heyvan rəsmlərindən ibarət naxışlar vurulmuş, sonra isə boyanmışdır. Basma bəzəklərin qabın boyanmasından əvvəl vurulduğu ondan aydın olur ki, naxışlardan kənar hissələr heç də boyanmamışdır. Qeyd etmək olar ki, qırmızı boyalı ,üzərində müxtəlif heyvan rəsmlər olan küpə fraqmentlərinin hamısı tapılmadığından rəsmlərin tam təsvirini vermək və süjeti bütünlüklə bərpa etmək çətindir. Adətən, bu cür naxışlar həmin dövr xalq yaradıcılığı ilə bağlı olub, semantikası çox qədim zamanlara gedən bütöv bir səhnəni xatırladır.

Şəmkir şəhər yerindən aşkar olunmuş küpə fraqmenti qalın divarlı olub, üzəri bir zolaqda cızma üsulu ilə itə bənzər heyvan təsvirləri ilə bəzədilmişdir. Bu it rəsmlərində onların quyruqlarının bellərinə doğru əyilmiş vəziyyətdə göstərilməsi onların çoban iti olduqlarını ehtimal etməyə əsas verir. Şəklin biri tam, digəri isə natamam haldadır. Qabın üzəri yaxşı şüyrələnmiş və üzərinə qırmızı boya çəkilmişdir (şək.2).

Digər küpə tipli qab qırığına isə əvvəlkindən fərqli olaraq, üzərinə basma üsulla bir-birinin ardınca maral təsvirləri vurulmuşdur. Maralların başı aşağıya doğru əyilmiş vəziyyətdədir. Fraqment kiçik halda olduğu üçün təsvirdər natamam haldadır (şək.3). Yəqin ki, bu cür dekorativ naxışları olan küplər xalq içərisində çox yaxşı qiymətləndirilmişdir. Sənətkar nağıllarda söylənən bu və ya başqa bir səhnəni gil qablarda bədii təsvirlər, rənglər və ornamentlərlə verməyə çalışmışdır. Bu təsvirlərdə, adətən, heyvanların bir-birinin ardınca qaçışı və ya adi vəziyyətdə duruşu verilmişdir. A.Qaraəhmədova qeyd edir ki, qədim Gəncədən aşkar edilmiş keramika üzərindəki bu təsvirlərin süjetini qədim dini ayinlərlə bağlamaq və onları qədim tayfaların, həmçinin Qafqaz xalqlarının həyatını əks etdirən təsəvvürləri ilə izah etmək daha məqsədəuyğundur (4,s.99). Təsvir motivləri arsında ixtio-fauna nümu-

nələri də vardır. Kiçik bir fraqmentin üzərində balıq təsvrinə rast gəlirik. Təsvir basma üsul ilə salınmışdır (şək.11). Buna bənzər təsvirlər orta əsr Beyləqan və Gəncə şəhərlərinin boyalı qablarından məlumdur. Orta əsr Beyləqan şəhər yerindən tapılan küpün üzərində də balıq rəsminə təsadüf olunmuşdur. Balıq rəsmi bəzən növbə ilə heyvan rəsmlərini əvəz edir (2,s.77). Maraqlıdır ki, Gəncədən aşkar olunmuş saxsı qab üzərində qızıl balıq, keçi və əlində quş tutmuş insan təsvirini müşahidə etmək olur (5,s.55).

Üzərində balıq rəsmi olan saxsı qab fraqmenti orta əsr Gəncə və Beyləqandan tapılmış qablara oxşardır..

Başqa bir fraqment küpəyə aiddir. Qırmızı boya ilə rənglənmiş fraqmentin üzərində qabarıq ornamental kəmər vardır. Onun üstü həndəsi tor şəklində naxışlar içərisində qabarıq nöqtələrlə bəzədilmişdir. Ornamental kəmərin eni 1,3 sm-dir (şək.4).

Qazıntılar zamanı kassa tipli qab fraqmentinə də rast gəlinmişdir (şək.10). Kasaya içəridən və bayır tərəfdən ağzının kənarına və gövdənin üst hissəsinə qırmızı boya çəkilmişdir.

Tapıntılar arasında üzəri qırmızı boyalı bardaq və ya səhəng tipli qabın fraqment idə vardır. O, gilinə az miqdarda qumm qatılmış yastı oturacaqlı, oturacağa doğru daralan gövdəyə malik dulus çarxında hazırlanmış və sabit hərarətdə bişirilmiş qaba məxsusdur (şək.5).

Orta əsr Şəmkir şəhər yerindən əldə edilmiş tapıntılar içərisində qapaqlar bir nümunə ilə təmsil olunmuşdur. O, diskşəkilli, orta ölçülü qapağın fraqmentidir. Qapaq bikonik formaya malik olub, üstündə mərkəzi hissədə batıq vardır. Onun alt və üst səthinə qırmızı boya ilə zolaq çəkilmişdir (şək.6).

Beləliklə, Azərbaycanda eneolit dövründən məlum olan, tunc dövründə geniş yayılan boyalı qablar istehsalı ənənəsinin (3,s.17) orta əsrlərdə də davam etdiyinin şahidi oluruq. Boyalı qablar istehsalı Aran keramikası o cümlədən, Şəmkir şəhəri üçün xüsusilə səciyyəvi olmuşdur.

## ƏDƏBİYYAT


1. Əhmədov Q.M.Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı,1959
2. Əhmədov Q.M.Örənqala.Bakı,1962
3. Əliyev V. Azərbaycanın tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı, 1977
4. Карахмедова А. Отражение древнего религиозного воззрения в средневековой художественной керамике. // Mingəçevir arxeoloji ekspedisiyasının 60-illiyinə həsr olunmuş elmi konfransın materialları. Mingəçevir, 2006.
5. Джафарзаде И.М. Историко-Археологический очерк Старой Гянджи. Баку, 1949.
6. Левиатов В.И. Украшения на карсах из Старой Гянджи.// Изв.АН.ССР 1945 № 8

# КРАШЕНАЯ КЕРАМИКА СРЕДНЕВЕКОВОГО ГОРОДА ШАМКИР

***Намиг Гусейнли***

***Резюме***

В 2006 году в результате археологических раскопок городища Шамкир, было выявлено значительное количество образцов крашеной керамики. В данной статье эти материалы автором были проанализированы, а также проведены параллели с материалами из других средневековых городов Азербайджана.

В итоге было установлено, что производство крашеной керамики, корнями уходящая в эпоху энеолита и получившая широкое развитие в эпоху бронзы, продолжалось и в эпоху средневековья. Производство крашеной керамики являлось неотъемлемой частью Арранской керамики.

# PAINTED CERAMICS OF SHAMKIR REGION OF MEDIEVAL AGES

***Namiq Huseynli***

***Summary***

An archeological expedition, the aim of which was studying the remains of the medieval town of Shamkir located not far from Mukhtariya village in Shamkir region was organized in 2006. The result of the expedition was the discovery and further survey of 2 meter depth cultural layer. It was found out that the life in the given area had been uninterruptedly continuing from the end of the $8^{th}$ century till the invasion of Mongols. The archeological materials of Shamkir and other medieval towns were mainly represented by both painted and unpainted ceramics.

The author of the article analyzed the sample of the painted ceramics found in Shamkir and drew parallels with the material of the other medieval towns of Azerbaijan. As a result it was shown that the production of painted ceramics dating back to the epoch of neolith and having its booming development in the epoch of bronze continued during the medieval ages as well. The production of painted ceramics was an integral part of Aran school of ceramics.

# ГАРАКЁПЕКТЕПЕ И АНАУ

***Овез Гундогдыев***
*(Государственный Институт культурного наследия народов Туркменистана, Центральной Азии и Востока при Президенте Туркменистана)*



В 2005 г. в журнале «Miras» была опубликована статья известного азербайджанского археолога, профессора Гудрата Исмаилзаде «Памятник тысячелетий» /Miras. – Aşğabat, 2005, № 4, s.96-102/. Речь идет, в основном, о помятнике Гаракёпектепе, расположенном на юго-восточных склонах Малого Кавказа, вблизи г.Физули. обращает на себя внимание то, что азербайджанский памятник представляет собой остатки древнего поселения с сохранившиммися мощным и культурными отложениями нескольких тысячелетий.

Археологические раскопки, проводившиеся под руководством Г.Исмаилзаде, установили, что сходные памятники отмечены и на территории Туркменистана. Не случайно специалисты указывают на то, что именно западные, южные и юго-восточные территории Прикаспия входили в зону первоначального возникновения земледелия. Исследователями прослежено много общего между древнейшей культурой Азербайджана с древнейшими культурами Южного Туркменистана, в частности, неолитической джейтунской культурой (местность Джейтун 20 км к северу от Ашхабада). Установлено, что основу земледельческих культур Азербайджана и Туркменистана составляли земледелие и скотоводство, где земледелие являлось основной формой хозяйства.

Памятники эпохи бронзы в Туркменистане, равно как и в Азербайджане, явились прямым продолжением древних неолитических и энеолитических культур.

Как указывает профессор Г.Исмаилзаде, на многослойном поселении Гаракёпектепе процесс дальнейшего культурного исторического развития земледельческих обществ нашел свое яркое отражение в новых культурах последующих эпох.



Азербайджанские исследователи выявили на памятнике следы плотной каменной застройки и остатки мощной оборонительной стены среднебронзового периода. Подобное прослеживается и в синхронных памятниках Туркменистана.

Весной 2005г. международной Туркмено-американской археологической экспедицией под руководством автора этих строк на Южном холме Анау были вскрыты 5 комнат, стены которых сложены из продолговатого крупноразмерного кирпича на глиняном растворе. Необработанные каменные куски были использованы, скорее всего, позднее для укрепления уже начавших разрушаться сырцовых стен. Однако, каменная кладка по времени относится к II тыс. до н.э. На южной стороне раскопа была расчищена довольно толстая стена, идущая с востока на запад. Снаружи эта стена неоднократно укреплялась необработанными каменными кусками вперемежку с глиной. В эпоху Намазга VI поселение, находившееся на холме Анау, представляло собой укрепленную крепость, внутри которой находились монументальные архитектурные сооружения. Интерес вызывают находки каменных ступ и пестов для размельчения зерен, биконических ядер, костей домашней лошади, бронзового шила, а также зерен пшеницы ак бугдай и ячменя и т.д., датируемых II тыс. до н.э. Эти находки стали первыми экспонатами открытого в Анау великолепного Национального музея Ак бугдай летом 2005 г.

Взглянув на снимки раскопов, произведенных на городищах Гаракёпектепе и Анау, трудно отличить их друг от друга. Исследователям предстоит ещё долгая и кропотливая работа, чтобы выяснить пути взаимопроникновения древних прикаспийских культур.

# QARAKŐPƏKTƏPƏ VƏ ANAU

*Ovez Qundoqdıyev*

*Xűlasə*

Məqalə Xəzəryanı bőlgələrin műhűm arxeoloji abidələrindən olan Qarakőpəktəpə (Azərbaycan) və Anau (Tűrkmənistan) çoxtəbəqəli qədim yaşayış yerlərinin mũqayisəli elmi təhlilinə həsr olunmuşdur. Hər iki abidə mũxtəlif tarixi mərhələləri, o cũmlədən mis-tunc dővrũnũ əks etdirir.

# GARAKOPAKTAPA AND ANAU

*Ovez Gundogdiyev*

*Summary*

The article deals with Garakopaktapa, situated in Azerbaijan, and Anau of Turkmenistan which are archaeologically important monuments of Khazar seaside and gives comparative scientific analysis of these ancient multilayered inhabited areas. Both monuments reflect different historical periods, such as copper and bronze ones.

# İŞĞAL OLUNMUŞ ABİDƏLƏR
# MONUMENTS UNDER OCCUPATION
# ОККУПИРОВАННЫЕ ПАМЯТНИКИ

## QARABAĞIN İŞĞAL ALTINDA QALMIŞ MEMORİAL MUZEYLƏRİ

*Fəxriyyə Həvilova*
*(Bakı Dővlət Universiteti)*

Təəssűflə qeyd olunmalıdır ki, qonşu Ermənistan dővlətinin təcavűzkar siyasəti nəticəsində művəqqəti zəbt olunmuş ərazilərdə yűzlərlə muzey, xatirə- memorial kompleksi, rəsm qalereyası, tarixi-memarlıq abidələri, arxeoloji mədəniyyət ocaqları qalmışdır. Məlum olduğu kimi, işğal altında 500 tarixi –memarlaq və 100-dən çox memarlıq abidəsi, 22 muzey, 4 şəkil qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dővlət teatrı qalmış, işğal nəticəsində tunc dővrűnə aid nadir abidələr yerlə yeksan edilmişdir. Bűtővlűkdə Qarabağ və ətraf rayonların zəbt olunmuş ərazilərində vaxtilə 1640 mədəniyyət obyekti mővcud olsa da, bu gűn onlardan yalnız 542-si fəaliyyət gőstərir. Təəssűflə bildirməliyik ki, 227 tarixi abidədən isə cəmi 15-i dűşmən əlində deyil (7;8).

Məlum olduğu kimi işğal olunmuş və hərbi əməliyyatlar getmiş ərazilərimizdə tarixi-memarlıq abidələri, xatirə-memorial komplekslər və muzey-qoruqlar ciddi zərər çəkmiş, onlardan bir çoxu tamamilə dağıdılmışdır. Bir çox tarixi memarlıq abidələrimizi bədnam qonşularımız őz adlarına çıxarmağa cəhd gőstərirlər. Çoxlu sayda tarixi əhəmiyyət daşıyan yaşayış binaları, műdafiə istehkam qurğuları, məsçidlər, məbədlər, məqbərələr talan edilsmiş, onların daşları sőkűlərək başqa məqsədlə istifadə olunmuşdur.

Ağdam rayonunun Boy Əhmədli kəndindəki YII əsrə aid olan qədim məbəd, Xaçın Dobratlı kəndindəki 1314-cű ildə inşa edilmiş tűrbə, Papravənd kəndindəki kvadratşəkilli məqbərə (XYI əsr), Fizuli rayonunun Babı kəndindəki səkkizűzlű tűrbə (1272-ci il), Əhmədallar kəndindəki səkkizűzlű tűrbə, rayonun Aşağı Veysəlli kəndindəki dairəvi tűrbə (hər ikisi XIY əsrə aiddir), Cəbrayıl rayonunun Şıxlar kəndi yaxınlığındakı dairəvi məqbərə (XY əsr), Xudayarlı kəndindəki kvadratşəkilli tűrbə (XYIII əsr), Xudafərin kəndi ətrafındakı Xudafərin kőrpűləri (XII əsr), Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən səkkizbucaqlı mavzoley (XIY əsr), Əskəran qalası (XYIII əsr), Şuşada Gővhər ağa məsçidi (XYIII əsr) və bir çox digər tarixi memarlıq abidəsi dağıdılmışdır. Şuşa şəhərində Natəvanın, Bűlbűlűn, Ə.Q.Haqverdiyevin, Ű.Hacıbəyovun və başqalarının ev muzeyləri məhv edil-

miş, şəkil qalereyası, Şuşa tarix-diyarşünaslıq muzeyi, Ağdam çörək muzeyi (keçmiş SSRİ-də yeganə), bir çox başqa muzeylər təcavüzə məruz qalmış, yerlə yeksan edilmişdir.

Bildiyimiz kimi, respublikamızın turizm baxımından əsas diqqətə layiq yerlərindən biri də Qarabağ bölgəsi olmuşdur. Qarabağın hər yeri turizm-ekskursiya baxımından maraqlı olsa da, əsas turizm mərkəzi Şuşa şəhəri hesab olunmuşdur. 1977-ci ildən qoruq-şəhər elan edilmiş və dağ iqlim kurortu olan Şuşanın işğalı ilə əlaqədar mədəni irsimizin daşıyıcısı kimi maddi-mənəvi dəyərlərimizin də dünya miqyasında təbliğ olunması yarımçıq qalmışdır.

20-dən artıq muzeyin erməni təcavüzünə uğraması nəticəsində zəngin mədəni irsimizin böyük bir hissəsi dağıdılmışdır. Dağıntılar memorial muzeylərdə də yan keçməmişdir. Azərbaycan xalqının tarixi üçün kifayət qədər əhəmiyyətli hesab olunan memorial muzeylərin işğal altında qalması xalqımız üçün böyük itki hesab olunur.

Ümummilli liderimiz H.Əliyev bu abidələrin milli ənənələrimiz üçün nə qədər əhəmiyyətli olduğunu gənc nəsillərə çatdırmaq və onları bu əraziləri geri qaytarmaq ruhunda tərbiyə etmək üçün memorial muzeylərin lazım olduğunu dəfələrlə vurğulamışdı (2, 75). Bu baxımdan H.Əliyevin vaxtilə söylədiyi bir fikir çox əhəmiyyət kəsb edir: «Hər bir gənc öz kökünə sadiq olmalıdır. Bizim o kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik. Hər bir gəncin həyatda uğurla yaşaması üçün kökünə sadiqliyi ən əsas amildir» (4). Müasir dövrümüzdə bir çox memorial muzeylərin misalında bu tərbiyə prosesini gücləndirmək olar. İşğal altında qalmış bölgələrimizdə açılmış belə istiqamətli muzeylərimizin bir çoxu hal-hazırda «İstiqlal» muzeyində qapalı şəkildə fəaliyyət göstərirlər (7;8). Təəssüf ki, fond materialları tam olaraq mərkəzə çatdırılmamışdır (5).

Şuşadan Bülbülün, Üzeyir Hacıbəyovun, Cəbrayıldan C.Əhmədovun, Füzulidən B.Sərdarovun ev muzeylərinin toplanmış eksponatları onlar haqqında ümumi məlumat verməyə imkan yaradır. Qarabağın işğal altında qalmış bu memorial muzeylərinin işğaldan əvvəlki ekspozisiya quruluşu və müasir vəziyyəti ilə bağlı əldə etdiyimiz materialları ümumiləşdirməyə çalışmışıq.

**Bülbülün ev muzeyi.** 1992-ci ilə qədər Bülbülün Şuşada yerləşən ev-muzeyi onun Bakı şəhərindəki memorial muzeyinin filialı idi. Ev iki otaq və eyvandan ibarət idi. Bülbül bu evdə anadan olmuş və uşaqlıq illərini burada keçirmiş, burada ilk dəfə musiqi aləminə qədəm qoymuş, məşhur xanəndə və musiqiçilərə qulaq asmışdır.

Burada Bülbülün uşaqlıq illərindən bəhs edən şəkillər saxlanılırdı. Muzeydə onun şəxsi əşyalarından bəziləri, o cümlədən onun qavalı da nümayiş etdirilirdi. Divarda Bülbülün 1925-1926-cı illərdəki konsert afişaları asılmışdı. Ekspozisiyada Bülbülün Azərbaycanda 20-ci illərdə Gəncədəki fəa-

liyyəti, mədəni inqilab illərində Azərbaycanda musiqi quruculuğunda fəal iştirakı əks etdirilmişdi. Vitrinlərdə Bülbülün komsomol və həmkarlar ittifaqındakı fəaliyyətindən danışan sənədlərin foto surətləri, Bakıdakı ifaçılıq fəaliyyəti, Azərbaycan Dövlət Konservatoriyasında və İtaliyada təhsili haqqında sənəd və materiallar, italyan jurnalı «Arte Nostra»da Bülbülün böyük portreti və onun haqqında məqalə, dostları və ailəsi ilə şəkilləri nümayiş etdirilirdi. Foto şəkillərlə yanaşı burada Bülbülün əlyazmaları, dərc edilmiş məqalə və məruzələri də var idi (3, 15-17).

İkinci otaqda Bülbülün ailəsi, dostları, həmkarları ilə şəkilləri ekspozisiya edilmişdi. Vitrinlərdə Azərbaycanda yeni vokal məktəbinin yaradılmasında, eləcə də xalq musiqisinin öyrənilməsi və təbliğində Bülbülün çoxillik səmərəli yaradıcı işini təsdiq edən materiallar nümayiş etdirilirdi. Burada Bülbülün iştirak etdiyi opera tamaşalarının afişaları, yaratdığı obrazları, ayrı-ayrı premyera və yubiley tamaşalarından səhnələri əks etdirən şəkilləri, məruzələri, onun iştirak və redaktəsi ilə nəşr edilmiş toplu və dərsliklər, rəsmi məktubların əsli və fotosurətləri göstərilmişdi.

Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedoqoji, ictimai fəaliyyəti haqqında nadir, çox qiymətli sənədlər də burada geniş yer tuturdu. Həmin otaqda Bülbülün əmək adamları, sərhədçilər, uşaqlarla görüşlərinin fotoşəkilləri nümayiş etdirilirdi.

Muzeyin fasadında vurulan memorial lövhələrin arasında Bülbülün heykəltəraş Xanlar Əhmədov tərəfindən bürüncdən yaradılmış uşaqlıq illərinin portreti əks olunmuş və üzərində azərbaycan və rus dillərində yazılmışdı: «Bu evdə Azərbaycan Sovet professional vokal sənətinin banisi, SSRİ xalq artisti, Stalin mükafatı laureatı, professor Bülbül anadan olmuş və uşaqlıq illərini keçirmişdir».

Hazırda Bülbülün Şuşadakı muzeyini və bütövlükdə yaradıcılığını təbliğ edən mərkəzdə, yəni Bakı muzeyində müzakirələrin, müşavirələrin, Bülbülün çıxışlarının stenoqramları, deputat nişanları, elmi əsərləri, parlament qeydləri, seçici məktubları və digər zəngin materiallar nümayiş etdirilir. Muzeydə Bülbülün yaradıcı elmi tədqiqat, pedoqoji, ictimai fəaliyyətini əks etdirən 9 minə yaxın sənəd toplanmış və geniş ictimaiyyətin müzakirəsinə verilmişdir.

Əfsuslar olsun ki, Bülbülün Şuşadakı memorial muzeyi hal hazırda erməni işğalı altındadır və onun müqəddaratı bizlərə məlum deyil. Bütün bu ekspozisiyalar Bülbülün vətəni Şuşada xeyli ətraflı nümayiş etdirilirdi (3, 17). İnanırıq ki, gün gələcək və həmin sözlər ölməz sənətkarın bərpa olunacaq ev muzeyinin önündə təzədən yazılacaq.

**Üzeyir Hacıbəyovun ev muzeyi.** Ü. Hacıbəyovun Şuşadakı ev muzeyi 1959-cu ildə böyük bəstəkarın uşaqlıq illərini keçirdiyi evdə Azərbaycan SSR Elmlər Akademiyası, Azərbaycan tarixi muzeyi, Azərbaycan SSR Mə-

dəniyyət nazirliyi və Respublika musiqi fondu tərəfindən təşkil edilmişdir.

Muzey dőrd otaqda yerləşdirilmişdi. Birinci otaqda Űzeyir Hacıbəyovun həyatının ilk illərinə aid qiymətli materiallar nűmayiş etdirilirdi. Bu eksponatlar istedadlı bəstəkarın tələbəlik illərini və onun inqilabdan əvvəlki yaradıcılıq dővrűnə aid maraqlı hadisələri əks etdirirdi. Burada həmçinin XIX əsrdə Qarabağın təsviri, Űzeyir Hacıbəyovun qohum və ailə űzvlərinin foto-şəkilləri də vardı.

Muzeyin ekspozisiyasında bəstəkarın ilk yaradıcılıq illərinə aid zəngin əşyalar, onun ilk əsərlərinin əlyazmaları qoyulmuşdu. Bu eksponatlar onu bir bəstəkar, yazıçı, dramaturq, publisist, dirijor, alim və pedaqoq kimi xarakterizə edirdi.

İkinci, űçűncű və dőrdűncű otaqlarda olan materiallar Űzeyir Hacıbəyovun sovet hakimiyyəti illərindəki coşğun fəaliyyətini əhatə edirdi. Bu otaqlarda olan çoxlu sənəd, foto-şəkil və şəxsi əşyalar Űzeyir Hacıbəyovun műasir Azərbaycan musiqisinin banisi və Respublikanın gőrkəmli mədəniyyət xadimlərindən biri olduğunu gőstərirdi. Muzeydə maqnitofon vasitəsilə Űzeyir Hacıbəyovun «Koroğlu», «Arşın mal alan», «O olmasın, bu olsun», «Leyli və Məcnun» və s. əsərlərindən musiqi parçaları ifa etdirilirdi. Burada istər yerli, istərsə də Şuşaya gələn bűtűn qonaqlar dahi bəstəkar Űzeyir Hacıbəyovun qiymətli əsərləri ilə tanış olurdular (6,6).

Bu illərdə bőyűk nəğməkarımız Bűlbűlűn, eləcə də, dahi sənətkarlarımız Űzeyir Hacıbəyov və Natəvanın erməni vəhşiləri tərəfindən gűllələnmiş heykəlləri Bakıya gətirildi (3,18). Hazırda həmin heykəllər İncəsənət muzeyinin həyətində yerləşdirilib. İnanırıq ki, yaxın gələcəkdə onlar yenidən Şuşaya qaytarılacaq.

**Cəmil Əhmədovun ev muzeyi.** II Dűnya műharibəsində ən yűksək fəxri ad- Sovet İttifaqı Qəhrəmanı adını almış azərbaycanlılardan biri Cəmil Məhəmməd oğlu Əhmədov 1944-cű ilin 6 oktyabrında Pinsk şəhərinin azad olunması uğrunda gedən dőyűşdə həlak olmuşdur. 1985-ci ilin may ayında Qələbənin 50-illik yubileyi műnasibəti ilə Cəbrayıl rayonunda, Cəmil Əhmədovun ev muzeyinin açılış mərasimi keçirilmişdi. Xatirə muzeyi hőkumətin qərarı ilə 3 otaqlı, geniş həyətyanı sahəsi olan binada yerləşdirilmiş, 1988-ci ildə C.Əhmədovun xatirə kompleksinin yaradılmasına qərar verilmiş, onun heykəli isə Őmər Eldarov tərəfindən hazırlanmışdır (1,70). Muzeyin açılışında Cəbrayıl rayonunun ziyalıları, Bőyűk Vətən műharibəsi veteranları, o cűmlədən Bakıdan gəlmiş qonaqlar da iştirak etmişdilər. Muzey őz fəaliyyətinə 500-ə yaxın eksponatla başlamış, sonradan bu eksponatların sayı 800-ə çatdırılmışdı. Muzeyin ekspozisiyası A.Nevski ordenli, Sovet İttifaqı Qəhrəmanı S.M.Əhmədovun hərbi-vətənpərvərlik fəaliyyəti haqqında ətraflı məlumat yarada bilirdi. Muzeydə saxlanılan eksponatların çoxu nadir hesab olunurdu. Burada əsgər məktubları, hərbi geyimli şəkillər, őzűnűn yazdığı

şerlər, avtoqrafları, əsgər paltarı, «Sovet İttifaqı Qəhrəmanı» - diplomu, o cümlədən onun 29.09.44-cü il tarixli sonuncu məktubu da saxlanılırdı.

C.Əhmədov bütün SSRİ-də yeganə şəxsiyyət idi ki, 20 yaşında alay (rota) komandiri və Sovet İttifaqı qəhrəmanı olmuşdu. Belə bir şəxsiyyətin xatirə muzeyi Cəbrayıl rayonunun diyarşünaslıq muzeyinin filialı kimi fəaliyyət göstərmiş və məlum hadisələrə görə 1993-cü ildə öz fəaliyyətini dayandırmışdır.

Doğulduğu torpaqdan çox uzaqlarda uyuyan C.Əhmədovun Polşada, Gəray Əsədovun Rumıniyada, Qara dəniz sahillərində Qafur Məmmədovun xatirəsi, bizim xalqımızın dünyanın nəcib, insansevər, sülhsevər xalq olduğunun göstəricisidir. Ancaq çox təəssüf ki, bu gün C.Əhmədovun doğulub boya-başa çatdığı ana torpağı Qarabağ - Cəbrayıl düşmən tapdağı altındadır. Onun xatirə muzeyindən isə çox az sayda eksponat Bakıya gətirilərək Muzey mərkəzində- İstiqlal muzeyində qapalı şəraitdə saxlanılır. Məhz belə bir muzeyin bərpası isə bu günümüzün ən vacib məsələsi olmalıdır.

**Bünyad Sərdarovun ev muzeyi.** Fizuli rayonun Qarğabazar kəndində doğulub (1888-1919) boya-başa çatmış bolşevik Bünyad Sərdarovun yaşadığı evdə 1985-ci ilin yanvar ayında xatirə-ev muzeyi açılmışdır. Bu muzeyin 500-dən çox eksponatı olmuşdur. Bu eksponatlar içərisində Bakıdan, Həştərxandan gətirilmiş sənədlər, foto şəkillər üstünlük təşkil edirdi. Muzeyin sərgi otağında Bünyad Sərdarovun oğlu- Lahiyə İnstitunun direktoru olmuş Sərdar Sərdarov və onun nəvələri haqqında da materiallar toplanılmışdı.

Muzey sahəsi 60 kv.m. olan üç otaqdan təşkil olunmuşdur. Muzeyin bir xatirə otağı, iki sərgi otağı, bir foyesi və böyük həyətyanı sahəsi var idi. Bağda Bünyad Sərdarovun heykəli də qoyulmuşdu. Hal-hazırda erməni işğalı ilə əlaqədar olaraq muzey o biri qaçqın muzeylər kimi Bakıdakı «İstiqlal» muzeyində qapalı şəraitdə yerləşdirilmişdir. Bakıya muzeyin 250-yə yaxın eksponatı gətirilmişdir.

Bütövlükdə, Qarabağın işğal altında qalmış memorial muzeylərinin yenidən bərpa olunması, az sayda olsa da, eksponatlarla fəaliyyətini davam etdirməsi mədəni irsimizin qorunmasına xidmət edə bilər. Bərpa edilmiş belə muzeylərə gənclərin və xarici qonaqların diqqətini cəlb etmək, dünya ictimaiyyətinə itkilərimizin bizim xalq üçün nə dərəcədə əhəmiyyətli, ağrılı olmasını bir daha göstərmək bugünkü vəziyyətimizdə xüsusi əhəmiyyət kəsb edir.Biz inanırıq ki, yaxın gələcəkdə bu muzeylər öz yerlərinə qaytarılacaq və həmin bölgələrdə canını vətən yolunda qurban vermiş şəhidlərimizin yeni-yeni memorial muzeyləri açılacaqdır.

## ƏDƏBİYYAT

1. Abbasov T. Ana nigaran qalma...Bakı, Gənclik, 1993.
2. Bayramov A. Heydər Əliyev və muzeylərimiz. Bakı, 1999.

3. Bülbülün xatirə muzeyi. Bakı, Gənclik, 2006.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar, qeydlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab, Azərnəşr, 1997.
5. Ələsgərova G. Qovuşan muzeylər // Mədəni-maarif №5, 2002, s. 16-17.
6. Şuşada Ü.Hacıbəyovun ev muzeyi, Bakı, 2003.
7. www.uzeirbey.aznet.orq/muze.html.

## ОККУПИРОВАННЫЕ МЕМОРИАЛЬНЫЕ МУЗЕИ КАРАБАХА

***Фахрия Гавилова***

***Резюме***

Статья посвящена мемориальным музеям Карабаха. В связи с армянской оккупацией огромное количество памятников богатого культурного наследия азербайджанского народа было разрушено. Сегодня мемориальные музеи Карабаха продолжают свою деятельность в музее «Истиглал» в Баку. Собранные экспонаты мемориальных музеев из Шушы Бюль-Бюля, Узеира Гаджибекова, из Джебраиля Джамила Ахмедова, из Физули Бунията Сардарова малочисленны. Несмотря на это, эти мемориальные музеи должны продолжать свою деятельность, чтобы мы смогли сохранить и развивать культурное наследие Азербайджана.

## MEMORIAL MUSEUMS OF KARABAGH OCCUPIED BY ARMENIA

***Fakhriya Havilova***

***Summary***

This article is devoted to memorial museums of Karabagh. Today Karabagh is occupied by the Armenian invaders. It is doubtless that in the near future our lands will be liberated. Memorial museums of Karabagh are occupied and destroyed by the Armenian invaders.

At the moment, materials of the memorial museum of Bulbul, U.Hajibayov from Shusha, J.Ahmadov from Cabrail, B.Sardarov from Fuzuli are located in the museum of "ISTIGLAL".

As the culture of future is created on the cultural heritage of the past, Memorial museums must continue their activities, for protection and development of the cultural legacy of Azerbaijan. We believe that in the near future these museums will be returned to Karabagh.

# ELM TARİXİ
# HISTORY OF SCIENCE
# ИСТОРИЯ НАУКИ

## Ə.ƏLƏKBƏROVUN ÖRƏNQALA ŞƏHƏR YERİNDƏKİ ARXEOLOJİ QAZINTILARI BARƏDƏ

*Könül Əsədli*
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

SSRİ Elmlər Akademiyası Azərbaycan filialının elmi əməkdaşları 1933-cü ildə İ.İ.Meşşaninovun rəhbərliyi altında Mil düzündə qədim şəhər yeri olan Örənqalanın xarabalıqlarını tədqiq etmişlər. Bu birinci ekspedisiya aydınlaşdırmışdır ki, erkən dövrlərin birində şəhər ölçülərinə görə böyük olub, indi tədqiq edilən şəhər yerinin ərazisini bütünlüklə əhatə etmişdir. Sonralar görünür ki, iqtisadi və siyasi mərkəz rolunu itirəndən sonra şəhər ərazisi kiçilmiş və yeni divarlar hörüləndən sonra köhnə şəhərin yalnız bir hissəsi yeni şəhərin ərazisinə daxil olmuşdu. Köhnə şəhərin qalan hissəsi isə şəhər divarlarının xaricində qalaraq tədricən dağılmışdı. Yeni şəhərin daş divarları dağıldıqdan sonra şəhər ətrafındakı müdafiə işləri torpaq sədd çəkməklə aparılır (2, 64). Ekspedisiyanın məlumatına görə yeni şəhərə aid olan mədəni təbəqə dağıntıya məruz qaldığından Örənqalanın bu hissəsindəki 1933-cü il qazıntıları stratiqrafiyanı dəqiq müəyyən etməyə imkan verməmişdi. Buna baxmayaraq Örənqala şəhər yerindən tapılmış Rey keramikasının ayrı-ayrı nümunələri və çoxlu miqdarda mis sikkələr göstərir ki, şəhərin çiçəklənmə dövrü səlcuq və monqol işğalları (XII-XIV əsrlər) dövrünə təsadüf edir (2, 65). Qeyd etmək lazımdır ki, monqol işğalları dövrü dedikdə, Hülakular dövrü nəzərdə tutulur. Belə ki, ilk monqol hücumları zamanı şəhər güclü dağıntıya məruz qalmış, uzun zaman dirçələ bilməmişdi.

İkinci dəfə Örənqalada arxeoloji qazıntı işləri Ə.Ələkbərovun rəhbərliyi altında 1936-cı ildə aparılmışdır. Qazıntıların nəticəsi olaraq şəhərin təxmini planını cızmaq və bəzi yerlərdə mədəni təbəqələrin xarakteristikasını vermək mümkün olmuşdu.

Mil düzünün böyük, düzənlik sahəsində geniş təpələr qrupu yayılmışdır. Burada, şimal-qərb tərəfdə, 15 m hündürlükdə elə bil ki, çərçivəyə alınmış, qədim şəhər yeri mövcuddur. Qədim şəhər yeri və təpələrin ümumi ərazisi 10 km$^2$, şəhərin ərazisi isə ayrılıqda 2-3 km$^2$ təşkil edir (2, 64).

Sonralar Q.M.Əhmədov öz tədqiqatlarında şəhər yerinin tutduğu ərazinin nisbətən böyük, mədəni təbəqənin isə daha qalın olduğunu göstərmişdir.

O yazır: «Örənqala şəhər yeri Mil düzündə – Beyləqan rayon mərkəzindən təxminən 17 km şimal-qərbdə yerləşir. O, hər tərəfdən düzənliklə əhatə olunmüşdür. Örənqala şəhər yerinin hazırkı ərazisi, təxminən 36 hektardır. Bu sahə yerin adi səthindən 5-6 m hündür olan təpələrlə, təpələrin ətrafı isə 1-2 m dərinliyində və 10-15 m enində xəndəklərlə əhatə olunmuşdur. Şəhərin içərisindəki sahədə müxtəlif dövrlərdə maddi mədəniyyət qalıqlarından əmələ gəlmiş mədəni təbəqənin qalınlığı düzənliyin adi səthindən 3-4 m və bəzi yerlərdə daha çox yüksəklikdədir. Şəhərin bütün ərazisini düzbucaqlı şəkildə olan uzun təpələr dövrəyə alır» (3, 6).

1936-cı ildə Örənqaladakı qazıntı işləri yeni şəhər yerində deyil, onun kənarında – yaxınlıqdakı təpələrin birində aparılmışdı. Qazıntı işləri aparılan sahədə mədəni təbəqə dağılmamışdı və gözlənilməz nəticə vermişdi (2, 65). Ə.Ələkbərov 1936-cı il qazıntıları haqqında yazır ki, qazıntı işlərini biz təpələrdəki ümumi sahəsi 200 $m^2$ olan üç meydançada aparmağa başladıq. Təpələrdə aparılan qazıntılar göstərdi ki, bu üç meydançada yerləşən mədəni təbəqələr oxşardır. Hər bir meydançada birinci yarım metr dərinlikdən kərpic qarışıq torpaq qatı, bunun ardınca isə divarları müxtəlif ölçülü kərpiclərlə hörülmüş tikilinin qalıqları üzə çıxmışdı. İkinci və üçüncü təbəqələrdən eyni ölçülü (21x21x4 sm) kərpiclərlə daha ustalıqla hörülmüş tikinti qalıqları aşkar edilmişdir. (2, 68). Dördüncü təbəqədən yarım metr hündürlüyü olan, kərpicdən tikilmiş pilləkən qalıqları tapılmışdı. Ə.Ələkbərov yazır ki, pilləkən qalıqlarının aşkar edilməsi burada nə vaxtsa iki mərtəbəli ev olduğunu göstərir. 3 m dərinlikdə yerləşən beşinci təbəqədən hansısa iri tikilinin küncləri aşkarlanmışdı. Bu tikilinin divarlarının hörgüsündə 35x35x5 sm ölçülü bişmiş kərpiclərdən istifadə olunmuşdur. Kərpic divarların möhkəmliyi üçün bərkidici məhluldan istifadə edilmişdir (2, 68).

Birinci dörd təbəqədə aşkar edilmiş evlərin bünövrəsi yaxşı qalmışdır. Kərpicdən arakəsmə divarları olan, kiçik otaqlardan, mətbəx və təndirlərdən ibarət olan tikili daxili planına görə feodal şəhərləri üçün xarakterikdir. Ə.Ələkbərov tikinti materialları və bina qalıqlarından başqa buradan çoxlu miqdarda keramika nümunələri tapıldığını qeyd edir. (2, 68-69).

Şəhər yerinin yuxarı hissəsində də xeyli keramika aşkar edilmişdi. Lakin keramikanın müxtəlifliyini diqqətlə təhlil edən Ə.Ələkbərov bu keramika nümunələrinin ayrı-ayrı mədəni təbəqələrə məxsus olduğunu qeyd edir. İkinci və üçüncü təbəqələrə aid keramika iri, kobud rəsmlərlə bəzədilmiş, ala-bəzək qamma, məsələn, bənövşəyi və tünd yaşıl rənglərdən ibarət, çox da təkmilləşmiş formada olmayan qalın divarlı gil qablardan ibarətdir. Tapılan keramika nümunələri arasında Rey tipli qabların ayrı-ayrı parçaları da vardır ki, Ələkbərov bu qabların buraya tikinti işləri zamanı aşağı təbəqələrdən qarışdığını yazır (2, 69).

Ə.Ələkbərov qazıntılar zamanı 160-170 sm-dən 250 sm-dək dərinlikdən

gildən hazırlanmış qəndilin ayrı-ayrı parçalarının iki topasını aşkarladıqlarını yazır və göstərir ki, bu keramika yığnağı (trizna) evin içində deyil, onun xaricində – çoxlu inşaat zibilinin içərisində tapılmışdır. Bu onu göstərir ki, tapılmış keramika parçaları daha alt təbəqələrə aiddir. Lakin bu alt təbəqələr bizim tərəfimizdən hələ qazılmamışdır. Bu təbəqədən həmçinin Kufi yazılı inşaat bəzəyinin və basma naxışlı keramikanın ayrı-ayrı parçaları da üzə çıxarılmışdır. Təbəqənin yuxarı hissəsindən isə Eldənizlərə (XII əsrin sonu – XIII əsrin əvvəlinə) aid xeyli miqdarda mis pullar tapılmışdır. Müəllif haqlı olaraq göstərir ki, Rey tipli keramika bir qədər erkən dövrə aiddir (2, 69).

Ə.Ələkbərov aşkar edilmiş Rey tipli keramika fraqmentlərinin fövqəladə müxtəlifliyini, işlənmə texnikasına görə zənginliyini və onların nəbati naxışlarla bəzədildiyini göstərmişdir. Bundan başqa üzərində insan, quş və mifik heyvan şəkli olan qablar da aşkar edilmişdi. Qabların birinin daxili hissəsində oturmuş qadın şəkli çəkilmişdir. Qabların xarici hissəsinə isə ərəb yazılarına oxşar bəzəklər vurulmuşdur. Lakin fraqmentlərin hamısı əldə olunmadığından bu yazıları oxuyub aydınlaşdırmaq mümkün olmamışdı (2, 69). Bu təbəqədən qırmızı gildən hazırlanmış və basma naxışlarla bəzədilmiş qab da tapılmışdır. Qabın üzərində yüksək ustalıqla ağac və heyvan rəsmləri çəkilmişdir. Belə qabların parçaları xeyli miqdarda şəhər yerinin yuxarı hissəsində tapılmışdı. Bu qabların üzərindəki rəsmlər əsasən həndəsi naxışlar və itin dovşanı qovması səhnəsindən ibarətdir (2, 69).

Yuxarı təbəqələrdən tapılmış üçüncü tip keramika bir qədər kobud hazırlanmışdır. Bu tip gil qabların üzərində ənənəvi qrifon rəsmi var və qabın alt hissəsinə basılmış möhür isə görünür dulus emalatxanalarına aiddir. Möhürləri nəzərdən keçirərkən onların arasında təkrara da rast gəlmək mümkündür. Eyni möhürə malik qabların daxili hissəsinin ornamentikasında və rənglərin seçimində ümumi cəhətlər vardır. Ə.Ələkbərov qeyd etmişdir ki, qabların möhürlərini nəzərdən keçirməklə onların harada istehsal olunduqlarını aydınlaşdırmaq olar (2, 70). Qeyd edək ki, hələ İ.İ.Meşşaninovun Örənqalaya olan birinci ekspedisiyası zamanı müəyyən olunmuşdur ki, aşkar edilən gil qablar elə yerli istehsalın məhsuludur. Beləliklə, Örənqala şəhər yerinə olan ikinci ekspedisiyanın nəticələri belə deməyə imkan verir ki, üçüncü şəhər hesab edilən yer Örənqalanın şəhər kənarı sənətkarlıq məhəlləsidir. Ə.Ələkbərov qazıntı zamanı tapılan bol keramika məmulatının da məhz bu sənətkarlıq məhəlləsində istehsal olunduğu mülahizəsini irəli sürmüşdür (2, 70).

Ekspedisiya qədim şəhər yerindən şərqə tərəf 200 m aralıda olan təpələrdən birində kəşfiyyat xarakterli qazıntı işləri də aparmışdır. Burada Örənqala şəhər yerindəki üçüncü təbəqədə aşkar edilmiş yaşayış kompleksinə oxşar daha bir yaşayış kompleksi tədqiq edilmişdir. Məlumdur ki, şəhərin xaricində aparılan bundan əvvəlki qazıntılar zamanı məqbərə qalıqları da tapılmışdı. Ə.Ələkbərov bu fakta əsasən qəbristanlığın şəhər yerinin xaricində

mővcud olması fikrini irəli sűrműşdű (2, 70). O, Őrənqala şəhər yeri ətrafındakı tikililər haqqında yazır ki, şəhər yalnız qala divarları ilə hűdudlanmır, bunlarla yanaşı şəhərin kənarında ayrı-ayrı qəsəbələr də yerləşmişdi (2, 70).

Yuxarıda qeyd etdiyimiz kimi Ə.Ələkbərov qazıntı sahəsində feodallara və varlı şəhərlilərə aid ev qalıqlarını tədqiq etmişdi. İstedadlı alim bunlardan başqa aşkar edilən kiçik həcmli evlərin isə sənətkarlara məxsus olması műlahizəsini irəli sűrműşdűr (2, 68).

Ə.Ələkbərovun Őrənqala şəhər yerində apardığı arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, qazıntı sahəsinin műxtəlif təbəqələrindən əldə edilən maddi mədəniyyət qalıqlarının əsas hissəsi keramika nűmunələrindən ibarətdir. Qeyd edilməlidir ki, keramika istehsalı feodal Azərbaycanında sənətkarlığın əsas sahələrindən biri olmuşdur (1, 11). Ə.Ələkbərovun apardığı arxeoloji qazıntılar və onların nəticələri bőyűk marağa səbəb olmuş və Őrənqalanın fundamental tədqiqinə yol açmışdır.

Őrənqalada űçűncű arxeoloji qazıntını İ.M.Cəfərzadənin rəhbərliyi ilə 1951-ci ilin yanvar ayında Azərbaycan SSR EA Tarix İnstitutunun təşkil etdiyi ekspedisiya aparmışdır. Bu qazıntılar zamanı, Kiçik şəhərin şimal-qərb xəndəyi Bőyűk şəhərin şimal-şərq divarını űzdə deyil, dərindən kəsdiyi műəyyənləşdirilmiş və həmin divarın ilk dəfə saman qarışıq çiy kərpicdən, sonra isə mőhrədən tikildiyi aydınlaşdırılmışdır (3, 35).

1953-1957-ci il qazıntıları SSRİ EA Arxeologiya İnstitutunun Leninqrad bőlməsi ilə Azərbaycan SSR EA Tarix İnstitutunun 1953-cű ildə təşkil olunmuş birgə ekspedisiyası tərəfindən aparılmışdır. A.A.İessenin rəhbərlik etdiyi bu ekspedisiya Őrənqalada űç yerdə qazıntı aparmışdır: 1) Kiçik şəhər ərazisində (I sahə), 2) Bőyűk şəhərin qala divarları yanında (II sahə), 3) Şəhərin sənətkarlar məhəlləsində (III və IV sahələr).

1953-1957-ci illərin qazıntıları nəticəsində əldə edilmiş materiallar şəhərin műxtəlif inkişaf dővrləri haqqında műəyyən fikir yűrűtməyə imkan vermişdir (3, 35-36).

1957-ci ilin yazından Őrənqalada qazıntı işləri A.L.Yakobson və N.V.Minkeviç-Mustafayeva tərəfindən aparılmışdır. Qazıntı sahəsi 150 m$^2$-lik ərazini əhatə edirdi. Ekspedisiya əldə edilən keramika məmulatının őyrənilməsini davam etdirərək qazıntı zamanı aşkar edilmiş maddi mədəniyyət nűmunələrinin bizim eranın V-VI əsrlərinə aid olduğunu műəyyən etmişdi (6, 6).

1957-ci il qazıntıları Őrənqalanın Kiçik şəhər adlanan hissəsində şəhərin maddi mədəniyyətinin tədqiqi űçűn lazımlı material əldə etmişdi. Buradan tapılan keramikanın çox hissəsi IX-X əsrlərə aiddir. Aşkar edilmiş keramika məmulatına əsasən IX-X əsrlərdə Beyləqanda dulusçuluq sənətinin inkişaf etdiyini sőyləmək olar (9, 14).

Őrənqala şəhər yerinin cənub-qərb tərəfindəki qazıntılar orta əsr Azərbaycan şəhəri Beyləqanda dulus istehsalı ilə bağlı yeni faktlar aşkar etmişdi.

Belə ki, 0,2-1,0 m dərinlikdə külli miqdarda şirli və sadə keramika qalıqları aşkarlanmış, sadə keramikaya xas olan dar boğazlı və dőrd lüləkli küp qırıqları, fincan, çıraq, nimçə, üzərində yarpaq şəkilli mőhürü olan qapaq və s. əldə edilmişdi (7, 44-45).

1958-ci ildə V.P.Fomenko tərəfindən Őrənqalada məqbərə qalıqları üzə çıxarılmışdı. Məqbərənin kvadrat planda olan kürsülüyünün őzülü və ağ rənglə suvanmış otağın dőşəməsinin qalıqları salamat qalmışdı. Məqbərənin kürsülüyünün şimal və cənub divarlarının uzunluğu müvafiq olaraq 6,0-5,80 m, qərb və şərq divarlarının uzunluğu isə 5,60 və 5,80 m təşkil edirdi. Dairəvi dőşəmənin diametri 4,70 m. őlçüdədir. Məqbərəyə giriş şimal-qərb tərəfdəndir. Məqbərənin əsas tikinti materialı kvadrat, düzbucaqlı və üçbucaqlı formalarında olan bişmiş kərpiclərdən ibarətdir. Gőrünür bu kərpiclər Őrənqala şəhər yerinin xarabalıqlarından gőtürülmüşdür (8, 47).

F.İ.İbrahimov tərəfindən Beyləqanda aparılan qazıntı işləri zamanı xeyli metal məmulatı (mis və tunc) tapılmışdır. Əldə edilən maddi mədəniyyət nümunələri əsasında müəyyənləşdirilmişdir ki, orta əsr ustaları metal əşyaların naxışlanmasında əsasən, həndəsi və nəbati ornamentlərdən istifadə etmişlər (5, 273).

Beyləqanın qala darvazasını tapmaq məqsədilə 1962-1967-ci illərdə burada qazıntı işləri aparılmışdır. Qala darvazası Őrənqalanın «Bőyük şəhər» adlanan hissəsinin şimal-qərb qala divarlarının təxminən ortasında yerləşir. Qazıntılardan aydın olmuşdu ki, darvazanın şimal-şərq bürcü orta hissədə 28x28x6 sm őlçüdə çiy kərpiclərlə hőrülmüşdür. Burada őlçüləri 26x26x6 sm olan tək-tək bişmiş kərpiclərə də təsadüf olunur. Bürcün mőhrə ilə hőrülən hissələri də vardır (4, 131). Darvazanın cənub-qərb bürcü qazıntının qərb hissəsində aşkar olunmuşdur. Bu bürc formasına və tikinti üslubuna gőrə darvazanın şimal-qərb bürcü ilə oxşardır. Hər iki bürcün üz divarındakı batıqlar, ornamentlərin eyniliyi onların bir vaxtda tikildiyini gőstərir (4, 133).

Őrənqala şəhərinin adına gəlincə Ə.Ələkbərov Paytakaran, Beyləqan və Bilaqanın eyni şəhərin adı olduğunu ehtimal etmişdir. O, qeyd etmişdir ki, fars müəlliflərinə gőrə Őrənqala şəhər yerinin altında Bilaqan gizlənir. Bunu vaxtilə Azərbaycan tarixçisi A.Bakıxanov da təsdiq etmişdi. Bundan başqa digər fars müəlliflərinin mülahizələrinə gőrə Teymur Mil düzündə Őrənqala gőrünüşdə Bilaqan divarları hőrdürmüşdür (2, 67).

Ə.Ələkbərov Őrənqala adının etimologiyasının «Uran qalası» olduğunu ehtimal etmiş və gőstərmişdir ki, bu qədim sőz Aran adının transformasiya olunması nəticəsində yarana bilər. Paytakaran adı da, həmçinin, Aran sőzünün transformasiyası nəticəsində yaranmışdır (2, 67-68).

Q.M.Əhmədovun qənaətincə, Őrənqalanın hansı şəhərin xarabalıqları olması məsələsi ancaq 1955-ci ildə həll edilmişdir. Belə ki, həmin ildə Őrənqala şəhər yerinin sənətkarlar məhəlləsində qazıntı zamanı əldə edilən ma-

teriallar içərisində bir ədəd bűtőv və dőrd ədəd istehsalat tullantısı olan şar-konusvarı qab parçası tapılmışdır. Bu qab parçalarının űzərinə vurulmuş kiçik mőhűrlərin içərisində ərəbcə «Fəzlun Beyləqanda hazırlamışdır» sőzləri yazılmışdır. Bu qab parçalarının istehsalat tullantısı olması (yəni yerli istehsalın məhsulu olması), Őrənqalanı Beyləqan şəhərinin xərabələri hesab edən tarixçilərin fikrini qəti şəkildə təsdiq etmişdir (3, 13-14).

Yuxarıda biz qədim Őrənqala şəhər yerindəki Ə.Ələkbərovdan sonrakı arxeoloji tədqiqatların qısa təhlilini verdik və belə nəticəyə gəldik ki, sonrakı tədqiqatlar dolğun və faktiki materiallarla daha da zəngin olmaqla bərabər, əsil elmi konsepsiya ilə də diqqəti cəlb edir. Azərbaycan arxeoloqlarının Őrənqalada apardığı arxeoloji qazıntılar Ə.Ələkbərovun bir çox műlahizələrinin dűzgűn olduğunu gőstərmişdir. Őrənqala şəhər yerində Ə.Ələkbərovun apardığı arxeoloji qazıntı işləri bu abidədə sonralar tədqiqat aparmış arxeoloqlar űçűn műhűm əhəmiyyətə malik olmuş, onlar Ə.Ələkbərovun bir çox elmi nəticələri ilə razılaşmışlar.

## ƏDƏBİYYAT


1. Агамалиева С.М. Гончарство Азербайджана (Историко-этнографическое исследование). Баку, 1987.
2. Алекперов А.К. Раскопки Оренкалы. Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960, с.64-70.
3. Əhmədov Q.M. Őrənqala (Qısa tarixi-arxeoloji oçerk). Bakı, 1962.
4. Əhmədov Q.M., İbrahimov F.Ə. Beyləqanın şimal-qərb qala darvazası haqqında. Azərbaycanın maddi mədəniyyəti, 1980, IX c., s.131-138.
5. Ибрагимов Ф.И. О художественной обработке металла из Байлакана (IX-XIII вв.) .Материальная культура Азербайджана, 1973,Т-VII, с.271-276.
6. Иессен А.А. Азербайджанская археологическая экспедиция в 1956-1960 гг . Труды Азербайджанской археологической экспедиции, 1965, № 125, с. 5-9.
7. Минкевич-Мустафаева Н.В. Раскопки ремесленного квартала на юго-западной окраине Байлакана в 1956-1958 гг. (Раскопка IV). Труды Азербайджанской археологической экспедиции, 1965, Т-III. Материалы и исследования по археологии СССР, № 133, с. 26-46. 1994.
8. Фоменко В.П. Раскопки мавзолея и некрополя близ городища Орен-Кала в 1958 г (Раскопка III). Труды Азербайджанской археологической экспедиции, 1965, Т-III. Материалы и исследования по археологии СССР, № 133, с.47-55.
9. Якобсон А.Л. Археологические исследования на городище Орен-Кала в 1957 г. Средневековые памятники Азербайджана. Труды Азербайджанской археологической экспедиции, 1965, Т-III. Материалы и исследования по археологии СССР, № 133, с.9-25.

# ОБ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПКАХ А.АЛЕКПЕРОВА НА ГОРОДИЩЕ ОРАНКАЛА

***Кёнул Асадли***

***Резюме***

В статье анализируются результаты археологических раскопок, проведенных А.Алекперовым на городище Оранкала и образцы материальной культуры. Раскопки на городище Оранкала и сравнительный анализ археологических находок сыграли значительную роль в дальнейших исследованиях этого уникального памятника.

# ON THE ARCHAEOLOGICAL INVESTIGATIONS BY A.ALAKPEROV IN ANCIENT SETTLEMENT ORANGALA

***Konul Asadli***

***Summary***

In this paper, we have provided information about the archaeological investigations conducted by A.Alekperov in Orangala, an ancient urban place, and the substantial samples of culture which he discovered as the result of these investigations. The talented scholar's excavations and investigations in the urban place, as well as the variety of the written data provided by him demonstrate the importance of the source.

# KÖMƏKÇİ TARİXİ FƏNLƏR
# SUBSIDIARIES
# ВСПОМОГАТЕЛЬНЫЕ ДИСЦИПЛИНЫ

## ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA OYUN VƏ ƏYLƏNCƏLƏR
## (XII – XIV əsrlər materialları əsasında)

*Əsgər Əhməd*
*(Bakı Slavyan Universiteti)*

Azərbaycan xalqı hələ qədimlərdə yüksək mənəvi mədəniyyət nümunələri yaratmış və əsrlər boyu yaşatmışdır. Bütün dövrlərdə «xalq oyunları etnik-mədəni sistem daşıyıcılarının gündəlik yaşayış tərzləri ilə hər zaman sıx bağlılıqda olmuş və onun aparıcı istiqamətlərini özündə əks etdirmişdir» (19, s. 66).

Azərbaycan xalqının mənəvi mədəniyyətində müəyyən yer tutan oyun və əyləncələr orta əsrlərdə xalqın həyatında mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, onlar orta əsrlərdə xalqın məişətinin bir parçasına çevrilmiş, toy və bayramların əvəzolunmaz tərkib hissəsi olmuşdur. Bu isə insanlar arasında münasibətlərdə mühüm rol oynamışdır. Bəzi oyunlar dəyişilmiş şəkildə də olsa, əsrlərin sərhəddini aşıb gələrək bu günümüzdə də davam etdirilir. Bəzi oyun və əyləncələr isə yalnız orta əsrlərin zaman kəsiyində əriyib yox olmuşdur.

Hər bir cəmiyyətin özünəməxsus oyun və əyləncələri olmuşdur. Qeyd etməliyik ki, oyun və əyləncələr Şərq ölkələrinin əksəriyyətində geniş yayılmışdı. Oyun və əyləncələr hər bir xalqın məişət tərzi ilə bilavasitə əlaqədardır. Məzmunu rahatlığın təminindən ibarət olan oyun və əyləncələr mövcud şərait ilə şərtlənir. Onlar insanlar arasında münasibətləri müəyyən qədər nizama salır, xüsusən də dərdi qəmi unutmaq üçün mühüm vasitədir. Oyun və əyləncələr insanların əhval - ruhiyəsini yaxşılığa doğru dəyişməyə xidmət edir. Hətta orta əsrlərdə xarici ölkələrdən gələn qonaqlar belə bu cür oyun və əyləncələrə dəvət olunur və bilavasitə iştirakçısına çevrilirdilər.

Orta əsrlərin XII – XIV əsrlərində oyun və əyləncələr haqqında məlumatlarımızın mənbəyini əsasən orta əsr müəlliflərinin əsərləri, arxeoloji qazıntılar və muqayisəli təhlil aparmaq üçün sonrakı dövrlərin miniatür sənəti nümunələri təşkil edir.

Orta əsr müəlliflərinin əsərlərində oyunlar haqqında məlumatlar bir o qədər də geniş deyildir. Çünki həmin müəlliflər bunu təsvir etməyi qarşılarına məqsəd qoymamışdılar. Belə məlumatları əldə etmək üçün orta əsrlərdə yazıb yaradan şairlərimizin və alimlərimizin əsərlərinə müraciət etmək olar, çünki bir sıra oyunlar haqqında məlumatları yalnız onlar vermişlər. Bəzi oyunların isə mənbələrdə sadəcə olaraq adları çəkilir. Bu da həmin vaxtlar onların icra olunduğunu söyləməyə əsas verir.

Oyun və əyləncələrdən bəhs etməzdən əvvəl onları mahiyətinə görə ayırd etmək lazımdır. Belə ki, bir sıra oyunlar idman xarakterli mahiyyətə malikdir. Onların da növləri vardır. Məsələn, qaçış, atla və ya atsız oynanılan çovqan, cövlan və s. ilə bərabər masaustü nərd, şahmat kimi oyun növləri də olmuşdur. Əyləncələr isə tamaşa şəklində təqdim olunaraq nəinki adi günlərdə, eləcə də bayram və toy mərasimlərində icra olunmuşdur. Məsələn, «toy adi evlənmə mərasimi çərçivəsindən çıxaraq, xüsusilə kənd yerlərində ictimai-mədəni bir əyləncəyə çevrilir» (20, s.120). Tədqiqatçı alim R. Tahirov isə oyunların təsnifatını verərkən onları üç qrupa bölür : 1. İki rəqib tərəf arasında oynanılan «bəysiz» (başçısız) oyunlar, 2. Hər bir iştirakçının özünə cavabdeh olduğu oyunlar, 3. Bəyləri olan oyunlar. (21, s 226-227) Təbii ki, müəllifin haqqında bəhs etdiyi oyunlar etnoqrafik müşahidələrə və informatorların məlumatlarına əsasən təsvir edilir. Yəni onların yaranma dövrü göstərilmir. Lakin bu cür oyunların mahiyyətinə diqqət yetirsək, onların kökünün daha qədim olduğu şübhə doğurmur.

Qaçışı insanlar ibtidai zamanlardan bəri bacarırdılar. Orta əsrlərdə bu bir növ oyunların tərkib hissəsinə çevrilmişdi. Orta əsrlərdə mövcud olmuş şatırlar buna misaldır.

Fiziki hazırlıq, faydalı fəallıq və eyni zamanda zehni inkişaf etdirmək kimi keyfiyyətlər aşılamaqla bir sıra oyun və əyləncələr gündəlik iş və qayğılardan yorulmuş insanların gərginliyinin azaldılmasına yardım edirdi. Bir sıra oyun və əyləncələr insanların psixoloji rahatlığının, dincliyinin təminat vasitələrindən biridir. Oyun və əyləncələrdə onu icra edən hər bir xalqın maddi sərvətləri ilə yanaşı, mənəvi dəyərləri də ön plana çıxır. Burada qarşılıqlı yardım, paylaşma, əməkdaşlıq, bərabərlik, fədakarlıq, səmimiyyət kimi dəyərlər xüsusilə özünü büruzə verir. Belə oyun və əyləncələr əsasında sonralar xalq teatrı formalaşmağa başlamışdır. M. Arifin də göstərdiyi kimi, mərasim və mahnılarda xalq teatrı sənətinin nişanələrini görmək mümkündür. (23, s. 49)

Oyun və əyləncələrin mahiyyətinə görə müxtəlif olduğu məlumdur. Belə ki, iştirakçıların sayına görə onlar çoxsaylı, azsaylı, və hətta təkbaşına icra edilə bilər. Məsələn, atda təkbaşına cövlana çıxma, təkbaşına hoqqabazlıq nümayiş etdirmə, kəndirbazlıq və s. Lakin elə oyunlar da vardır ki, onlar yalnız iki nəfərin iştirakını (nərd və şahmatda olduğu kimi) zəruri edir. Lakin çovqan oyunu və ov əyləncələri adamların sayının daha ziyadəliyilə müşahidə olunurdu.

Orta əsrlərdə ən çox oynanılan oyun növü çovqan olmuşdur. Təsadüfi deyildir ki, onun adına əksər mənbələrdə rast gəlmək mümkündür. Azərbaycan xalqının mədəniyyət xəzinəsində mühüm yer tutan görkəmli şairlərimizin ədəbi irsində çovqanla bağlı təşbehlərdən məharətlə istifadə edilmişdir. Xaqani yaradıcılığında çovqan, top və meydan sözləri bizə çovqan oyunundan xəbər verir (1, s.328). Nəsimi də həmçinin meydan, top, çovqan sözlərini işlətmişdir (2, s.19).

Miniatür sənəti nümunələrində də çovqan oyunu təsvir olunur.

Fiziki qüvvə tələb edən çovqan oyununda yüksək bacarığa, manevr etmə qabiliyyətinə malik olmaq oyunda iştirak edənlər üçün ən əsas keyfiyyətlərdən biridir. Çovqan oyununda topun qapıya ötürülməsi ilə yanaşı, eyni zamanda atı məharətlə idarə etmək bacarığı da tələb olunur. Buna görə də uşaqlar erkən yaşlardan etibarən əvvəlcə atsız çovqan oynamaq təlimi alırdılar. Böyüdükdən sonra isə atla bərabər bu oyunda iştirak edə bilirdilər. T. Məmmədova da uşaqların oynadığı çovqan oyunundan bəhs etmişdir (9, s. 164-165).

Oyunun mahiyyəti ondan ibarətdir ki, iştirakçılar iki dəstəyə ayrılır və iki tərəfdə qoyulan dirəklərdən ibarət rəqib qapılarından topu keçirmək tələb olunur. Seçilmək üçün bir dəstənin üzvləri mütləq o biri dəstəninkindən fərqli geyimdə oyuna qatılırlar. Göründüyü kimi bir sıra oyunlar sadəcə vaxt öldürmək üçün icra olunmurdu. Onlar əzəldən müəyyən olunmuş vahid daxili qaydalara malik idilər. Bu keyfiyyət oyunların fərqləndirici və dəyişməz mahiyyətinin olduğunu göstərir, səciyyəvi cəhətlərini əks etdirir. Orta əsr müəllifi Tac əd-Din əs – Salmani çovqan oyununun adını çəkmişdir (8, s. 78). Gürcü alimi A. İ. Robakidze çovkan oyununu sasanilərin türklərdən götürdüyünü qeyd etmişdir (14, s. 231).

Cövlan oyununda at vasitəsilə müəyyən məsafəni qət etməklə iti sürətlə at belində cövlan etmək tələb olunur. Xaqani cövlandan bəhs etmişdir (1, s. 230). Nizami yaradıcılığında da ondan söhbət açılır (5, s. 134). Y. Məddah cövlanın adını çəkmişdir (4, s 165). Oyunçular üçün cövlan hünər meydanına çevrilir.

Orta əsrlərdə ovçuluq özü bir oyun və eyni zamanda əyləncə hesab edilirdi. Sürək ovu böyük məharət tələb edirdi. M. Dadaşzadə yazır : «Orta əsrlərdə ovçuluq və eləcə də əl quşu ilə ov etmək bir idman növü kimi geniş yayılmış və inkişaf etmişdi» (10, s. 194). O, mənbələrə əsasən göstərir ki, orta əsrlərdə ovçuluqda məqsəd həmçinin yaxşı ox atmağa vərdiş etmək, çətinliyə qarşı dözümlü olmaq idi. Müəllif onu da qeyd edir ki, Azərbaycanda hökmdarların saraylarında və dövlət təşkilatlarında ovçuluq işlərinə baxan vəzifə də olmuşdur. Müəllif xatırladır ki, orta əsrlərdə əl quşu (tərlan, tiqun, qızılquş, başə, qırğı, piru, balaban, buf, şahin, qaraquş, şonqar, çərxi, humay və s.) ilə ov etmək xalq arasında geniş yayılmışdı. Ovçuluq orta əsrlərdə əyləncə xarakteri daşımışdır.

Şərafəddin Yezdi Teymurun Muğanda ovla məşğul olduğundan bəhs etmişdir (6, s. 18). Xandəmir də Teymurun ovda iştirakından belə yazır: «Cəmşid qüvvəli padişah (Teymur nəzərdə tutulur – Ş. B. ) ov əyləncəsi düzəltmək barəsində əmr verdi. Ceyran, dağkeçisi kimi o qədər heyvan cərgədə cəm oldu ki, o qədər çox olan qoşun ox atmaq və qılınc vurmaqdan fariq olduqdan sonra, ov heyvanlarının bellərini yoxladılar, hansı kökdü onu öldurür, hansı arıqdı onu boşlayırdılar» (16, s. 47).

Masaüstü oyunlardan biri şahmat idi. Vətəni Hindistan hesab edilən şahmat orta əsrlərdə Azərbaycanda da icra olunurdu. Xaqani şahmatdan bəhs etmişdir. (1, s. 240) Hətta şahmatdakı gediş barədə o belə qeyd edir:

*Piyada keçdimi yeddi xanəni*
*Udmaq çətin olar, çox güman səni (1, s. 55).*

Burada şair yeddi xana keçəndə piyadanın vəzir olduğundan danışır. XIV əsr şair Əssar Təbrizi şahmatdan bəhs etmişdir (4, s. 99). Qazi Bürhanəddin də şahmata işarə edərək yazır :

*Fili piyadə qıldı, atın aldı ruxları,*
*Fərzinlənüz ol işi ki, bu şəhsuvar edər (4, s. 73).*

Marağalı Əhvədi nərdlə şahmatın adını çəkmişdir (4, s. 233). Nəsimi şahmatdakı gedişə işarə edərək belə söyləmişdir:

*Oynamaz şətrənci – eşqin atını*
*Bilməyən bu zövqi –eşq şahmatını (2, s. 611 ).*

Orta əsr müəllifi Şərafəddin Yezdi də nərdin adını çəkmişdir (13, s. 9). Masaüstü oyun növü kimi nərd daha geniş yayılmışdır. Xaqani «Könlüm nərd oyununda düşmüşdür şeşxanaya»-deyir (1, s. 131). Göründüyü kimi şahmat və nərd kimi zehni inkişafa səbəb olan oyunlar orta əsrlərdə geniş yayılmışdı.

Hoqqabazlıq qədim dövrlərdən məlum olan oyundur. Xaqani hoqqabazlıqdan söz açmışdır (1, s. 66). M. Beyləqani isə belə yazır:

*Fələk həm oğru və həm hoqqabaz, oyunbazdır,*
*Çıxar o yüz oyun ilə bir anda mərəkədən (3, s. 314).*

Nəsimi «Kəbəteyni gör ki, atar hoqqabazın tasinə»- deyərkən hoqqabazların oyun nümayiş etdirərkən tasdan istifadə etdiklərinə işarə etmişdir (2, s. 53).

Oyunlar və əyləncələr özlərində yumor, zarafat, gülüş və xoş əhval ruhiyyəni ehtiva edir. Tamaşa göstərən oyunçular isə təqlidlər edirdilər. Ay-

dındır ki, Teylorun da göstərdiyi kimi, oyunların çoxu ciddi həyati işin təqlidini özündə əks etdirir. (22, s. 44) Lakin bununla kifayətlənməyərək tamaşalar mahiyyətində incə məqamları da açıqlayır. Zamanın gərdişinə, dünyanın və təbiətin müxtəlif hadisələrinə, ailə və məişət münasibətlərinə toxunmaqla incə mizah hissinin olması əyləncələri daha da fərqləndirir. Təsadüfi deyildir ki, «Sirlər xəzinəsi»ndə «Nizami «Pərdə arxasında şəbədə oynadan bu pərdəni sənin başına əyləncə üçün bağlamayıb» – deməklə göstərmək istəmişdir ki, hər bir tamaşanın məqsədi kütlələri təkcə əyləndirmək deyil, eyni zamanda onları tərbiyələndirməkdir, pisə gülərək yaxşını qiymətləndirməyə sövq etməkdir, həyatda baş verən bu və ya digər hadisədən onları agah etməkdir. Bu xüsusiyyət oyunların böyük əxlaqi-tərbiyəvi əhəmiyyətini söyləmək üçün əsas verir.» (5, s. 131) Bu baxımdan bir ünsiyyət vasitəsi kimi oyun və əyləncələr xalqın mənafeyinin ifadəsinə çevrilir.

M. Allahverdiyev göstərir ki, Nizaminin əsərlərində adı çəkilən « «Hoqeyi-kavus», «Mehrikan», «Arayişi-Xurşidi», «Şəbdiz», «Kini-Səyavuş», «Kini-İyrəc», «Baği-Şirin» və i.a. adicə nəğmə deyil, lirik, ibrətamiz xarakterli tamaşalardır. Onların hamısı da musiqi və rəqslə müşayiət olunurmuş» (7, s. 45). Nizaminin yaradıcılığında şəbədə, mücəssəmə, məsxərə, gözbağlıca, kilimarası kimi əyləncə xarakterli tamaşaların nümayişindən bəhs edilir (5, s. 129-130). Bundan əlavə «Xəmsə»də kəndirbazlıq, güləş, gəlincik, üzük-üzük, xəyaloyunu kimi oyunlardan da söhbət açılır. (5, s. 135-136) Bunların əksəriyyəti meydan oyunları kimi məlumdur. Tarixdən də bəllidir ki, «qədim türk tayfalarının şifahi repertuarında meydan tamaşaları xüsusi yer tuturdu» (18, s. 82).

Orta əsrlərin məhz XIV əsrində yaranan Qazyallı adlı oyun haqqında məlumatda deyilir : «XIV yüzildə yaşayan tarixi şəxs Qazı xanın adı ilə bağlı olan bu oyunda 20-30 ifaçı düzənliyə çıxır, əl-ələ verib dairə şəklində dururdu. Bir əlinə qamçı və ya çubuq almış yallıbaşı oyun zamanı cibindən növbə ilə dəsmal, zər, daraq, corab, bıçaq, kəmər və s. əşyalar çıxarır. O biri iştirakçılar isə, bu vaxt onu yamsılamalı idilər. Kim bunu etməsəydi, cəzalanırdı. Uşaqların ifa etdiyi həmin məzmunlu oyuna «yallı oyunu» deyilirdi» (17, s. 46).

Oyuncaqlar uşaqların inkişafında mühüm rola malikdir. Burada qeyd etmək yerinə düşür ki, islam dininin yayılması ilə dünənki etiqad mənbəyi olan bütlər də bir oyuncağa çevrilir (15, s 128). Qadınların məharətli əllərilə hazırlanan fiqurlar, gəlinciklər orta əsrlərdə istifadə olunan oyuncaqlar olmuşdur. Bu oyuncaqlar vasitəsilə uşaqlar məişəti daha yaxşı qavraya bilmişlər. Körpə uşaqların təbiətində oyuncağa qarşı bir maraq vardır. Yeni bir əşya görüncə uşaqlar onu öyrənməyə, diqqətlə süzərək rəng və həcmini yadda saxlamağa çalışırlar. Bəzən isə onların ən çox sevdiyi bir oyuncağı olur ki, ondan ayrı dayana bilməzlər. Ümumiyyətlə, oyuncaqların hazırlanmasında əsasən gil, sümük, ağac, dəri, müxtəlif parçalar, metal və kağız kimi materiallardan istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı aşkar olunan

uşaq oyuncaqları da deyilənlərə maddi sübutlardır. Mingəçevirdən tapılan «oyuncaqlar başlıca olaraq şaxşaxalardan, kiçicik qab-qacaqlardan və heyvan fiqurlarından ibarətdir» (11, s. 49). Hətta «orta əsr misgərləri uşaq oyuncaqları da istehsal edirdilər. XIV əsrə aid mis şax-şax bunu təsdiqləyən tapıntıdır. O bikonik formalı olub iki konusvari hissənin qarşı-qarşıya qoyularaq lehimlənməsi ilə hazırlanmışdır» (12, s. 137).

Müasir tamaşa sənəti ilə qədim xalq oyunları arasında üzvi əlaqə olduğunu xüsusilə bayramlar zamanı göstərilən oyunlar bir daha nümayiş etdirir. Azərbaycanda mövcud olan meydan aktyorları «feodal mühitində istismar olunan xalqın istək və arzularını, kədər və qəzəbini ifadə etmiş, orta əsr özbaşınalığına, dini ideologiyanın gətirdiyi mənəvi əsarətə, mütiliyə, tənbəlliyə qarşı ictimai nifrət hissi oyatmışdır» (7, s. 4-5).

Deyilənlərə yekun olaraq qeyd edə bilərik ki, oyun və əyləncələr yarandığı tarixi cəmiyyətin aynasıdır, öz ictimai – iqtisadi quruluşuna uyğundur. Onlar insanlar arasında gərəkli ünsiyyət vasitəsidir. Bir sıra oyun və əyləncələr xalqın mənafeyinin ifadəsinə çevrilir. Mövcud vəziyyəti düzgün qiymətləndirmək, bacarıq, əqli tərbiyə kimi keyfiyyətləri aşılayan oyun və əyləncələr insanların dünyagörüşünün inkişafında da faydalıdır. Bu anlamda da onların mütərəqqi rolu ortaya çıxır. Kollektiv və fərdi məharət oyunların əsas göstəricisi olmuşdur.

**ƏDƏBİYYAT:**

1. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: Az SSR EA, 1956.
2. Nəsimi. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1973.
3. AKƏK 20 cilddə. VII – XII əsrlər. 2 c. Bakı: Elm, 1989.
4. AKƏK 20 cilddə. XIII – XVI əsrlər Azərbaycan şeri. 3 c. Bakı: Elm, 1984.
5. Bünyadova Ş. Nizami və etnoqrafiya. Bakı: Elm, 1992.
6. Ş.Yezdi. Zəfərnameyi əmiri – sahibqran əmir Teymuri Gürgan. XIV əsr. Tərcümə A. Qasımov. № 2079.
7. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı: Maarif, 1978.
8. Aslanov E. El-oba oyunu xalq tamaşası. Bakı: İşıq, 1984.
9. Məmmədova T. Uşaq oyunları haqqında. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. IV kitab. Bakı: Elm, 1973.
10. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı: Elm, 1985.
11. Vahidov R. Mingəçevir III – VIII əsrlərdə. Bakı: Az.SSR EA, 1961.
12. Dostiyev T. Şimal-şərqi Azərbaycan IX – XV əsrlərdə. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2001.
13. Тадж ад-Дин ас-Салмани «Тарих – наме» (перевод с турецкого З. М. Буниятова). Баку, Элм, 1997.
14. Робакидзе А. И. Чеханбурти. Вопросы этнографии Кавказа. Тбилиси, 1952.
15. Рейнсон-Правдин А. Н. Игра и игрушка народов обского Севера. СЭ № 3, 1949.

16. Xandəmir. Həbibüstər. (Azərbaycan tarixinə aid parçalar.) tərc. A. Qasımovundur. Azərbaycan EA TİEA fond 1, iş 2151.
17. Aslanov E. El-oba oyunu xalq tamaşası. Bakı: İşıq, 1984.
18. Nəbiyev A. El nəğmələri xalq oyunları. Bakı: Azərnəşr, 1988.
19. Qasımov Ə. Azərbaycan xalq oyunları. Bakı Universitetinin nəşriyyatı, 2006.
20. Abdulla B. Azərbaycan mərasim folkloru. Bakı: Qismət, 2005.
21. Тахиров Р. А. О некоторых бытовых играх северо-западных районов Азербайджана. АЭС № 2. Баку, АН Азерб. ССР, 1966.
22. Тэйлор Э. Первобытная культура. Москва, Наука, 1989.
23. Arif M. Azərbaycan xalq teatrı. Seçilmiş əsərləri. IIIc. Bakı: Elm, 1970, s.49-64.

## ИГРЫ И РАЗВЛЕЧЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В СРЕДНИЕ ВЕКА
## (По материалам XII – XIV веков)

*Аскер Ахмед*

***Резюме***

Игры и развлечения отражают быт каждого народа. В средние века в Азербайджане (XII-XIV вв) главными видами игр были: човган, човлан, нарды, шахматы, охота и. т. д. Их названия можно встретить в средневековых литературных произведениях. При археологических исследованиях, которые велись на разных территориях Азербайджана, были найдены предметы, отражающие игры и развлечения населения.

## GAMES AND ENTERTAINMENTS IN AZERBAIJAN IN MIDDLE AGES
## (On materials of XII - XIV centuries)

*Askar Ahmad*

***Summary***

Games and entertainments concern to an ancient history. They reflect the life of each people. By the quantity of participants games and entertainments are quite different. In Middle Ages (XII-XIV) main kinds of games were: chovqan, covlan, backgammons, chess, hunting etc. Their names can be met in the works of well-known representatives of the literary heritage. In archaeological researches which were carried out in different territories of Azerbaijan children's toys have been found. In the life of the population games and entertainments were the means of rest. Games are also presented in tiny works.

# TƏLƏBƏLƏRƏ KÖMƏK
# FOR STUDENTS
# В ПОМОЩЬ СТУДЕНТАМ

## QARABAĞ VƏ NAXÇIVANDA İLK TUNC DÖVRÜ DULUSÇULUQ SƏNƏTİNİN İNKİŞAFI TARİXİNDƏN

*Aida Məmmədova*
*(Azərbaycan MEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)*

Azərbaycanın tunc dövrü abidələrindən əldə olunmuş maddi-mədəniyyət nümunələri sənətkarlıq tarixini öyrənməkdə mühüm rol oynayır. Qədim əhalinin həyatında olan mühüm dəyişikliklər sənət sahələrinin formalaşmasında təkamül taparaq müstəqil inkişaf yolu keçməsinə zəmin yaratmışdır. Belə sənətkarlıq sahələrindən biri dulusçuluq olmuşdur.

Qədim əhalinin yayılaraq daha çox məskunlaşdığı Qarabağ və Naxçıvan bölgəsində ilk tunc dövrünün başlanğıc mərhələsində dulusçuluq ev sənətkarlığı xüsusiyyəti daşımış və yalnız aid olduğu yaşayış yerinin təlabatını ödəmişdi [12, s.29].

Təsərrüfatın mükəmməlləşməsi, qonşu ölkələrdə əlaqələrin möhkəmlənməsi nəticəsində hər bir ərazi müstəqil inkişaf [10, s.96] yolu ilə gedir və inkişaf xüsusiyyətləri ilə seçilirdi.

Dulusçuluğun bu iki regionda özünəməxsus yüksək inkişaf tapmasına imkan verən ən mühüm amil bu ərazidə olan əsas xammal mənbəyinin, yararlı gil yataqlarının [12, s.29] olmasıdır.

Qarabağ və Naxçıvan ərazilərinin keramikasının yerli variantlarının özünəməxsus xüsusiyyətləri vardır ki, bu xüsusiyyətlər başqa ərazilərdən fərqlənir [3, s.246]. Bütün bu lokal xüsusiyyətlərdən fərqli olaraq ilk tunc dövrü keramikası üçün daha çox oxşar xüsusiyyətlər – ümumi cəhətlər də mövcud olmuşdur.

Arxeoloji tədqiqatlar göstərir ki, e.ə. IV minilliyin ikinci yarısında yalnız Qarabağ və Naxçıvan əraziləri üçün deyil, bütün Cənubi Qafqaz üçün səciyyəvi olan yeni bir mədəniyyət təşəkkül tapmış və inkişaf etmişdi. Bu mədəniyyət e.ə. III minillikdə özünün yüksək inkişaf mərhələsinə çatmış «Kür Araz mədəniyyəti»dir [12, s.17].

«Kür-Araz» mədəniyyəti e.ə. III minillikdə Şimali Qafqazdan başlamış, Cənubi Qafqazı bütünlüklə əhatə etməklə Suriya – Fələstinədək yayılmışdır [7, s.43-44].

Deməli, Azərbaycan ancaq mədəniyyətləri qəbul edən ölkə yox, həm də yayan ölkə olmuşdur. Kür-Araz çayları arasında formalaşan bu mədəniyyətin ilkin ocağı hansı region olmuşdur? Bu problemlə bağlı A.A.İessen, O.M.Caparidze, B.M.Munçayev, S.Barneyin fikirləri böyük maraq doğurur. A.A.İessen bu mədəniyyətin yaranma ocağının Şərqi Anadolu [11, s.16], O.M.Caparidze ilkin mərkəzi Kür və Araz çayları arası olduğunu [6, s.20] göstərir. S.Barney ilkin mərkəz kimi Türkiyəni (Elyazıq əyalətini) [4, s.61], B.Braun isə Gürcüstan və Azərbaycan ərazilərinin olduğunu görürdü.

V.H.Əliyevin fikrincə ilk tunc dövrünün son mərhələlərində Cənubi Qafqaz, eləcə də Azərbaycan ərazisində yaşayan tayfalar iqtisadi, mədəni cəhətdən xeyli güclənmişlər. Həmin dövrdən Cənubi Qafqaz üçün səciyyəvi olan Kür-Araz mədəniyyəti Cənubi Qafqazın hüdudlarını keçərək, Şimali-Şərqi Qafqazdan tutmuş Suriya və Fələstinədək geniş ərazidə yayılmışdı. Bu təsir Şərqi Anadoluda, İranda, Urmiya və Həsənli ərazisində özünü aydın şəkildə göstərmişdi [7, s.43-44]. Bu yayılma köçəri maldar tayfaların yerdəyişmələri [1, s.24] ilə bağlı olmuşdu. Etnoqrafik tədqiqatlar göstərir ki, Qarabağın maldar tayfalarının əsas otlaq yerləri Göyçə gölü ətrafındakı yaylaqlar (alp çəmənliklər) olmuşdur. Deməli, Mil-Qarabağın oturaq-maldar tayfaları bu mədəniyyətin əsil yayıcıları olmuşdur.

Bu iki regionun özünə məxsus xüsusiyyətləri olmuşdu. Şimal regionu, eləcə də Qarabağ sadə qabların inkişafı ilə cənuba – Naxçıvana təsir etmiş. Öz növbəsində Naxçıvanda yaranmış (eneolit dövründən) boyalı qablar isə Qarabağa və digər regionlara yayılmışdı.

Hələ eneolit dövründən Naxçıvanda (I Kültəpə) dulusçuluq sənəti yüksək inkişaf tapmış, yerli dulusçulara məxsus ocaqlar yaranmışdı. Naxçıvan boyalı keramikası (eneolit dövründən) özünün tərkibinə, formasına, naxışlarının mürəkkəbliyinə və məzmununa görə Yaxın Şərq ölkələrinin eneolit dövrü keramikası ilə oxşarlıq təşkil edir. Bu fakt yerli tayfaların qonşu İran Mesopotamiya Kiçik Asiya və s. ölkələrlə iqtisadi və mədəni əlaqədə olduğunu, onların hələ eneolit dövründə mübadilə apardıqlarını sübut edir. Eneolit dövrünü əvəz edən tunc dövrünün ilk mərhələsində Azərbaycanda yüksək keyfiyyətli qara və qırmızı boyalı qablar istehsal olunmuşdur [8, s.44].

Deməli, Kür-Araz mədəniyyətinin yaranması və yayılmasında Qarabağ və Naxçıvan tayfalarının mühüm rolu olmuşdur.

Q.İsmayılov tədqiqatları onu söyləməyə əsas vermişdir ki, tunc dövrü mədəniyyətinin yayıldığı ərazidə Kültəpə və Şenqavit abidələri xüsusi yer tutsa da, ilk tunc dövrü mədəniyyətinin yaranma, təşəkkül tapma və inkişaf tarixi, eləcə də son mərhələsi haqqında fikirlər ayrı-ayrı abidələrin xüsusiyyətinə əsaslanmışdı. Qarabağda Qaraköpəktəpədə qədim tunc dövrünə aid mədəni təbəqənin tədqiqi ilə ilk dəfə həmin dövrün inkişaf pillələrini ardıcıl izləmək mümkün olmuşdu [12, s.18].

İlk tunc dővrű keramikası űçűn boz, qara və çəhrayı rəngli keramika məmulatı səciyyəvidir.

Kűr-Araz mədəniyyəti űçűn səciyyəvi olan qablar – qazan, çőlmək, xeyrə, kasa, kűpə, kűp, dopu, parç və s. Kűltəpədən (Naxçıvan), Babadərvişdən (Qazax), Qarakőpəktəpədən (Qarabağ), Qobustandan, Beştasen, Ozni, Kvartsxelebidən (Gűrcűstan), Qayakənd, Gilyar, Vəlikənd (Şimali Qafqaz), Urmiya sahili, Gőytəpə (Cənubi Azərbaycan), Anadolu (Tűrkiyə) və s. abidələrdən məlumdur [9, s.11-13].

Műxtəlif formalı və őlçűlű gil qablar istehsalının genişləndirilməsi əkinçilik və maldarlığın yűksək inkişafından irəli gəlmiş, műhűm təsərrűfat sahələrinin tələbatını ődəməyə yőnəlmişdir [12, s.28-29].

İlk tunc dővrűndə gil ocaq qurğuları, kiçik plastika nűmunələri, ayrı-ayrı əmək alətləri, hətta műəyyən silah nűmunələri [12, s.28] hazırlanmışdır ki, bu məhsullar műəyyən təcrűbəyə malik olan dulus ustalarının zəngin sənət təcrűbələrindən irəli gəlmişdir.

Naxçıvanın ilk tunc dővrű keramikası səciyyəvi xűsusiyyətləri ilə fərqlənir. Naxçıvanın ilk tunc dővrű boyalı qabları őzűndən sonra gələn orta tunc dővrű mədəniyyəti ilə qırılmaz şəkildə bağlıdır. Boyalı qablar mədəniyyətinin inkişafı űçűn hələ ilk tunc dővrűndə zəmin yaranmışdır. İlk tunc dőv-rűnűn son mərhələsində gil məmulatların naxışlanmasında tətbiq olunan cızma, yapma, çərtmə və s. űsullar orta tunc dővrűndə təkmilləşmiş, inkişaf tapmışdı [9, s.13-14].

Kűr-Araz keramikasının mənşəyi, əlaqəsi və bir mədəniyyətin digərini əvəz etməsini őyrənmək űçűn naxışlar műhűm əhəmiyyət kəsb edir. İlk tunc dővrűnə aid naxışlanmış bu tip keramika I və II Kűltəpə, Maxta, Ovçular təpəsi, Ərəbyengicə (Naxçıvan) [2, s.28], Gűnəştəpə, Xantəpə, Kűltəpə, Şomulutəpə, Uzuntəpə, Meynətəpə (Qarabağ) [12, s.28-29] və s. abidələrdən əldə olunmuşdu.

Naxçıvan ilk tunc dővrű abidələrindən dulus kűrələri əldə olunmadığı (lakin II Kűltəpədən xűsusi qurğu qalığı və I Maxta yaşayış yerindən kőrűk ucluğu əldə olunmuşdu) [1, s.28] halda, Qarabağda hələ eneolit dővrű abidələrindən – İlanlı təpə, Çalağan təpədən dulus kűrələri əldə olunmuş, Leylatəpədə isə qabların bəsit dulus çarxında hazırlanması műəyyən edilmişdi [5, s.151].

Gilinin tərkibindəki qarışıqlardan, eyni zamanda bişirilmə dərəcəsi ilə bağlı ilk tunc dővrű keramikasının műxtəlif rənglərdə olması, bőyűk və kiçikliyindən asılı olaraq maddi mədəniyyət nűmunələrinin hazırlanması rənglənməsi, műxtəlif formalı arxaq qulpların olması ilk tunc dővrű keramikasının əsas səciyyəvi xűsusiyyəti olmuşdu.

Lakin Yaxın Şərqin ən inkişaf etmiş őlkələri ilə coğrafi məkanca yaxınlıq, yaranmış mədəni iqtisadi əlaqələr Naxçıvan dulusçularına bőyűk uğurlar

gətirmişdir. Yerli zəmin əsasında inkişaf tapmış dulusçuluq sənətində yeni bir mədəniyyətin – Boyalı qablar mədəniyyətinin inkişafı üçün zəmin yaranmışdı. Boyalı qablar Qarabağ, Gəncəçay abidələrindən əldə edilsə də o, Naxçıvanda geniş inkişaf tapmışdır.

İlk tunc dövrün son mərhələsində gil məmulatının naxışlanmasında tətbiq olunan üsullar orta tunc dövründə təkmilləşərək geniş inkişaf tapmış [9, s.14], dulusçuluq məmulatı üzərində müxtəlif kompozisiyalar qurulmuşdu.

Ümumiyyətlə, ilk tunc dövründə dulusçuluq sənətinin inkişafında olan bu inkişaf orta tunc dövrü dulus sənətkarlarının daha da püxtələşməsinə, sənətin sirlərinə dərindən yiyələnmələrinə və daha da təkmilləşmiş yeni bir mədəniyyət yaratmalarına zəmin yaratmışdı.

## ƏDƏBİYYAT

1. Aşurov S. Naxçıvanda arxeoloji tədqiqatlar (2001-2002-ci illər). Bakı, 2003.
2. Aşurov S. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı, 2000.
3. Brown B.B. Excavation in Azerbaijan. 1948, London, 1951.
4. Burney C.A. The excavations at Yanig Tepe, Azerbaijan second preliminary report. "Irag", vol, XXIX.
5. Cəfərov Hidayət Fərrux oğlu. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövhələrinin materialları əsasında). Bakı, 2000.
6. Джапаридзе О.М. К истории грузинских племен на ранней стадии медно-бронзовой культуры. Автореф. дис. док. ист. наук. Тбилиси, 1962.
7. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı, 1977.
8. Əliyev V.H. Tarixin izləri ilə. Bakı, 1975.
9. Əliyev V.H. Qədim Naxçıvan. Bakı, 1979.
10. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959.
11. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. МИА СССР. №125, Москва-Ленинград, 1965.
12. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.

# ON THE HISTORY OF THE EARLY BRONZE AGE POTTERY IN KARABAGH AND NAKHICHEVAN

***Aida Mammadova***

***Summary***

Artifacts found from the Bronze Age monuments of Azerbaijan take an important place in the exploration of the trade history.

Intensive production of pottery of different forms and sizes was connected with the high development of cattle-breeding and agriculture, and directed to meet the demands of economic branches.

During the Early Bronze Age there were made pottery vessels, little plastic objects, tools, weapons, etc. which could be regarded as the reflection of the high experience of pottery.

# ИЗ ИСТОРИИ РАЗВИТИЯ ГОНЧАРНОГО РЕМЕСЛА КАРАБАХА И НАХЧЫВАНА ЭПОХИ РАННЕЙ БРОНЗЫ

***Аида Мамедова***

***Резюме***

В изучении истории ремесла важную роль сыграли полученные образцы материальной культуры из памятников эпохи бронзы Азербайджана. Расширение производства керамических посуд различной формы и величины, направленные на удовлетворение потребностей сельского хозяйства, говорят о высоком развитии земледелия и скотоводства.

В эпоху ранней бронзы изготовленные керамические посуды, маленькие пластические образцы, орудия труда, образцы оружия свидетельствуют о высоком мастерстве гончаров.

# BİZİM MÜSAHİBƏ
# OUR INTERVIEW
# НАШЕ ИНТЕРВЬЮ

## «MUZEY MƏNİM HƏYATIMDIR...»

**Müsahibim ömrünün 30 ildən çoxunu muzey işinə həsr etmiş ziyalı xanım Mingəçevir Şəhər Tarix muzeyinin işçisi Xuraman Məmmədovadır**



- Xuraman xanım özünüzü necə təqdim edərdiniz?
- Muzeyşünas Xuraman! Daha sonra isə Məmmədova Xuraman Həmid qızı.
- Muzey işinə necə başladınız?
- Ali təhsilimi başa vurub doğma şəhərimə təyinat aldım. Təyinatımı mədəniyyət şöbəsinə təqdim edib işə çağırılmağımı gözlədim. İndiki kimi xatırlayıram. 1975-ci ilin sentyabr ayında mədəniyyət şöbəsinin müdiri məni çağırdı və belə dedi – Səni bir işə göndərirəm. Adı böyükdür. Amma bilmirəm maaşı səni qane edəcəkmi? Gedib işlə tanış ola bilərsən. İş şəhərin tarix muzeyindədir. Gəldim tarix muzeyinə. Muzeydə mənə dedilər ki, səni elmi işçi götürəcəyik. İşin isə eksponatların enini-uzunu ölçmək olacaq. Razılaşdım. Həmin gündən 30 ildən çox vaxt keçib.
- Sizi bu işə nə bağladı?
- Mən bu işi çox sevdim. Muzey mənə vətənpərvərlik hissi aşıladı. Xalqımıza, onun tarixinə olan məhəbbətim məni bir daha əmin etdi ki, bu işdə özümü tapmışam.
- Xuraman xanım muzey sizə nə verib?
- Keçən bu illər ərzində muzey məni xalqıma tanıtdırıb. İldən ilə bu işdə irəli getmişəm, püxtələşmişəm, elmi işçidən, fond müdiri, muzey direktoru vəzifələrinə qədər yüksəlmişəm. Şəhərimizdə keçirilən bütün tədbirlərdə ictimai işlərdə fəal iştirak etmişəm. Vətənimizin tarixi haqqında həm yerli, həm də xarici vətəndaşlara məlumat verdikcə qürur hissi keçirirəm. Bax bu hissi yaşamağı verib mənə muzey. Muzey mənim həyatımdır desəm yanılmaram.

- Mingəçevir Şəhər Tarix muzeyində ən çox sevdiyiniz eksponat hansıdır?

- Muzeydə qorunan hər bir eksponat mənə doğmadır, əzizdir. Onların ayrılıqda hər birinin muzeyə gətirilməsini bu günə kimi xatırlayıram. Muzeydə Mingəçevirin həm qədim, həm də müasir tarixini əks etdirən yüzlərlə eksponatı şəxsən özüm toplamışam. Onların dalınca dəfələrlə Bakıya, Respublikamızın başqa rayonlarına getmişəm. Ona görə də onların mənə hansının daha doğma, sevimli olduğunu deyə bilmərəm. Amma muzeyimizdə qorunan Mingəçevir arxeoloji ekspedisiyasının üzvlərinin S.M.Qazıyevə, A.M.Vahidova, Q.Aslanova, Y.Paxomova, V.Fomenkoya məxsus fotoşəkillər, onların şəxsi əşyaları, Mingəçevirdən tapılmış maddi-mədəniyyət nümunələri mənə daha əzizdir. Onları toplamaq üçün dəfələrlə, bəlkə də, 20-30 dəfə Bakıya Elmlər Akademiyasına getmişəm.

- Xuraman xanım bu eksponatları necə toplamısız?

- Allah rəhmət eləsin Q.Aslanov, R.Vahidov və T.Qolubkina o vaxtlar mənə xeyli köməklik göstərdilər. Rəhmətlik Qardaşxan müəllimdən çətinliklə də olsa xeyli eksponat almışam muzeyimiz üçün. Niyə çətinliklə deyirəm? Q.Aslanov bir az rəsmi adam idi. Verdiyi materialların qorunacağına əmin deyildi. Amma bütün bunlara baxmayaraq ondan xeyli material ala bildim. Muzeydə nümayiş etdirilən Mingəçevirin arxeoloji xəritəsini, IV-IX əsrlərə aid Alban məbədinin 3 №-li yaşayış yerinin 20 №-li sahəsinin, Kür çayının sağ sahil qəbirstanlığının 70 №-li qazıntı sahəsinin planını, Mingəçevir ətrafında arxeoloji qazıntı yerlərinin sxemini muzeyimizə Q.Aslanov verib. Tamara xanım Qolubkina da xeyli material verib Mingəçevir muzeyinə. Dəfələrlə onun evində olmuşam. Məni heç vaxt əliboş qaytarmırdı. Tez-tez məktublaşırdıq. T.Qolubkinanın məktublarını indi də saxlayıram. Qırmızı qərənfilləri çox sevərdi. 1987-ci ildə «Qobustan» jurnalında çap olunmuş məqaləsini şəxsi imzası ilə muzeyimizə bağışlayıb. Məqalə Azərbaycan dilində idi. Tamara xanım məndən onu rusca tərcümə etməyimi xahiş etdi. Mən də etdim. Çox xoşuna gəldi. S.Qazıyevin bu gün muzeyimizdə qorunan fotoşəkillərini, şəxsi əşyalarını Tamara xanım muzeyimizə hədiyyə verib. Bundan başqa numizmatik alim Y.Paxomovun çantasını, çəki daşlarını və ona məxsus digər əşyaları da muzeyimizə Tamara xanım bağışlayıb.

- Qocaman arxeoloqlardan daha kimləri tanıyırdınız. Onlarla bağlı xatirələriniz varmı?

- Q.Aslanovu qeyd etdim, Rəhim Vahidovun yaşlı vaxtlarını xatırlayıram. Bir az ərksöyünlüyü var idi rəhmətliyin. Kiçik bir otağı var idi. İnstituta gedəndə o otağa gedərdim. Ələm Nuriyev çox mülayim, mehriban insan idi. Astadan danışardı. Muzeyinizə şəxsi avtoqrafı ilə bir neçə kitab bağışlayıb. Rəşid Göyüşov çox zarafatcıl, baməzə adam idi. Heç bir şeydə adama yox deməzdi.

Muzeyimiz Arxeologiya və Etnoqrafiya İnstitutu ilə indi də yaxından əməkdaşlıq edir. Son 6 ildə Mingəçevir arxeologiyasına həsr olunan Mingəçevir şəhər icra hakimiyyəti və Arxeologiya və Etnoqrafiya İnstitutu ilə

birgə iki elmi konfrans keçirilib. 2001-ci ildə «Mingəçevir Azərbaycanın qədim mədəniyyət ocağıdır» və 2006-cı ildə «Mingəçevir arxeoloji ekspedisiyası – 60» adlı altında keçirilən bu konfranslarda görkəmli arxeoloq və etnoqraf alimlərimiz Mingəçevirin elmi ictimaiyyəti qarşısında maraqlı məruzələrlə çıxış etmişlər.

- Sonda muzey işinə yeni başlayan gənclərimizə tövsiyəniz və arzularınız?

- İlk növbədə gənclərə tövsiyə edirəm ki, işlərini sevsinlər. Bu işi sevmədən öyrənmək çətindir. Muzey tək maddi və mədəniyyət nümunələrinin toplandığı yer deyil. Muzey özü bir dünyadır. Bu dünyanı sevmədən ona bağlanmaq mümkün deyil.

*Söhbəti Tükazban Göyüşova apardı.*

# XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR
# CHRONICLES, REVIEWS, INFORMATIONS
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ

## Birinci Uluslararası Avrasya Arkeoloji Kongresi'nin Ardından

*DR. A.Semih Güneri*
*Kongre Başkanı*
*Anadolu & Avrasya Enstitüsü*

21 – 24 Mayıs 2007'de İzmir, Çeşme'de gerçekleştirilen Birinci Uluslararası Avrasya Arkeoloji Kongresi / The First International Congress of Eurasian Archaeology, Ficea 2007, 2001-2004 arasında, Doğu Anadolu ve Avrasya'nın geniş bir alanında yürütülen OTAK (Orta Avrasya'da Türk Kültürünün Arkeolojik Kaynakları) Projesinin uzun vadeli amaçlarından biri idi ve, Avrasya kavramı içinde, Türk arkeolojik birikiminin uluslararası düzeyde tartışılmasını amaçlayan bir tasarımdı. Kongrede 119 bildiri tartışıldı, bunların 13'ü Türkiye üniversitelerini temsil ediyordu.

1995'te Hacettepe Üniversitesinde, MÖ ikinci ve birinci bin yıllarda, Doğu Anadolu-Kafkasya-Orta Asya arasında gelişen kültür ilişkileri konusunda tarafımızdan yapılan doktora çalışmaları bizleri, başlangıçta hiç bir şekilde planlamadığımız bir yöne, Avrasya'ya yönlendirdi. Masa başı çalışmalarımızı Doğu Anadolu'nun Kafkasya'ya açılan bölgelerindeki aktif arazi çalışmalarımız izledi. Sonuç şuydu: Bölgede, ne Orta Anadolu, ne de Mezopotamya ve/veya İran kültürleriyle ilgili bir kültür dokusu söz konusuydu. Bizim çalışmalarımıza kadar neredeyse hiç bir yönüyle bilinmeyen MÖ ikinci binyıl bölge kültürleri, anlaşıldı ki, önce Kafkasya ile, ve dolaylı ve esas anlamda Orta Avrasyalı baskın göçebe/yarı göçebe kültürlerle yakından ilişkiliydi. Bölgedeki bu kültür birikiminin, somut maddi kültür belgelerine ve yazılı kaynaklara dayanan bilimsel araştırmalarımıza göre terminolojisi, siyasal-sosyal anlamda "Protourartu kültürü", etnik-kültürel çerçevede ve daha genel bir deyişle "Geç Karaz kültürü" biçiminde belirlendi. Geç Karaz kültürünün etnik alt yapısına Hurri kültürü egemendi. Hurriler, MÖ geç üçüncü ve ikinci binde tüm Anadolu ve Mezopotamya kültürleri üzerinde derin etkiler bırakmış, dil özellikleri gereği Ural-Altay kökenli olan, Kafkasya'dan Doğu Akdeniz'e, İran'dan Çukurova'ya kadar geniş bir alana yayılmış halk toplulukları idi.

Özetle, Doğu Anadolu'da, günümüzden dört bin yıl önce, etnik yönden Ural-Altay halklarıyla, arkeolojik yönden ise Avrasyalı göçebe halklarla ilişkili olan bir kültür birikimiyle karşı karşıyaydık. Bu noktada yapılacak şey, önce Avrasya'da Türk kültürünün arkeolojik kaynaklarını birinci elden incelemek, sonra elde edilen bulguları Doğu Anadolu ile karşılaştırmaktı. Öyle yapıldı ve 2001-2004 arasında OTAK Projesi kapsamında, Doğu Anadolu'da, Güney Sibirya, Sincan-Uyur ve Moğolistan bölgelerinde, Rus ve Moğol bilim insanlarıyla bir yandan arazi ve müze araştırmaları sürdürülürken, diğer yandan ortak kazı çalışmaları gerçekleştirildi. Yayınlara bir bir yansıtılan

OTAK Projesi çalışmalarının sonuçları, kimsenin tahmin edemeyeceği kadar ilginçti, şaşırtıcı idi ve bilimsel değeri yüksekti.

İşte bu Birinci Uluslararası Avrasya Arkeoloji Kongresi de, OTAK I Projesinin bilimsel değeri yüksek sonuçlarından, daha doğrusu uzun vadeli amaçlarından biridir.

### *Kongrenin Amacı, Kapsamı ve Bilimsel Düzeyi*

Dokuz Eylül Üniversitesi, Anadolu ve Avrasya Enstitüsü ve Moğolistan Altay Araştırmaları Enstitüsü adına düzenlenen Birinci Uluslararası Avrasya Arkeoloji Kongresi, dünya arkeologlarını ve tarihçilerini, Avrasya tarihi ve arkeoloji ile ilgili uluslararası alanda faaliyet gösteren bilim kurumlarını Türkiye'de bir araya toplamak, Türk kültürünün Avrasya'daki köklü arkeolojik tarihini uluslararası düzeyde ele almak, tartışmak, tanıtmak ve bu kapsamda Türkiye'nin İzmir ölçeğinde bir bölümünün zengin arkeolojik ve tarihsel birikimini başta hedef kitle olan Rusya Federasyonu ve Orta Asya Türk Cumhuriyetleri olmak üzere tüm dünyaya tanıtmak ve ülkelerarası dostluk ve kültür ilişkilerinin geliştirilmesine katkıda bulunmak amacıyla tasarlanmış bir proje idi.

Kongre, adından da belli olduğu gibi, ilk kez yapılan bir kongre idi. İçerik, kapsam ve organizasyon bakımından türünde de ilkti. Bununla birlikte, projenin ilkelerinden biri de, kongrenin uluslararası saygınlığının en yüksek düzeyde tutulmasıydı. Seçilen Uluslararası Bilim Kurulu Üyeleri Avrasya araştırmaları konusunda dünyanın en saygın bilimcilerdir ve "Avrasya Türk Arkeolojisi" kavramını son 20 yılda kurumsal düzeye taşıma çabası gösteren bu seçkin bilim insanı grubu, bu güne kadar dünyada ilk kez bu toplantı münasebetiyle, İzmir'de bir araya getirilmiştir.

Kongrede, Başta Rusya olmak üzere, hemen tüm Avrasya ülkeleri (Ukrayna, Hakasya, Tuva, Altay, Moğolistan, Çin Halk Cumhuriyeti, Japonya, Kore, Kazakistan, Kırgızistan, Özbekistan, Hindistan, Tacikistan, İran, Azerbaycan (Nahcivan), Dağıstan, Abhazya) ve Amerika, Almanya, İngiltere, İspanya, İsviçre, Macaristan, Çek Cumhuriyeti, Polonya, bu ülkelerin en değerli arkeologları tarafından temsil edildiler ve Kongrede, basılı programda yer almayanlar da dâhil 119'dan fazla bildiri tartışıldı. Hiçbir yönlendirme olmadığı halde bildirilerin yarısından fazlası doğrudan Avrasya Türk Arkeolojisi ile, geri kalan kısmı da Avrasya arkeolojisinin genel konularıyla ilgili idi. Bilimsel oturumlar, gün içinde saat 08.00'de başladı, 19.00'da sona erdi. Kongre başkanının yönetiminde Uluslararası Bilim Kurulu her gün saat 21.00 – 01.00 arasında yoğun toplantılar gerçekleştirdiler. Kongrenin son günlerinde, İzmir çevresinin tarihsel-arkeolojik alanlarına ve dünya uygarlığının en önemli merkezlerinden olan Troya'ya gezi düzenlendi. Konuklarımız, 27 Mayıs 2007'de İstanbul havaalanından ülkelerine uğurlandı.

Konsantrasyonun bozulmasına ve popüler unsurların öne çıkmasına fırsat vermemek amacıyla, Kongreye hiç bir basın/medya kuruluşu çağrılmadı. Bir şekilde haber alıp gelenlere ise, Kongre süreci içinde Kongre yönetiminden doğrudan bilgi verilmedi.

Kongre hazırlıkları çerçevesinde, 2008'de 4 cilt halinde yayınlanması planlanan bilimsel raporların Türkçe-Rusça-İngilizce özetlerini içeren 228 sayfalık Bildiri Özetleri kitabı, katılımcılara sunuldu. Katılımcılar, İzmir'in en güzel noktalarından birinde, Çeşme'de, beş yıldızlı otel ortamında, hiç birinden, hiç bir katılım ücreti, konaklama ve beslenme ücreti alınmaksızın, en uygun koşullarda konuk edildiler.

Kongrede, bilimsel eserleri pek çok Avrupa dillerine ve Türkçeye de çevrilmiş, dünyaca ünlü Avrasya arkeologlarından dördüne, Prof. Dr. Vladimir Kubarev'e (Novosibirsk), Prof. Sergey Minyavev'e (St. Petersburg), Prof. Vladimir Semenov'a (St. Petersburg), ve tarihçi Prof. Emine Gürsoy Naskali'ye, Avrasya Türk Arkeolojisi surecine çeşitli biçimlerde sağladıkları katkılarından ötürü "Anadolu & Avrasya Enstitüsü Emeğe Saygı Ödülü" verildi.

### *Kongrenin Önemi*

Evrensel kültürün önemli bir bölümünü oluşturan Mezopotamya uygarlığı, Hitit, Helen, Roma kültürü üzerinde, geçtiğimiz yüzyılın başından bu yana yüzlerce, hatta binlerce uluslararası kongreler gerçekleştirilmiştir. Buna karşılık, evrensel kültürün diğer tamamlayıcı ve önemli bir parçası olan Türk kültürünün Avrasya'daki arkeolojik, etnik, spritüel katmanlarıyla ilgili, ne yüzlerce ulusal, ne de uluslararası kongre yapılmıştır. Bunun nedeni biraz da, Avrasya'nın modern dünyaya uzunca bir süre "kapalı" kalmış olmasıdır. Rusya'da (ve post-sosyalist ülkelerde) bile Türk kültürüne ve Klasik Türk Dönemi arkeolojik birikimine yönelik bilimsel toplantılar tarihi, ancak bir iki on yıl öncesine dayanır. Türkiye'de Türk kültürü konferansları denilince akla ilk gelen Prof. Emine G. Naskali tarafından İstanbul Üniversitesi adına yıllardır aralıksız düzenlenen toplantılar gelir. O toplantılar, bilimsel nitelikleri ve somut sonuçları bakımından, yüksek seviyedeki toplantılar olarak kayıtlara geçmiştir. Avrasya Türk kültürü konusunu da (kısmen) içine alan uluslararası düzeydeki toplantılar olarak kabul edilen Türk Tarih Kurumunun dört yılda bir yaptığı Türk Tarih Kongresi ve Atatürk Kültür Merkezinin iki yıllık aralarla düzenlediği Türk Kültürü Kongreleri de, ağırlıklı olarak ya Osmanlı tarihi ve/veya artık bilinenin tekrarından daha öteye gitmekte zorlandığı gözlemlenen Türk dili araştırmaları üzerinedir. Oysa Avrasya'da Türklere ait en zengin bilgi-belge çokluğu onların arkeolojik ve spritüel (şamanizm) birikimlerinde gizlidir ve, hatta dile dair özgün belgelerin de keşifleri yine arkeolojik kazılardadır. Artık herkesçe bilinmelidir ki, Avrasya Türk araştırmalarının geleceği, kazıbilim formasyonuna sahip, deneyimli arkeologlarca tasarlanacak ve yürütülecek uluslararası arkeolojik kazı projelerindedir. Bu kavram çerçevesinde, neredeyse iki yıllık uzun sayılabilecek bir zaman içinde tasarlanan, hazırlanan ve nihayet gerçek kılınan bu Kongrenin önemi de, Türk kültürünün Avrasya'daki arkeolojik ve spritüel kökleriyle ilgili pek çok konunun akademik düzeyde, önyargısız, uluslararası bilim kriterlerine göre ele alınmasına ve hiçbir baskı ve yönlendirme olmaksızın, aşağıda verilen ortak sonuç bildirgesinin imzalanmasına imkân ve zeminin, Türkiye'de ve Türk bilim insanları tarafından sağlanmış olmasındadır.

### *Birinci Uluslararası Avrasya Arkeoloji Kongresi Sonuç Bildirgesi*

23 – 24 Mayıs 2007'de, saat 21.00 – 02.00 arasında yapılan Birinci Uluslararası Avrasya Arkeoloji Kongresi, Uluslararası Bilim Kurulu toplantısında aşağıdaki sonuçlara ulaşıldı:

1 21 – 24 Mayıs 2007 tarihleri arasında İzmir, Çeşme, Ilıca Otelde gerçekleştirilen Kongreye, 25 ülkeden, 119 temsilci katılmıştır. Bu temsilciler, kendi ülkelerinde Avrasya Arkeolojisi alanında çalışan uzman kişilerdir. Kongre üç gün boyunca, iki salonda (Bilge Kagan ve Cengiz Han Kongre Salonları) 16 oturum ha-

linde gerçekleştirilmiştir. Her oturumun sonunda bildirilerle ilgili ayrıntılı ve verimli tartışmalar yapılmış, bu tartışmalar sayesinde ülkemiz ve yurtdışından gelen bilim insanları arasında zengin bir bilgi alış-verişi gerçekleştirilmiştir.

**2** Kongre, bu alanda ülkemizde yapılan ilk kongre olma özelliği taşımaktadır, bilimsel içerik, katılımcıların uluslararası saygınlıkları, ön bilimsel hazırlıklar ve profesyonel organizasyon bakımından, aynı kavramda dünyada bu güne kadar gerçekleştirilen kongreler içinde en büyüğü olarak kayıtlara geçmiştir.

**3** Bilimsel seviyesi en yüksek noktalara ulaşan Kongre, üye ülkelerarası akademik ilişkilerin güçlenmesi, ortak projelerin yaratılması ve toplumlar arasında dostluk ilişkilerinin canlanmasına vesile olmuştur.

**4** Kongrede, tüm dünyaya, sadece bilimsel değil, aynı zamanda, Slav-Uzakdoğulu-Türk dilli halkların tarihten gelen dostluğu ve kardeşliğinin anlam kazandığı "Avrasyalılığın" vurgulanması ve bu kavramın öneminin bir kez de bu toplantıda yenilenmesi noktalarında önemli mesajlar verilmiştir.

**5** "Avrasya Türk Arkeolojisi"nin Türkiye üniversitelerinde ve bilim kurumlarında kurumsallaştırılmasının gerekliliği vurgulanmıştır.

**6** Birinci Uluslararası Avrasya Arkeoloji Kongresinin bundan sonra kurumsallaştırılmasına, Kongrenin her üç yılda bir yapılmasına, 2010'da düzenlenecek ikincisine yine Türkiye'nin ev sahipliği yapmasına, diğerlerine ise, Kongre Daimi Bilim Komitesi'nin alacağı kararlara göre, diğer üye ülkelerin ev sahipliği yapmasına, İkinci Uluslararası Avrasya Arkeoloji Kongresinin, Kültepe Kaniş-Karum'un Kayseri'sinde, Çatalhöyüğün Konya'sında ya da uygarlıklar beşiği Antalya'da yapılmasına karar verilmiştir.

**7** İkinci Uluslararası Avrasya Arkeoloji Kongresinin teması "Avrasya'da Türk Halklarının Arkeolojik ve Etno-Kültür Tarihi" olarak benimsenmiştir.

23 - 24 Mayıs 2007, Çeşme, İzmir

**Birinci Uluslararası Avrasya Arkeoloji Kongresi**
**Uluslararası Daimî Bilim Kurulu**

**A.Semih Güneri**
(Başkan)

**Luo Xin**
Çin Halk Cumhuriyeti Delegasyonu Adına

**Ayman Dosimbayeva**
(Genel Sekreter)

**Takaşi Osava**
Japonya Delegasyonu Adına

**Yaşar Çoruhlu**
Türkiye Delegasyonu Adına

**Zeynullah Samaşev**
Kazakistan Delegasyonu Adına

**Vadim Bjaniya**
Abhazya Delegasyonu Adına

**Kadiça Taşbayeva**
Kırgızistan Delegasyonu Adına

**Anıl Yılmaz**
Türkiye Delegasyonu Adına

**Kubatbeg Tabaldiyev**
Kırgızistan Delegasyonu Adına

**Necef Museyibli**
Azerbaycan Delegasyonu Adına

**Ekaterina Devlet** (Moskova)
Rusya Delegasyonu Adına

**Vladimir Kubarev** (Novosibirsk)
Rusya Delegasyonu Adına

**Yuliy Hudyakov** (Novosibirsk)
Rusya Delegasyonu Adına

**Dimitriy Savinov** (St.Petersburg)
Rusya Delegasyonu Adına

**Vladimir Semenov** (St.Petersburg)
Rusya Delegasyonu Adına

**Svetlana Bilyaeva**
Ukrayna Delegasyonu Adına

* * *

**BİRİNCİ BEYNƏLXALQ AVRASİYA ARXEOLOJİ KONQRESİ.** 2007-ci ilin 21-24 may tarixlərində İzmirdə Birinci Beynəlxalq Avrasiya Arxeoloji Konqresi keçirildi. Konqres Anadolu və Avrasiya İnstitutu tərəfindən təşkil olunmuşdu. Təşkilati məsələlərdə Turkiyənin Kultur və Turizm Bakanlığı, Başbakanlıq TİKA, Türk ocaqları, İzmir Valiliyi, İzmir Böyükşehir Bələdiyyəsi və EBSO Anadolu və Avrasiya İnstitutuna yardımçı olmuşdular. Konqres Türkiyənin ən gözəl guşələrindən biri olan Egey dənizinin sahilində, İzmir vilayətinin Çeşmə şəhəri yaxınlığındakı İlica mehmanxanasında təşkil olunmuşdu. Müasir elektron avadanlıqlarla təchiz olunmuş, "Çingiz xan" və "Bilgə xaqan" adlı iki böyük iclas zalı olan bu mehmanxana Konqresin intensiv iş rejiminə uyğun idi.

Konqres öz işinə may ayının 21-də, saat 11-də plenar iclasla başladı. Konqresin Sədri Anadolu və Avrasiya İnstitutunun professoru, arxeoloq Semih Güneri Konqresi açıq elan etdikdən, Konqresin əhəmiyyəti və iştirak edən ölkələr haqqında qisa məlumat verdikdən sonra Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin məsul işçisi, İzmir Valisi, İzmir Böyükşehir Bələdiyyəsinin Sədri və başqa rəsmi şəxslər Konqres iştirakçılarını salamladılar.

İclaslar iki bölmədə səhər saat 8-30-dan axşam saat 19-00-a qədər davam edirdi. Konqres öz işini may ayının 23-də saat 14-00-da başa çatdırdı.May ayının 23 və 24-də iştirakçılar üçün mədəni proqram nəzərdə tutulmuşdu. Bu proqram çərçivəsində konqres iştirakçıları Çeşmə şəhəri, Efes və Berqamonla tanış oldular.

Konqresdə Türkiyədən, Azərbaycandan, Amerikadan, Almaniyadan, Rusiyadan, Ukraynadan, Çindən, Yaponiyadan, Qazağıstandan, Qırğızıstandan, Bolqarıstandan, Macarıstandan, Monqolustandan və başqa ölkələrdən 102 arxeoloq iştirak edirdi. Konqresdə sırf arxeoloji tədqiqatlara həsr olunmuş məruzələrdən başqa arxeoloji materiallara əsaslanan etnologiya, mifologiya və tətbiqi incəsənətlə bağlı çıxışlar da maraqla dinlənildi.

Azərbaycandan Konqresə B. İbrahimov və S. Qaşqayın "Gilançay hövzəsinin arxeoloji abidələri", N. Müseyiblinin "E. ə. 1V minillikdə Mesopotamiyadan Qafqaza miqrasiyalar və Qafqazın ilk tunc dövrü mədəniyyətlərinin mənşəyi" və T. Axundovun "Azərbaycanın ilk əkinçi – heyvandarları və ohların öyrənilmə problemləri" adlı məruzələri təqdim olunmuşdu. S. Qaşqay və T. Axundov obyektiv səbəblərə görə İzmirə gedə bilməmişdilər. B. İbrahimov və N. Müseyiblinin çıxışları maraqla qarşılanmış və Konqresin yekun iclasında 17

ən maraqlı məruzələrin sırasında qeyd olunmuşdu. Konqresdə dinlənilən məruzələrin mətni 228 səhifəlik məcmuədə dörd dildə - türk, ingilis, rus və qazax dillərində nəşr edilmişdir.

Elmi əlaqələrin genişləndirilməsi, elmi informasiya mübadiləsi, Azərbaycanda aparılan arxeoloji tədqiqatların nəticələrinin elmi dövriyyəyə çıxarılması və Azərbaycan abidələrinin dünya miqyasında tanınması baxımından beynəlxalq miqyasda keçirilən konqres, konfrans və simpoziumların mühüm əhəmiyyəti vardır. Arxeoloqlarımız bu cür beynəlxalq məclislərdə daha tez-tez və geniş heyətlə çıxış etməlidirlər.

***Bəhlul İbrahimli***

* * *

**Beynəlxalq elmi konfrans – Mahmud Zamahşari və Şərqin elmi-ədəbi İntibahı. 23-25 may 2007-ci il. Aşqabad – Daşoğuz.** Qədim Şərqin dühalarından sayılan Mahmud Zamahşarinin ədəbi-fəlsəfi irsinə həsr olunmuş beynəlxalq elmi konfrans Türkmənistanın paytaxtı Aşqabad şəhərində açıldı və öz işini Daşoğuz şəhərində davam etdirdi.

Konfransın işində dünyanın 26 ölkəsindən gələn tanınmış alimlər iştirak edirdi. Konfransın gedişində 5 bölmədə dahi mütəfəkkir şairin çoxşahəli yaradıcılığına aid 120-dən artıq elmi məruzə dinlənildi və müzakirə edildi.

Azərbaycan mötəbər elmi məclisdə AMEA və Bakı Dövlət Universiteti alimlərinin: f.e.d.prof.Qara Namazovun «Türk dünyasının şifahi xalq yaradıcılığı Şərqin İntibah dövrü bədii ədəbiyyatında əsas kimi», t. e. d., prof. Qüdrət İsmayılzadənin «Bədii təfəkkürün ulduzlar kəhkəşanı», f.e.n. Firuzə Ağayevanın «Türkmən ədəbiyyatının tarixi kökləri», f.e.n. Nigar İsmayılzadənin «Müsəlman İntibahı mütəfəkkirlərinin yaradıcığında dil məsələsi», t.e.d. prof. Tarix Dostiyevin «Mahmud Zamahşari dövrünün bədii keramikası», baş elmi işçi Sevda Hüseynovanın «Müsəlman İntibahı dövrünün şirsiz bədii keramikası», t.e.n. Qənirə Pirquliyevanın «Şərq İntibahı dövründə Bizans ilə Azərbaycan arasında əmtəə-pul münasibətləri» və dissertant Pərvin Əlizadənin «Azərbaycanın mədəni irsində orta əsrlər düvrğ» mövzusunda məruzələri ilə təmsil olunmuşdu.

Bütün məruzələr böyük maraqla dinlənildi və yüksək qiymətləndirirldi. Konfrans zamanı qonaqlar Daşoğuz vilayətinin zəngin tarixi-memarlıq abidələri, o cümlədən Mahmud Zamahşarinin həyat və yaradıcılığı ilə bağlı tarixi yerlərlə tanış oldular.

***Qüdrət İsmayılzadə***



## Памяти Галины Федоровны Коробковой

Археологическая наука понесла тяжёлую утрату. В июне 2007 года после тяжёлой болезни скончалась известный исследователь первобытного общества, выдающаяся археолог-трасолог, доктор исторических наук, академик Российской Академии Естественных Наук Галина Федоровна Коробкова. Вся замечательная жизнь Галины Фёдоровны – это постоянная жажда познания, творческого горения, беззаветного служения науке. Первая ученица и последовательница создателя трасологического метода в археологии, лауреата Государственной премии Сергея Аристарховича Семёнова, Галина Фёдоровна Коробкова с 70-х годов прошлого столетия бессменно возглавляла организованную им Экспериментально-трасологическую лабораторию Института Истории Материальной Культуры Российской Академии Наук, которая была признана международным центром трасологического исследования. Под её руководством была проделана гигантская работа по изучению коллекций древних орудий всех эпох – от палеолита до развитого средневековья огромной территории, от Западной Европы до Дальнего Востока, от Скандинавии до Индии. Талантливая ученая регулярно организовывала и проводила экспериментально-трасологические экспедиции, международные летние археологические школы. Результатом многолетней исследовательской работы академика Г.Ф.Коробковой являются фундаментальные научные труды, которые вошли в золотой фонд отечественной и мировой археологической науки.

Заслуживает внимания то обстоятельство, что особое место в научной деятельности Г.Ф.Коробковой занимает проблема раннего земледелия

Южного Кавказа и Ближнего Востока. Впервые с помощью микроанализа были изучены материалы раннеземледельческих обществ этих регионов, и в частности Азербайджана, что позволило глубоко и всесторонне реконструировать процесс культурно-исторического развития древнейших оседло-земледельческих обществ Азербайджана и всего Кавказа.

Велика заслуга учёного в подготовке специалистов-трасологов. Галина Фёдоровна была замечательным педагогом, щедро и бескорыстно передававшей свой научный опыт и знания ученикам из Азербайджана. Для нас она всегда была образцом поразительного трудолюбия, научной строгости и требовательности в работе и стремления к новым открытиям.

Безвременная смерть помешала талантливому исследователю продолжить свою работу, незаконченными остались многие творческие замыслы учёной, до последнего дня жившей полнокровной научной жизнью. Своё жизненное кредо Галина Фёдоровна выразила в интервью, данное ею журналу «Azərbaycan Arxeologiyası». «Археология дала мне смысл жизни и открыла перспективы в избрании научных направлений. Я отдала ей свою любовь трудоголика и посвятила её служению всю свою жизнь».

Галина Федоровна Коробкова ушла из жизни, но память о ней навсегда сохранится в сердцах всех её учеников, многочисленных последователей и археологов мира, и в том числе Азербайджана.

***Редколлегия журнала***
***«Azərbaycan Arxeologiyası»***


NƏCƏF MÜSEYİBLİ
BÖYÜK KƏSİK
ENEOLİT DÖVRÜ YAŞAYIŞ MƏSKƏNİ
NAJAF MUSEIBLI
CHALCOLITHIC SETTLEMENT
BEYUK KESIK
НАДЖАФ МУСЕИБЛИ
ЭНЕОЛИТИЧЕСКОЕ ПОСЕЛЕНИЕ
БЕЮК КЕСИК

Национальная Академия Наук Азербайджана
Институт археологии и этнографии
И.Г.Нариманов
Т.И.Ахундов, Н.Г.Алиев
ЛЕЙЛАТЕПЕ
Поселение, традиция, этап в этно-культурной истории Южного Кавказа
Баку 2007

Вилаят Керимов
История развития оборонительного зодчества Азербайджана
с древнейших времён до XIX века
история * архитектура * археология

ŞƏMKİR
ARXEOLOJİ İRSİ
TARİXİ VƏ MEMARLIĞI
26-29 NOYABR 2007, ŞƏMKİR
SHAMKIR
History and Architecture
The 1st National Scientific and Practical Conference